**NƏCİB FAZİL QISAKÜRƏK**




# BİR ADAM YARATMAQ

**Bakı – 2013**

**Azərbaycan dilinə uyğunlaşdıran**
**və ön sözün müəllifi:**
**Eşqanə Akif qızı BABAYEVA**
*filologoya elmləri üzrə fəlsəfə doktoru*

**Redaktoru:**
**Arif Əmrah oğlu MƏMMƏDOV**
*filologoya elmləri üzrə fəlsəfə doktoru*

**Nəcib Fazil Qısakürək. Bir adam yaratmaq.** Bakı, "Elm və təhsil", 2013, 172 səh.

*XX əsr türk ədəbiyyatının böyük şairi Nəcib Fazil Qısakürək (1904--1983), həm də qüdrətli dramaturqdur. On yeddi pyes müəllifi Nəcib Fazilin dram yaradıcılığının səciyyəvi cəhətləri haqqında "Bir adam yaratmaq" pyesi daha dolğun təsəvvür yaradır. Pyesdə eşqin, ölümün, kədərin, göz yaşının fəlsəfi mahiyyəti açıqlanır, iztirab çəkən ruhun dramı sərgilənir.*

*"Bir adam yaratmaq" Nəcib Fazil Qısaküräyin Azərbaycanda nəşr edilən ilk pyesidir.*

*Kitab geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.*

# İZTİRAB ÇƏKƏN RUHUN DRAMI

*Əqrəb nöqtə-nöqtə ruhumu sancmış,*
*Fəsildən-fəsilə girdim beləcə.*
*Gördüm ki, alovda, atəşdə yoxmuş,*
*Fikir çiləsindən böyük işgəncə*

Nəcib Fazil Qısakürək (1904-1983) insan ruhunun metafizik dərinliklərini özünəməxsus şəkildə ifadə edən böyük bir sənətkar olmuşdur. Onun yaradıcılıq axtarışlarının sayəsində müasir türk şeiri, türk dramaturgiyası yeni yüksəliş mərhələsinə qədəm qoymuşdur. Nəcib Fazil, yeni fikir cərəyanlarının yarandığı, ədəbiyyatın sürətlə inkişaf etməyə başladığı bir zamanda, çox sahəli yaradıcılığı, əsərlərinin özünəməxsus poetik mükəmməlliyi, dərin lirizmi ilə əks-səda doğurmuş, cərəyanların fövqündə duran qüdrətli bir sənətkar kimi yetişmişdir.

Böyük şair 26 may 1904-cü ildə İstanbulda dünyaya göz açmış, valideynlərindən daha çox, babası Mehmet Hilmi əfəndinin himayəsi altında böyümüş, kiçik yaşlarından sərbəst oxuyub yazmağı öyrənmişdi.

17 yaşında (1921) İstanbul universitetinin Ədəbiyyat fakültəsinə daxil olan Nəcib Fazil sufi-fəlsəfi təlimlərini hələ lisə illərində müəllimi İbrahim Eşqi əfəndidən almış, Berqson fəlsəfəsinin incəliklərini isə böyük filosof Mustafa Şəkib Tuncdan öyrənmişdir.

1924-cü ildə universitetin axırıncı kursundaykən, Qısakürək Sorbonna universitetinin fəlsəfə şöbəsində oxumaq üçün Parisə göndərilir. Burada, Parisin “bohem həyatı”nı yaşayaraq, qumar oynamaq xəstəliyinə tutulan ədib xatirələrində yazır ki, bir gün sanki yuxudaymışım kimi, silkələnib ayıldım. Və ucları kir dolu dırnaqlarımla üzümü cıraraq, “Allahım, məni özümdən qoru” deyib ağlamağa

başladım. Beləliklə, şair Sorbonna universitetindəki təhsilini yarıda qoyub geri qayıdır.

Gənc şair bir müddət müxtəlif banklarda müfəttişlik etməyə başlayır. 1925-ci ildə isə onun ilk şeir kitabı "Hörümçək toru", daha sonra isə 64 səhifədən ibarət "Səkilər" şeir kitabı nəşr olunur.

1930-cu illər artıq böyük şair kimi tanınan Nəcib Fazilin ruhi iztirablar içində qovrulduğu, həyatının ən dəhşətli illərini keçirdiyi bir mərhələ olur. Fikir girdabında boğulan, nəhayət, "Allahım məni özümdən qoru" deyib, çarə axtaran şairin həyatında, hətta düşüncə sistemində dönüş yaradacaq böyük bir hadisə baş verir. Nəqşibəndi şeyxi Əbdülhakim Ərvasi ilə tanışlıq və səmimi dostluq onun kamil bir insan kimi yetişməsində, sufi-fəlsəfi təlimlərini mənimsəməsində önəmli rol oynayır. Hətta, şair,

*Tam otuz il saatım işləmiş mən durmuşam;*
*Göy üzündən xəbərsiz, çərpələng uçurtmuşam...*

deyərək, şeyxi tanımamışdan öncəki həyatını heç hesab edərək, "O və mən" avtobioqrafik əsərində yazır ki, "Həyatım başından bəri müəzzəm bir şeyi axtarıb tapmanın cərəyanı içində axıb gedirdi. Bu və ya digər miskin vəsilənin həssaslığı içində birini axtarırdım. Birini ... O kimdi? Allahın sevgilisi... Sonsuzluq iqliminin batmayan günəşi və əbədilik sarayının paslanmaz tacı.. "

Beləcə axtardığını tapan Nəcibin həyatında yeni səhifələr açılmağa başlayır. Şeyx Əbdülhakim Ərvasi ilə tanış olub əsl gerçəyi, həyatın mənalar aləmini dərk edən sənətkarın yaradıcılıq yolu bu baxımdan bir-birindən kəskin şəkildə fərqlənən iki mühüm mərhələyə ayrılır. Hətta, şair özü də "O və mən" adlı avtobioqrafik əsərində bunu etiraf edərək, həyatınının onu tanımamışdan öncəki və sonrakı deyə iki dövrdən ibarət olduğunu qeyd edir.

Həyatının sonuna qədər kəskin ictimai-siyasi publisistik fəaliyyəti, alovlu çıxışları ilə öz mübarizəsini əzmlə davam etdirən, eyni zamanda ədəbiyyatın bütün sahələrində ən gözəl sənət inciləri yaradan Nəcib Fazil, 1983-cü il may ayının 26-da bal rəngli gözlərini uzaqlara dikərək "deməli, belə ölürlərmiş" son kəlimələrini deyərək həyata vida edir.

Əsasən böyük bir şair kimi tanınan Nəcib Fazıl, eyni zamanda çox istedadlı dramaturq idi. "Toxum", "Yunus Əmrə", "Səbr daşı", "Müqəddəs əmanət" və s. kimi pyeslər qələmə alan Qısakürəyin dramaturgiyasının zirvəsini "Bir adam yaratmaq" təşkil edir. O, bu əsərində iztirab çəkən insan ruhunun dramını sərgiləyir. Xatırladaq ki, onun dram sahəsində ilk qələm təcrübəsi "Toxum" idi. Bu əsər geniş şöhrət qazansa da, müəllifin ümidlərini bir o qədər də doğrultmamış, səhnədə uğur qazana bilməmişdir. Bundan təsirlənən dramaturq, dünya miqyasına çıxa bilən bir əsər yazmağı qərara alır. Beləliklə, 2 il fasilələrlə üzərində işlədiyi "Bir adam yaratmaq" pyesi ərsəyə gəlir. Əsər 1937-38-ci illərdə İstanbul şəhər teatrında səhnəyə qoyulur və böyük uğur qazanır.

"Bir adam yaratmaq" pyesinin əsas qəhrəmanı Xosrovdur. Məşhur bir dramaturq olan Xosrov "Ölüm qorxusu" adlı pyes yazır. Burada atası intihar etmiş bir dramaturqun ölüm fəlsəfəsindən, iztirab çəkən əzabkeş ruhundan, ölümdən qurtulmaq istəyərkən ölümün ağuşuna atılmağından bəhs edilir. Gördüyümüz kimi, dramaturq pyes içində pyes yazır.

Nəcib Fazil, Xosrov obrazı vasitəsi ilə ruhi əzablar içində qovrulan, qəlbindəki suallara cavab axtarmağa çalışan dolğun bir obraz yaradır. Sufi-fəlsəfi ideyaların təcəssümü, olum ya ölüm fəlsəfəsi onun timsalında təqdim edilir. Əsərdə ən dəhşətli işgəncə olan fikir böhranı dilə gətirilir. Xosrov yazdığı əsərlə, daxili dünyasıyla, eyni zamanda ətrafıyla gərgin konfliktdədir. Dramaturq göstərir ki, Xosrov, "Ölüm qorxusu" əsərini yazdıqdan sonra öz faniliyini, öz acizliyini

dərk edir. Əsərdə heçlikdən qaçmaq, qurtulmaq, əbədiyyən yaşaya bilmək ehtirası əks olunur. Xosrovun hayqıraraq “Allahım, mən yox ola bilmərəm! Hər şey olaram, yox ola bilmərəm!” sözlərində bu açıq-aydın görünür. Əslində bu sözlər Xosrovun özünün deyil, “Ölüm qorxusu” pyesinin qəhrəmanının sözləridir. Xosrov yazdığı pyesin qəhrəmanının varlığında əriyir, yox olur. O, özü də çaş-baş qalır, “Axı, mən kiməm?” deyə fəryad qoparır. Əsərdə çox önəmli bir mövzuya, alın yazısı məsələsinə də toxunulur. Nəcib Fazilə görə, qədər - tale elə incə məsələdir ki, ən bəsit cizgisinə belə heç bir xəyal nüfuz edə bilməz. Yalnız Allahın dediyi və onun yazdığından daha gözəl, daha doğru və daha yaxşı heç nə ola bilməz. Əsərdəki alın yazısı məsələsi isə Allahla insan arasındakı münasibətin ifadəsi şəklində üzə çıxır. Xosrov öz pyesini yazmaqla pyesdəki insana tale yazmış olur. Xosrov, çılğınlıqla “Bir adam yaratmağa qalxdım. Bir adam yaratmaq... Bu adama bir də tale yazmaq lazımdır” deyə əzab içində qovrulur.

Bu sözlər “Bir adam yaratmaq” həqiqətinin şifrəsi rolunu oynayır. Xosrov, qadağan olunmuş sərhədləri aşmaq istədiyini başa düşür, Allah qarşısındakı acizliyini anlayır. Elə əsərin əsas ideyası da budur.

N.Fazil bu əsəriylə oxucu qarşısında Allah və insan, alın yazısı, ölüm, fanilik kimi mühüm məsələlər qoyaraq, onun fəlsəfi mahiyyətini açıqlamağa çalışır.

Ölüm, hər birimizi düşündürən cavabsız suallardan biridir. Həssas şairi isə bu daha çox düşündürür. Hələ uşaq vaxtı, körpəliyindən bəri daim divarlara yapışa-yapışa, ortalıqda ona-buna əngəl olmaqdan ürkə-ürkə, bəyazı damar-damar görünən ala gözləriylə hey öləcəyi günü gözləyən bacısı Səlmanın, daha sonra isə “Evimizin ruhu babam, babamın ruhu isə mən idim” deyə bəhs etdiyi sevimli babasının ölümü onun yaddaşında silinməz izlər buraxmışdır. Əlbəttə ki, bu hadisələr “Bir adam yaratmaq” pyesində də özünü göstərirdi. Hələ pyesin əvvəlində bəlli olur ki,

Xosrovun əsərinin adı "Ölüm qorxusu" dur. Heç şübhəsiz ki, bu bir təsadüf deyil. Atasının intihar etməsi balaca Xosrovun şüuraltına yerləşərək, onda bu qorxunu yaradır. Əslində "Ölüm qorxusu" pyesinin meydana gəlməsi də Xosrovun şüuraltı istəkləri ilə bağlıdır. Buna görə də əsərdəki hadisələr onun şəxsi həyatı ilə üst-üstə düşür. Xosrovun yazdığı bu əsər, onu atasının intihar səbəbini düşünməyə sövq edir. Atasının qeyd kitabçasında "Ölümə əlac, ölüm"dür sözlərinin altından xətt çəkilmişdir. Deməli, intiharın səbəbi də elə bu idi.

Başlanğıcda ölüm əsərin leytmotivini təşkil etsə də, yavaş-yavaş əsər məcrasını dəyişərək qorxu, vahimə, daha sonra isə yaratma düşüncəsinə, ordan da Allah qarşısında çarəsiz qalan insanın sirlər aləminə dönür. Elə Xosrovun daxilindəki konfliktin səbəbləri də bu idi. Beləcə, ölüm qorxusu və qarabasmalar, üstəlik də bir adam yaratmanın xofu Xosrovu bir çarəsizliyə doğru sürükləyir. Bəli, bu cavabsız suallar, fanilik duyğusu, vicdan əzabı onun həyatını cəhənnəmə çevirir. O, özü-özünə düşmən kəsilir.

Əsərdə diqqəti cəlb edən maraqlı məqamlardan biri də əncir ağacıyla bağlıdır. "Ölüm qorxusu" pyesinin qəhrəmanı və atası, eləcə də Xosrovun atası özünü əncir ağacından asır. Niyə əncir ağacı?! Niyə yazar öz əsərini bu motivlə başlayıb, bu motivlə bitirir. Deməli, bu bir təsadüf deyil, əsərin əsas məqsədiylə bağlıdır. Əsərə nəzər salsaq, elə ilk pərdədən Xosrovun heç kəsə demədiyi bütün mənliyini möhürləyən gizli bir sirri olduğunu görürük. Bu "gizli sirr" Xosrov obrazının bütün davranışlarını həyata keçirərək, əsərin onurğasını təşkil edən böyük əzaba da mənbə olur. Əsərdən bəlli olur ki, o balacaykən, atası özünü əncir ağacından asır. Bir sözlə, onun uşaqlığı əncir ağacının uğursuzluq gətirən hekayətlərini dinləməklə keçir. Bu köklü-köməcli ağac onun sirrinin bir parçasına çevrilir. Bu ağaca bağlılıq şüuraltı olaraq beyninə hopur. Bəlkə, elə ölüm düşüncəsini də bu köklü-köməcli əncir ağacından alır. Bilirik ki, dində də əncir ağacının əhəmiyyətli yeri vardır. Simvolik xarakter daşıyan bu

ağac, Nəcib Fazilin ən uğurlu tapıntılarından biridir. Dramaturq əsərin sonunda xatirələrlə dolu bu ağacın ətrafını “yasaq və sirli bir bölgə” kimi təqdim edir. Ağacın kəsilməsi, Xosrovun mənəviyyatına ağır zərbə vurur. Xosrov fəryad qoparır, anasına “Axı niyə? Niyə?” deyə suallar yağdırır. Anasının “Oğlum, bu qədər pis xatirəsi olan ağacı niyə sevirsən?” sualına, “Çünki o atam idi. Özüm idim. Uşaqlığım idi. O, səndən sonra ən çox sevdiyim varlıq idi. Ən çox sevdiyim varlıqdan ən böyük pisliyi gördüm. Atam özünü ondan asdı. O mənim yenə də ən çox bağlı olduğum varlıq olaraq qaldı. İndi onu kəsdiniz. Düz dibindən kəsdiniz. Beləcə dünyamı da kəsmiş oldunuz.” deyə cavab verir.

Mükalimədən də aydın olur ki, bu ağac maddilikdən çıxaraq, mənəvi xarakter qazanır. Əslində, əsərin əncir ağacıyla nöqtələnməsi, saxta, mənasız, insan gerçəkliklərinə sığmayan fani bir dünyadan, əsl qurtuluşa qovuşduğunu göstərir. Elə buna görə də əsər Xosrovun "Nə edim ana, kəsdiniz əncir ağacını?" təsiredici, düşündürücü sözləriylə bitir.

Xosrov özünü dost kimi göstərən ikiüzlülərin, öz şəxsi mənafeyini güdən Şərəflərin, Nevzadların yaşadığı bu cəmiyyətdə sıxılır, tənhalaşır və o, bu dəhşətli cəmiyyətin qurbanına çevrilir. Xosrov onsuz da onun xəyal dünyasından xəbərsiz olan bu insanlarla bir mühitdə yaşamaqdansa, dəlilərlə bərabər dəlixanada yaşamağa üstünlük verir.

Bu əsər bizə Norveç yazıçısı Henrix İbsenin “Vahimə” əsərini xatırladır . Əsərin əsas qəhrəmanı Osvald Alvinq də Xosrov kimi evin bütün sirlərindən uzaq tutulur. Əyyaş atasının ölümünün səbəblərini oğlundan gizlədən ana, bu hadisənin ona psixoloji təsir etməsindən ehtiyatlanır və ərini ona ideal bir insan kimi təqdim edir. Amma şüuraltına hopmuş bəzi nüanslar Osvald Alvinqi düşünməyə sövq edir. O da eynən Xosrov kimi işgəncələrə düçar olur, Manderslərin olduğu cəmiyyətə məğlub olur. Gördüyümüz kimi, hər iki əsərdə şəxsiyyət və cəmiyyət məsələsi dayanır. Təbii ki, bu

tipoloji səsləşmələr, bənzər mövzulara müraciət müxtəlif ədəbi axınların təsiri ilə izah oluna bilər.

Xosrov obrazı dolğunluq, baxımından Şekspirin “Hamlet”ini də yada salır. "Hamlet"in ana mövzusunu təşkil edən məşhur “Olum, ya ölüm?” fəlsəfi düşüncəsi bu əsərdə də xüsusi yer tutur. Hər iki qəhrəman, atanın ölümündən təsirlənir. Hər iki qəhrəmanın beynini “ölüm” düşüncəsi məşğul edir. Çünki ətraflarında cərəyan edən hadisələr onları bu cür düşünməyə sövq edir. Hər iki qəhrəman həyatın faniliyini dilə gətirir. Hamlet məzarlıq səhnəsində, Yorcikin kəlləsini əlinə alıb deyir: "Yazıq, zavallı Yorcik! Azı min dəfə məni çiyinlərində gəzdirib, indi isə gör necə də iyrənc olub, ona baxdıqca ürəyim ağzımdan gəlir. Burada dodaqları vardı. Bu dodaqlardan neçə dəfə öpdüyüm yadımda deyil. Ah, biçarə, sənin lağlağıların, sənin məzhəkələrin, sənin nəğmələrin indi harada qalıb?”

Xosrov da çılğınlıqla xidmətçi Osmana “Hardadır, bu adam Osman? Gözü, üzü, əlləri bir tərəfə, bütün tərkibiylə, tərkibinin tək və yeganə mənasyla haradadır, bu adam?” deyə soruşur. Elə Xosrovla Hamleti bir-birinə yaxınlaşdıran da bu fəlsəfi düşüncə sistemidir.

Türkiyəli tədqiqatçı Dərya Şenol “Səhnənin iki üzü" adlı əsərində bu əsərləri müqayisə edərək belə nəticəyə gəlir ki, Nəcib Fazil “Bir adam yaratmaq”da öz təcrübələrini "Hamlet"lə zənginləşdirərək, özünəməxsus fərdi üslubuyla yeni bir əsər meydana gətirir. Doğrudu, şairin xatirələrindən onun Şekspir yaradıcılığına yaxından bələd olduğunu bilirik, amma bütün bunlar Qısakürəyin bu əsəri “Hamlet”in təsiriylə yazdığı iddiasını irəli sürməyə qətiyyən əsas vermir. Milli kontekst məsələsini və müəllifin düşüncə tipini nəzərə aldıqda, türk ədəbiyyatında yeni hadisə olan bu əsərin, əminliklə orijinal bir əsər olduğunu söyləyə bilərik. Sufi ideyaları özündə təcəssüm etdirən dramaturqun düşüncələrinə o dövrdə qərb ədəbi axınlarının, xüsusən də həyatın mənasızlığı konsepsiyasına əsaslanan ekzistensializm ədəbi-fəlsəfi

cərəyanının təsiri olmuşdur. Ekzistensializm təsdiq edir ki, cəmiyyətin hər bir üzvü fərd olaraq yalqızdır və yalqız olduğu qədər qapalıdır. İnsanlar qarşılıqlı anlaşılmazlığa məhkumdurlar. Hər adam-bütöv bir dünyadır. Lakin bu dünyalar arasında körpülər yoxdur. Adamların ünsiyyəti üzə görədir və insan qəlbinin dərinliyinə nüfuz etmir, buna görə də o, yalqızlığı unutdurmur.

Ümumiyyətlə, Nəcib Fazil Qısakürəyin yaradıcılığında özəlliklə də "Bir adam yaratmaq" əsərində müasirlərindən fərqli olaraq, həm modern qərb ənənələrinin, o cümlədən ekzistensializm ədəbi cərəyanının, həm də sufi-fəlsəfi ideyalarının təsiri vardır. Dramaturq şərq-qərb ənənələrini özündə ehtiva edərək bu əsərində təkcə ölümün deyil, alın yazısının eşqin, kədərin, göz yaşının, məyusluğun, bir sözlə, insanlığın fəlsəfi mahiyyətini açır.

Daha dərin qatlara ensək, bu əsərdə, Nəcib Fazilin vaxtıyla çəkdiyi fikir böhranının, ruhi sarsıntılarının, iztirab dolu ruhunun təcəssüm olunduğunu görərik. Şair, həyatının fırtınalı illərində keçirdiyi duyğuları "Çilə" şeirində verirdisə, bu duyğuların dramatik faciəsini "Bir adam yaratmaq"da dramlaşdırırdı. Əslində bu əsərdə iç-içə iki deyil, üç dram sərgilənir. Oxucu qarşısında üç əsas obraz canlanır: "Bir adam yaratmaq" dramının qəhrəmanı Xosrovun, "Ölüm qorxusu" pyesinin qəhrəmanının, bir də Nəcib Fazilin obrazı. O, öz metafizik axtarışlarını, ruhi məşəqqətlərini yaratdığı bu obrazların, özəlliklə də Xosrovun timsalında əridərək, təqdim edir.

Budur, iztirab çəkən ruhun dramı "Bir adam yaratmaq"...

Məhz, iztirab çəkən ruhun, Nəcib Fazil ruhunun dramı!...

***Eşqanə Babayeva***

## BİR ADAM YARATMAQ

*Əsər, ilk dəfə 1937-1938-ci ilin qışında İstanbul Şəhər Teatrında səhnəyə qoyulmuşdur.*

**İştirak edirlər:**

**Xosrov -** *yazıçı, 38 yaşında (Möhsün Ərtoğrul)*[*]

**Ülviyyə -** *Xosrovun anası, 56 yaşında (Nəyyirə Ərtoğrul)*

**Səlma -** *Xosrovun bibisi qızı, 23 yaşında (Səmiyə Hun)*

**Mənsur -** *Xosrovun "Ölüm qorxusu" adlı pyesinin baş rolunu oynayan aktyor, 32 yaşında (Tələt Artəməl)*

**Nevzad -** *nervpataloq, 45 yaşında (İ.Qalib Ərcan)*

**Şərəf -** *qəzet naşiri, 36 yaşında (Hüseyn Kamal)*

**Zeynəb -** *Şərəfin həyat yoldaşı, 33 yaşında (Canidə Sonku)*

**Turqut -** *jurnalist, 24 yaşında (Sami Ayanoğlu)*

**Osman -** *Xosrov bəyin xidmətçisi, 65 yaşında (Zihni Rona)*

---

[*] Əsəri ilk dəfə oynayan aktyorların adı mötərizədə verilmişdir.

# HADİSƏLƏR MƏCHUL BİR TARİXDƏ İSTANBULDA CƏRƏYAN EDİR.

# BİRİNCİ PƏRDƏ

***(Boğazın Anadolu sahilində böyük bir malikanənin həyəti. Qarşıda, orta hissədə limana açılan şüşəli qapı. Qapının sağında və solunda, paxlava formasında dəmir barmaqlıqlı iki pəncərə; sağda ortalıq hissədə yuxarı mərtəbəyə çıxan pilləkən. Pilləkənin hər iki tərəfindən bağçaya açılan dəhliz. Solda bir-birindən aralı iki qapı. İki qapının arasında üstündə çay dəstgahı olan antik, kiçik bir masa. Hər tərəfdə həsir kreslolar, stullar. Ortada ingilis dəbində böyük, girdə masa. Tavanda masanın mərkəzinə doğru sallanmış billur çilçıraq. Divarda yağlı boya ilə çəkilmiş tablolar. Taybatay açıq qapıdan dalğalı dəniz və Rumeli sahilləri görünür.)***

## BİRİNCİ SƏHNƏ

Xosrov – Turqut

*(İkisi də həsir kresloya oturmuşlar. Turqut əlindəki dəftərdə qeydiyyat aparır. Bir-iki sətir yazdıqdan sonra Xosrova baxır. Oturuşu, duruşu son dərəcə mədənidir.)*

**Xosrov** – Atası özünü əncir ağacının budağından asmışdı.

**Turqut** – Nəticədə o da özünü əncir ağacının budağından asır.

**Xosrov** – Bəli! Əslində bu əhvalat, baş verən bədbəxt hadisəyə qədər onun heç ağlına belə gəlmirdi. Daha sonra beyninə elə işləyir ki, o da atasının elədiyi hərəkəti təkrarlayır. Özünü evinin bağçasındakı qocaman əncir ağacından asır.

**Turqut** – Deyirlər sənətkarların əksəriyyəti əsərlərindəki əhvalatları əsasən öz həyatlarından alırlar. Məni ən çox maraqlandıran bilirsiniz nədir? Əcaba, pyesinizlə şəxsi həyatınız arasında bir əlaqə varmı?

**Xosrov** – (*Düşünür, gülümsəyir.)* Zəhmət olmasa, ayağa qalxın!.

*(Turqut əlindəki dəftəri kətilin üstünə qoyur. Çaşqınlıqla ayağa qalxır.)*

**Xosrov** – (*Əliylə şüşəli qapını göstərir.)* Bu qapıdan bir az irəli gedin. Oradan limanın sol tərəfinə baxın.

*(Turqut qapıdan aralanıb, sola dönür və baxır.)*

**Xosrov** – Nə görürsünüz?

**Turqut** – Böyük bir əncir ağacı!

**Xosrov** – Hər budağından bir insanın asıla biləcəyi qədər iri bir əncir ağacı, elə deyilmi?

**Turqut** – Bəli!

**Xosrov** – Bayaq, sahilə çıxanda nə əcəb bu ağacı görmədiniz? Sizdən əvvəl gələn jurnalistlər sözə bağçamdakı əncir ağacından başlamışdılar.

(*Turqut, Xosrovu dinləmirmiş kimi diqqətlə ağaca baxır.)*

**Xosrov** – Niyə bu qədər heyrətlə seyr edirsiniz! Yolka ağacı deyil, bu adi bir əncir ağacıdır. Gəlin, oturun artıq!

**Turqut** – *(Gələrkən)* Ustadım, istehzanızı başa düşürəm. Fəqət, məncə bu əncir ağacı məsələsi çox mənalıdır. Bağçanızda belə bir əncir ağacı olmasaydı, hər halda nə pyesinizin qəhrəmanı, nə də ondan əvvəl atası özünü bu ağacdan asmazdı.

**Xosrov** – O biri jurnalistlər bu məsələni sizin qədər qurdalamadılar. Təkcə aradakı təsadüfə eyham vurmaqla kifayətləndilər.

**Turqut** – *(Yerində əyləşir.)* Pyesdəki əncir ağacı, çoxlarına görə bəlkə də bir təsadüfdür. Amma məncə bu belə deyil. Əncir ağacı məsələsində həyatdan alınmış hadisəyə bənzər bir ab-hava vardır. Hətta bağçanızdakı o ağacı görməmişdən əvvəl bunu hiss edirdim.

**Xosrov** - Hələ gördükdən sonra...

**Turgut** - Şübhələrim tamamilə dirildi.

*(Həmin vaxt, sahilin sağ tərəfindən Ülviyyə, Mənsur və Səlma görünürlər. Şüşəli qapıya yaxınlaşıb dayanırlar. Xosrovla Turqut gələnlərə baxır...)*

## İKİNCİ SƏHNƏ

Ülviyyə - Mənsur - Səlma - Əvvəlkilər

**Ülviyyə** - *(Xosrova)* Deyəsən, sizi narahat etdik?
**Xosrov** - Bu bəy jurnalistdir. Pyesim haqqında söhbət edirdik. *(Turquta Ülviyyəni göstərərək)* Anam!

*(Turqut ayağa qalxıb Ülviyyəni hörmətlə salamlayır. Ülviyyə qapıdan çıxaraq)*

**Ülviyyə** - *(Yenə Xosrova doğru)* Söhbətiniz uzun çəkəcək? Çay içmək istəyirdik.
**Xosrov** - Bir-iki dəqiqəlik işimiz qaldı. Bir az da bağçada gəzin...

*(Onlar gəldikləri tərəfə gedib, bağçada gözdən itdilər.)*

**Xosrov** - *(Turqutu başdan-ayağa süzdükdən sonra)* Hə, yazdığım pyesi mənə xülasə edin görək.
**Turqut** - Pyes "Atam özünü əncir ağacının budağından asmışdı!" deyə başlayır. Pyesin qəhrəmanı, atası intihar etmiş bir obrazdır. Yaşlı anasıyla birlikdə bağ evində yaşayır. Evin bağçasında isə böyük bir əncir ağacı, atasının özünü asdığı ağac var. Əfəndim...
**Xosrov** - Davam edin!
**Turqut** - Atası özünü niyə asır? Bunu bilmirik. Heç qəhrəmanımızın özü də bilmir. Həmin vaxtlar o səkkiz yaşında bir uşaq imiş. Böyüdükdən sonra isə bu haqda ona əsaslı bir şey demirlər. Elə deyilmi?
**Xosrov** - Dinləyirəm.
**Turqut** - *(Həyəcanla)* Günlərin bir günündə bu adam səhnədə gördüyümüz kimi, bir qəza nəticəsində anasını

öldürür. Bu qəzanın bədbəxt hadisə olduğu sübuta yetirildiyi üçün həbs edilmir. Azadlıqda qalmaq bir yana, fəqət belə yaşamaq mümkündürmü? O özü-özünə qurtuluşu olmayan bir cəza verir. Vicdan əzabı, gündən-günə caynaqlarını beynində dərinləşdirir. Birdən-birə gözlərinin önündə heç bir vaxt fərqində olmadığı bir şey canlanır. Atasının aqibəti! Hər dəqiqə başı, atam özünü əncir ağacından asmışdı, – deyə fikirləşir. Müvazinətini getdikcə itirir. Anasına görə çəkdiyi əzablar, artıq onda mücərrəd bir ölüm qorxusu halında təcəlli etməyə başlayır. Ölüm; sağı, solu, önü, arxası, hər tərəfi ölüm. Pyes başdan-ayağa bu adamın ölüm qorxusundan ibarətdir. Zatən pyesin adı da "Ölüm qorxusu"dur. Yanlış izah edirəm?

**Xosrov** - Doğrudur. Bəs nəticə?

**Turqut** - Nəhayət qorxu, bu dəhşətli qorxu onun gözündə o qədər böyüyür ki, ölümdən qaçacağı yerdə, ölümün ağuşuna atılır. Özünü, bağçasındakı əncir ağacından asır. Atasının özünü asdığı həmin ağacdan. Eyni ağacdan. Pyes belə bitir.

**Xosrov** - Yaşanmış hadisəyə bənzərlik, bu əhvalatın harasındadır?

**Turqut** - Əncir ağacında. Niyə hər hansı bir ağac deyil də, məhz əncir ağacı? Niyə sadəcə ağac deyil də, əncir ağacı?

**Xosrov** - *(Dalğın)* Bəli, niyə təkcə ağac deyil də, əncir ağacı! Bunu məndən yox, fikri sabitlərimizdən soruş. Uşaq, atam özünü bir əncir ağacından asdı deyə-deyə eyni aqibətə sürüklənir. Bu fikri sabiti təkcə ağac sözü ilə canlandıra bilməzdik. Şüuraltı olaraq fikri sabitimiz, bir məsələyə tuşlandısa, onun sadə, amma sirli xüsusiyyətlərinə aşiq olar.

**Turqut** - Onda bu əncir ağacı hekayəsinə bir təxəyyülün məhsulu deyəcəyik?

**Xosrov** - Başqa nə ola bilər ki?!

**Turqut** - Təxəyyülünüzün bu məhsulunda həyat həqiqətləri ola bilməz?

**Xosrov** - Əcəb qəribədir. Fərz edək ki, bu əncir ağacı fikrini bağçamdakı ağacdan aldım. Deməli, pyesdəki hadisə də olmuş əhvalatdır?

**Turqut** - Başa düşə bilmirəm, durduğunuz yerdə adi bir ağac intihar fikrini necə verə bilər?

**Xosrov** - Siz zorla yazdığım pyesin yaşanmış hadisə olduğunu isbat etməyə çalışırsınız. Bax sizin də fikri sabitiniz budur!

**Turqut** - Vallah ustadım, bəlkə də mən ifadə edə, səbəblərini göstərə bilmirəm. Niyəsini bilməsəm də, mən bunu belə hiss edirəm. Məntiqli, məntiqsiz bunu duyuram. Bu əsərin hər tərəfindən həqiqət sızır. Mənə elə gəlir ki, siz bu duyğuları yaşamısınız.

**Xosrov** - Necə yaşamış ola bilərəm, axı? Madam ki, pyesdəki kimi bir qəza nəticəsində anamı öldürməmişəm. Hələ ki, özümü də bağçamdakı əncir ağacından asmamışam.

**Turqut** - Bağışlayın, mən belə demək istəmirdim.

**Xosrov** - Bəs?

**Turqut** - Bu əncir ağacı ilə bağlı elə xatirələriniz ola bilər ki...

**Xosrov** - *(istehza qarışıq kədərlə)* Hə, ola bilər, əlbəttə, ola bilər. Bu əncir ağacı mənə nələri, nələri xatırlatmır. Bütöv bir uşaqlığımı, keçmiş zamanları. Köhnə İstanbul qadınlarını bilmirəm xatırlayırsınızmı? Hə, qeyri-adi qüdrət onlardaydı. Mənim bir nənəm vardı, bu əncir ağacının dibində pərilər, cinlər aləmi təsəvvür edərdi. Uşaq vaxtı məni bu əncirin dibində oynamağa qoymazdılar. Bir gün orada oynayanda, ayağım sürüşüb yıxıldım. Səhərdən axşama qədər mətbəxdə, cinlərin qəzəbini sakitləşdirmək üçün şərbət qaynatdılar. Sehirbaz dəyənəyinə bənzər çömçələrlə uzun müddət bu qazanları qarışdırdılar. Sonra əncirin dibinə tökdülər. Sən demə, cinlər şirnini sevirmişlər.

**Turqut** - Sizin də istehsanızdan yayınmaq mümkün deyil.

**Xosrov** - Xatirə soruşdunuz, mən də danışdım. Jurnalist deyilsiniz? Soruşmaq sizdən, danışmaq bizdən.

**Turqut** - Deyəsən, artıq sizi narahat edirəm. İcazə versəydiniz qalxardım. Mənə lütf etdiyiniz bu bir saatlıq söhbətdə, unudulmaz heyranlıq dəqiqələri yaşadım. *(Dəftəri qatlayıb, cibinə qoyur)* Onsuz da sözlərinizi əzbərləyəcək dərəcədə diqqətlə dinlədim.

**Xosrov** - *(Ayağa qalxır)* Gülə-gülə dostum! Fakültənizdəki psixologiya dərslərinə xüsusi diqqət yetirin! Bu sahədə yaman istedadlısınız.

**Turqut** - *(Əyilərək)* Xudahafiz.

**Xosrov** - Dayanın, sizi ötürüm. Qayığınız gözləyir, hə?

**Turqut** - Bəli.

*(Turqut qabaqda, Xosrov arxasınca sahilə enirlər. Turqut dayanır, sol tərəfə baxır.)*

**Turqut** - Bütün bunlara baxmayaraq, bu ağac gözümdə əsrarəngiz qalacaq. Necə də qocaman ağacdır!

**Xosrov** - Təxminən qırx beş-əlli yaşı var.

**Turqut** - *(Arxasınca gələn Xosrova ani bir dönüşlə)* Olar, bir söz də soruşum?

**Xosrov** - Buyurun!

**Turqut** - Atanız vəfat edəli, neçə il oldu?

**Xosrov** - Nəyinizə lazımdır?

**Turqut** - Sizin kimi bir sənətkara aid olan hər şey bir jurnalist üçün mühümdür.

**Xosrov** - *(Bir az əsəbi)* Şəxsi məsələlərimə çox müdaxilə olunmasını heç xoşlamıram.

**Turqut** - Narahat etdiyim üçün bağışlayın. Xudahafiz.

**Xosrov** - Xudahafiz.

*(Turqut sağ tərəfdən gözdən itir. Xosrov fikirli-fikirli içəri girir. Soldakı kiçik masaya yaxınlaşır. Qaynayan samovarı seyr edirmiş kimi durub baxır. Sonra o biri tərəfə dönür. Dənizə baxır. Bu vaxt şüşəli qapının arxasından Mənsurla, Səlma görünürlər.)*

## ÜÇÜNCÜ SƏHNƏ

Mənsur – Səlma – Xosrov

**Mənsur** - *(Xosrova)* Nəhayət baş-başa qala bildik. Jurnalist getdi.

**Xosrov** - Gedəndə səndən də bir söz soruşmadı?

**Mənsur** – Məndən nə soruşa bilərdi ki?

**Xosrov** - Bunu soruşa bilərdi: Siz ki, "Ölüm qorxusu" pyesinin baş rolunu oynayan aktyor, həm də mühərririn ən yaxın dostusunuz. Yəqin bilərsiniz: Pyesdəki hadisə, yazıçının öz başına gələn əhvalatdır, yoxsa yox?

**Mənsur** - Bu nə deməkdir?

**Xosrov** - Bunu məndən soruşdu da.

**Mənsur** - Belə də hörmətsizlik olar.

**Xosrov** - Hörmətsizlik də sözdür? Özü də elə soruşur ki, elə bil belə də olmalıdır. Sən öz ciblərini eşələyəndə kiməsə hörmətsizlik etmiş olursan? Biz onlar üçün elə bil öz cibləriyik. Əllərini uzadır və bizi eşələyirlər. Ağzınızı açın, dişlərinizi sayacağam desə, ağzını açmağa, dişlərini saydırmağa məcbursan.

**Mənsur** - Sən nə danışırsan?

**Xosrov** - Əlbəttə, məcbursan. Onun əlində müdhiş bir silah var. Səni tanıyıb məşhur bir adam kimi qəbul etməsi.

**Mənsur** - Tanınmış olmaq üz qaralığıdır, bəyəm?

**Xosrov** - Tamamilə əksinə, bir şərəfdir. Elə bir şərəf ki, sən alıcı, o satıcıdır. Şan-şöhrəti sənə o qazandırdığına görə, fərqinə varmadan, bu səlahiyyətlərindən istifadə edir. Səninlə maraqlanır. Yediyin yeməklə, geydiyin paltarla, yatdığın yataqla... Bir az da davam edim?

**Mənsur** - Jurnalist bunları da soruşdu?

**Xosrov** - Soruşmadı, amma soruşa bilərdi. O bu marağın sorağındadır. Sabah gəlib yenə soruşa bilər. Unutduqlarını

istəyə bilər. Eyni ilə yaddından çıxarıb burda qoyduğu çəliyini istəyən kimi.

**Səlma** - *(Bayaqdan bəri diqqətlə qulaq asdığı Xosrova yaxınlaşır)* Bunları niyə təbii qəbul etmirsiniz? Böyük adamlarla maraqlanarlar da.

**Xosrov** - *(Səlma ilə üz-üzə)* Mənəm, böyük adam? Heç bu da sözdü? Mən öz-özümə, öz gözümdə necə böyük adam ola bilərəm? Ortaya bu fərqi qoyanlar başqalarıdır. Bəli, həmin o başqaları ki, mənə böyüklüyü bəxş etdikdən sonra, məni ən kiçik insan hüquqlarından məhrum edirlər. *(Yan tərəfdə duran Mənsura tərəf dönərək)* Bir də görürsən bir adam çıxır, bir əsər yazıb ortaya qoyur. Heç kəsin onu tanımağı belə ağlına gətirmədiyi vaxtlar o özü özünü tanıyır. Artıq gördüyü işin kütlə üçün elə bir əhəmiyyəti yoxdur. Bütün maraq, diqqət bu insanın miskin tərəflərinə yönlənir. Simamız, şəxsiyyət vəsiqəmiz, soykökümüz... Hə, maraqlanmağa, eşələməyə dəyər şeylər... Mənim üçün nələr yazmadılar! Nələri eşələmədilər! *(Əllərini təəccüblə yana açaraq.)* Deyin Allah eşqinə! Mən sahilə çıxmış dəniz heyvanıyam? Məni izdihamlı bir küçədə bir dükanın vitrininə asmalıdırlar? Yoxsa gəlib-gedən məni beş qəpik verib seyr etməlidir? Bəyəm mən yosunlar, qayalıqlar içində səssizlikdə tək qalmağa möhtac deyiləm? *(Əlləri yanına düşür)* Mən də bir insanam. Heç bir qeyri-adiliyim yoxdur. Mənim də bir alın yazım var. Bəzi zəif cəhətlərim var. Bəlkə hamıdan daha zəif.

**Səlma** - Yox, siz çox güclüsünüz.

**Xosrov** - *(Yenə Səlmaya tərəf dönüb)* Mən çox zəifəm. Ona görə də, özüməməxsusluğumun, məhrəmliyimin haqqını qoruyuram. Məhrəmliyin cazibəsini hiss edirəm. Bu bəlkə də qüvvətli bir istəkdir. Fəqət təməli çox zəifdir. Bir insanın yalnız özünə məxsus, bir gizlisinin, bir sirrinin olmasını niyə qəbul etmirsiniz?

*(Səlma qarşısına baxır, cavab vermir.)*

**Xosrov** - Səlma, söyləsənə!

**Səlma** - Çox incə bir məsələyə toxundunuz.

**Xosrov** - Bu, mənliyimizin elə bir tərəfidir ki, yaralı barmaq kimi həmişə sarğıdadır. Ən kəskin ağrını isə sarğıları açanda hiss edirik. İnsan orada, bütün varlığıyla təkbaşınadır. Çatışmamazlıqları, üstünlüyü, qorxuları, inamı, bezginliyi, həsrəti, bir sözlə hər şeyi ilə...

**Səlma** - Bu sözlərinizlə, elə bil mənə özümü kənardan seyr etdirirsiniz.

*(Xosrov cavab vermir. Şüşəli qapıya tərəf addımlayaraq, qapının ağzında dayanır. Mənsurla Səlma hələ də həmin yerdədirlər.)*

**Xosrov** - *(Bir az irəlidə dayanan Mənsur və Səlmaya)* Bir pyes yazmışam. Orada ölüm qorxusunu yaşatmaq istəmişəm. Jurnalistlər evimə doluşur. Bağçamda bir əncir ağacını görür və soruşurlar: Pyesinizin qəhrəmanının atası özünü əncir ağacının budağından asıb. Bu fikri sizə bağçadakı ağac verib?

**Mənsur** - Necə də mənasız sualdı!

**Xosrov** - Az qala demək istəyirlər ki, sizin də atanız özünü bu ağacdan asıb? *(Sola dönüb sanki ağaca baxır. Fərqli bir tonla)* Haqları var. Atam özünü bax bu əncir ağacından asmışdı! *(Bir-iki saniyə ağac tərəfə baxır. Sonra evin ortasına tərəf gedərək)* İndi evin pəncərələrini açıb hamıya var gücümlə bağırmalıyam? Ey insanlar, məni dinləyin! Mən, özünü bax bu ağacdan asan kişinin oğluyam. Pyesimdəki əhvalat da, bax burdan qaynaqlanır. Öyrənin! Marağından düşün!

**Səlma** - *(Əlləri ilə üzünü tutaraq)* Aman Allahım, susun, susun!

**Xosrov** - Səlma, atam, yəni sənin də dayın öləli otuz il oldu. Sən onu heç tanımırdın da. Yaxşı ki, mən də tanımırdım. Öləndə balaca bir uşaq idim. Eynən pyesdə olduğu kimi.

**Səlma** - Sizdən rica edirəm, bu hadisəni pyesinizlə müqayisə etməyin!

**Xosrov** - Bəyəm mən eləyirəm? Eləyirlər. İstəyirlər ki, pyesimi özüm yaşayım. İndi onları razı salmaq üçün mən nə etməliyəm, bilirsən?

**Səlma** - Susun, susun!

*(Şüşəli qapının sağ tərəfində Ülviyyə görünür. Bir-iki addım qapıya atıb dayanır.)*

## DÖRDÜNCÜ SƏHNƏ

Ülviyyə- əvvəlkilər

**Xosrov** - *(Anasını görər-görməz)* Hardasan ana?
**Ülviyyə** - Jurnalistlə danışırdım.
**Xosrov** - Nə?? O hələ getməyib?
**Ülviyyə** - İndi getdi.
**Xosrov** - Amma bayaq, mənimlə sağollaşandan sonra qayığa tərəf getdi. Fikirləşdim ki, artıq getmiş olar.
**Ülviyyə** - Yox, yanıma gəlib, məndən bəzi şeylər soruşdu.
**Xosrov** - Nə soruşdu?
**Ülviyyə** - Atanı soruşdu. Dedi ki, neçə il bundan qabaq vəfat edib?
**Xosrov** - Bəs sən nə dedin?
**Ülviyyə** - Sənin də bildiyin şeyləri dedim. Dedim ki, təxminən otuz ildir.
**Xosrov** - (*Həyəcanla)* Sonra nə dedin?
**Ülviyyə** - Bu ölümün təbii olub-olmadığını soruşdu. Birdən-birə cavab verə bilmədim. Sıxıldığımı hiss elədi. Üzr istəyib bunu böyük bir sənətkarın həyatını öyrənmək üçün soruşduğunu dedi. Mən də danışdım.
**Xosrov** - Ana, belə məsələləri necə danışa bilərsən?
**Ülviyyə** - Hamı bilmir ki?
**Xosrov** - Ətrafındakı bir-iki nəfəri hamı hesab edirsən? İndi bax gör məni necə hədəfə götürürlər.
**Ülviyyə** - *(Kresloya oturur)* Oğlum! Mən bu insanların məqsədini hardan bilim? Düzü, sualları mənə qəribə gəldi. Amma cavab verməkdən özümü saxlaya bilmədim. Özü də elə mədəni idi ki. Məqsədinin təmiz və gözəl olduğu hiss edilirdi.
**Xosrov** - Qəbahət səndə deyil, onu evimə qəbul etdiyim üçün elə mənim özümdədir. *(Xosrov darıxmış, bir kresloya əyləşir. Bir-iki saniyə sükut. Mənsur ona tərəf irəliləyir.)*

**Mənsur** - Olan oldu artıq, özünü üzmə. Yadımdaykən səndən bir söz soruşum. Pyesində vermədiyin bəzi təhlillər vardı, bəs onları mənə göstərəcəkdin? Qonaqların gələcək, yenə də unudulacaq.

**Xosrov** - Allah bilir, hardadı? İndi axtara bilmərəm.

**Mənsur** - Xahiş edirəm onları tap. Bu gün götürə bilməsəm, bir də nə vaxt götürəcəyəm? Bu tərəflərə tez-tez gələ bilmirəm.

**Səlma** - (*Xosrova)* Kağızların harda olduğunu mən bilirəm, istəyirsiniz verim!

**Xosrov** - *(Qaşqabaqlı)* Hardan bilirsən?

**Səlma** - Keçən gün kitablarınızı mən düzəltməmişdim? Onları bir küncdən tapıb siyirmənizə yerləşdirdim.

**Xosrov** – Elədirsə, ver Mənsura! Mənsur! Səlmayla yuxarı çıx, versin.

*(Səlma qabaqda, Mənsur ardınca, sağdakı pilləkənlə qalxırlar. Xosrov hələ də qaşqabaqlı, Səlmayla Mənsurun ayaq səsləri kəsilən kimi Ülviyyəyə tərəf dönür.)*

**Xosrov** - Sənə bir xəbərim var. Mənsur bir-iki gün əvvəl məndən Səlmanı istədi.

**Ülviyyə** - Aaa.. Bəs nə cavab verdin?

**Xosrov** - Cavabı mən verməyəcəyəm. Səlma verəcək. Mənsur çox yaxşı uşaqdır... Hətta, deyə bilərəm ki, yeganə dostumdur. Soruşaq, görək, nə deyir Səlma! Mənsur səbirsizliklə gözləyir.

**Ülviyyə** - Sən soruşsan daha yaxşı olmaz? Səlma səni çox istəyir. Əlində böyüyüb, ata əvəzisən.

**Xosrov** - Mənim gənc bir qızla belə söhbət eləmək xoşuma gəlmir. Sən qadınsan. Onun gəlinbacısısan. Sənin deməyin daha yaxşı olar.

**Ülviyyə** - Əgər Səlmanın Mənsuru qəbul etməyini istəyirsənsə, özün de! Onun üzərində sənin təsirin hamımızınkından daha çoxdur.

**Xosrov** - Bu məsələdə Səlmaya təsir etmək istəməzdim. Amma deyərəm.

*(Pilləkəndən ayaq səsləri eşidilir. Mənsurla Səlma aşağıya enirlər.)*

## BEŞİNCİ SƏHNƏ

Səlma - Mənsur - Əvvəlkilər

**Mənsur** - *(əlindəki kağızları cibinə yerləşdirərək)* Əgər Səlma olmasaydı, bu gün də bu qeydləri ala bilməyəcəkdim.

**Səlma** - *(Mənsura)* Onları mən çox sevdiyim üçün, istədim ki, siz də oxuyasınız.

**Xosrov** - *(Səlmaya)* Yoxsa, oxumusan, Səlma!

**Səlma** - Bəli, etiraf edirəm. Əsərinizə aid bir parça olduğunu görən kimi, oxumaq arzumu yenə bilmədim. İncidiniz?

**Mənsur** - *(Xosrova)* Niyə bu parçaları pyesinizdə vermirsiniz?

**Xosrov** - Bir pyesə sığmayacaq dərəcədə uzun təhlillərdir. Onları özüm üçün saxladım.

*(Elə bu vaxt, soldakı qapıdan xidmətçi qız içəri daxil olur.)*

## ALTINCI SƏHNƏ

Xidmətçi qız - əvvəlkilər

*(Xidmətçi qızın əlində bir məcməyi var. Qız məcməyidən stolun üstünə çayla içiləcək şirniyyatlar üçün boşqablar düzür. Xidmətçi qız işini görərkən onlar söhbətlərini kəsmirlər.)*

**Mənsur** - Qeydlərdə nədən bəhs edirsən?

**Xosrov** - Ölümdən.

**Mənsur** - Beynin arı pətəyi kimi hey ölüm vəsvəsələriylə doludur. Hey ölümü düşünürsən.

**Xosrov** - Ondan başqa düşünüləcək nə var ki? *(Xidmətçi qıza)* Qızım, saat neçədir?

**Xidmətçi qız** - Altının yarısıdır, ağam.

**Xosrov** - *(Öz-özünə)* Vaxt necə də sürətlə keçir!

*(Xidmətçi qız gəldiyi yerdən, qayıdıb gedir. Səlma süfrəni düzəltməklə məşğuldur. Sağ tərəfdəki dəhlizdən Osman görünür.)*

## YEDDİNCİ SƏHNƏ

Osman - əvvəlkilər

**Osman** - *(Xosrovun qarşısında dayanaraq)* Şərəf bəylə xanımı gəldi. Nə əmr edirsiniz?

**Xosrov** - Nevzad bəy də onlarladır?

**Osman** - Xeyr, ağam.

**Xosrov** - Yaxşı, onları sahilə apar! *(Ülviyyəyə tərəf dönərək)* Ana! Sən Mənsurla birlikdə qonaqları qarşıla! Hələ tezdir. Çaydan əvvəl bir az sahildə oturarsınız.

*(Ülviyyə və Mənsur, dəhliz tərəfdən Osmanın ardınca çıxırlar. Səlma evin ortasındakı masanın üstünü düzəltmiş, indi də samovarla məşğuldur. Xosrov ayağa qalxır. Səlmaya tərəf addımlayır. Səlmanın arxası Xosrova tərəfdir.)*

**Xosrov** - Səlma!

**Səlma** - *(Arxaya dönüb)* Bəli!

**Xosrov** - Səninlə çətin bir mövzuda danışmalıyam.

**Səlma** - Buyurun!

**Xosrov** - Dedim axı, danışmaq bir az çətindir. Bu cür işlərin ənənəvi müqəddimələri xasiyyətimə yaddır. Görürsən də, necə bacarıqsızam.

**Səlma** - Müqəddiməsiz danışa bilməzsiniz?

**Xosrov** - Neçə illərdir yanımdasan, sənə atalıq edirəm. Buna görə də səninlə bağlı məndən bir cavab istəyirlər.

**Səlma** - Çox üstüörtülü danışırsınız.

**Xosrov** - Əgər bunu deyən xətrini istədiyim bir adam olmasaydı, bu imtiyazımdan istifadə etməzdim. Təklifini eşitməməzliyə vurardım.

**Səlma** - Maraqlıdır.

**Xosrov** - Mənsur səninlə ailə qurmaq istəyir. Nə deyirsən?

**Səlma** - *(Başını aşağı əyir. Üzündə narahatçılıqdan başqa bir ifadə yoxdur. Birdən başını qaldırır. Bulanlıq bir təbəssümlə Xosrova baxaraq)* Bu sizcə, münasibdir?

**Xosrov** - Məncə, məsələ münasib olub-olmamaqda deyil. Mən aranızda yoxam. Məncə, ən yaxşısı iki sevdiyim insanı tamamilə sərbəst buraxmaqdır. Qərar sənindir.

**Səlma** - Heç bir fikrim yoxdur.

**Xosrov** - Mənsur haqqında?

**Səlma** - Xeyr. Ərə getmək haqqında. İndiyi qədər bu barədə heç düşünməmişəm.

**Xosrov** - Biz çox məsələlərə qarşı laqeyd ola bilərik. Fəqət onlar bizə laqeyd qalmazlar. Mütləq özlərini düşündürür. Bir qərar istəyərlər.

**Səlma** - Mən düşünməməkdə israr edirəm.

**Xosrov** - Səlma, heç bilirsən səninlə bu barədə danışarkən necə sıxılıram. Belə bir məsələ ilə əlaqədar gənc bir qızın şəxsi həyatına heç soxulmaq istəməzdim. Sən də düşündüklərini mənə söyləyə bilmirsən. Fəqət mənim də bir vəzifəm var. Sənin böyüyünəm. Vəzifəmi yerinə yetirməmək əlimdə deyil. Ona görə də heç bir müdaxilə etmədən məsələni olduğu kimi sənə çatdırıram. Sən də mənə, mənim kimi dürüst cavab ver.

**Səlma** - Sizə sizin kimi dürüst cavab vermək. Həm də hiss və fikrimi qarışdırmadan?

**Xosrov** - Bəli.

**Səlma** - Onda elə hesab edin ki, mənə belə bir təklif etməmisiniz!

**Xosrov** - Belədirmi, Səlma?

Səlma - Bəli.

*(Şüşəli qapının sol tərəfində Zeynəb görünür. Əynində, zövqlə seçildiyi bəlli olan yaz kostyumu. Geyimi və davranışları özündən razı. Dodaqlarında mənalı bir təbəssüm qapının ağzında dayanır. Səlmanın diqqətlə baxdığını görən Xosrov da o tərəfə baxır.)*

## SƏKKİZINCİ SƏHNƏ

Zeynəb - əvvəlkilər

**Zeynəb** - Xəbərsiz gəldim. Bir az yaxşı çıxmadı, amma yəqin bağışlayarsınız məni.

*(Səlma bayaqkı yerindən soyuqqanlılıq və vüqarla Zeynəbə baxmaqdadır. Xosrov Zeynəbə tərəf bir-iki addım atır. Zeynəb də ona yaxınlaşır. Əlini uzadır. Xosrov da onun əlini quru bir hərəkətlə sıxır.)*

**Zeynəb** - Söhbət edirdiniz, narahat etdim. Çox heyf...
**Xosrov** - O qədər də vacib deyil.
**Səlma** - *(Xosrova)* İcazə versəydiniz gedərdim.
**Xosrov** - Yaxşı, Səlma. Qonaqlara da de, gəlsinlər çayımızı içək.
**Səlma** - Bu dəqiqə.

*(Səlma gedir. Zeynəb onu dayandırır.)*

**Zeynəb** - Salam vermədən gedirsiniz, Səlma xanım?
**Səlma** - Bağışlayın, xoş gəlmisiniz.
**Zeynəb** - Məncə, çay içmək üçün hələ tezdir. Onlar dənizi seyr edirlər. Bu vaxtlar Boğaz elə gözəl olur ki. Heç narahat etməyin. Özləri gələrlər.

*(Səlma, Xosrova baxır. Xosrov qaşlarını çatmış, heç nə demir.)*

**Səlma** - *(Zeynəbə)* Necə istəyirsiniz.

*(Səlma şüşəli qapıdan çıxır. Zeynəb, istehza ilə Səlmanı süzür. Səlma sol tərəfdə gözdən itir.*

*Xosrov hələ də əvvəlki vəziyyətdədir. Zeynəb Xosrova baxır.)*

**Xosrov** - Gənc bir qızın qarşısında bu nə hərəkətdir edirsiniz?

**Zeynəb** - Nə hərəkət?

**Xosrov** - Əvvəlcə hamını orada qoyub təkcə bura gəlirsiniz. Sonra da Səlmaya, mənimlə təkbaşına qalmaq istədiyinizi açıq-aydın hiss etdirməkdə bir əngəl görmürsünüz.

**Zeynəb** - Hesablaşdıq. Siz də mənimlə tək qalmamaq üçün hamını bura çağırtdırdınız.

**Xosrov** - Biz bir cəmiyyətdə yaşayırıq. Riayət etməyə məcbur olduğumuz qaydalar var.

**Zeynəb** - *(Birdən-birə əsəbi və ərköyüncəsinə)* Xosrov, ciddi deyirsən?

**Xosrov** - Gəl bu tərzdə danışmayaq.

*(Zeynəb bir stul çəkib oturur. Xosrova dikdiyi gözlərində kinli bir işıq var.)*

**Zeynəb** - Həmişəki əsəbi təbiət!

**Xosrov** - Xasiyyətim belədir.

**Zeynəb** - Bundan səkkiz il əvvəl belə idin bəyəm?

**Xosrov** - Görürsünüz də, bu yer və bu anlar həssaslığa tab gətirəcək kimi deyil. Görürsünüz də, sənli-mənli danışmaqdan belə narahat oluram.

**Zeynəb** - Aramızdakı bu rəsmiyyət! Necə də gülüncdür!

**Xosrov** - Bəlkə də bunu əksi gülüncdür.

**Zeynəb** - *(Həyəcanla)* Nə danışırsınız?

**Xosrov** - Sizi deyə bilmərəm. Fəqət mən yaşımın verdiyi qanunlara uymaq məcburiyyətindəyəm. Mənim yaşımda olan bir kişiyə, dəliqanlı kimi davranmaq olmaz. Saçlarımızdan

fərqli olaraq, bu yaşda ağarmalı o qədər şey var ki, hələ də qaradır.

**Zeynəb** - İnsan hərarətini itirəndə belə düşünür.

**Xosrov** - İstəyirsiniz, bu bəhsi bağlayaq?

*(Xosrov bir-iki addım uzaqlaşır. Arxasını Zeynəbə çevirib oturur. Zeynəb baxışları ilə Xosrovun bütün hərəkətlərini təqib edir.)*

**Zeynəb** - Mənimlə danışmaqdan bezirsiniz. Sizdə danışmaq həvəsi belə oyandıra bilmirəm.

**Xosrov** - Arzularım öz-özünə ölür. Günahkar siz deyilsiniz.

**Zeynəb** - Heç arzu da ölər?

**Xosrov** - Onu yalnız daxili əzab içində yaşayanlar bilər. Həyatla aralarında şüşəyə bənzər şəffaf bir əngəl var. Milçəklər kimi bu şüşəyə çırpılır, amma sındıra bilmirlər.

**Zeynəb** - Açıq danışa bilərsiniz? Görünüşüm sizi sıxır, hə?

**Xosrov** - Zahirimiz bəzən sıxıntılarımızın donuna bürünürlər.

**Zeynəb** - Davam edin, davam edin! Bütün həqarətlərinizə razıyam.

**Xosrov** - Mən sizə həqarət etmirəm. Çox mühüm bir şeyi başa salmaq istəyirəm. Aramızda bir az məsafə saxlamaq lazımdır. Bu incə bir məsələdir. Bir-birimizin üstünə bu qədər getməməliyik. Gedəndə isə nə bilim, birimizin ağırlığı, o birinə tük qədər yüngül gəlməlidir. Ah, belə şeyləri başa salmazlar. Məni niyə danışdırırsınız, axı?

**Zeynəb** - Danışın, danışın!

**Xosrov** - *(Gözləri dalğın, boşluğa baxaraq danışır, sanki yanında Zeynəb yoxdur.)* Nə istəyirəm, onu da danışıram. Bunları danışmaq, əslində narahatçılığımı bir az da artırır. Çox tənhayam. Tənhalıqdan qurtulmaq üçün əl atdığım çarələr isə, tənhalığımı bir az da artırır.

**Zeynəb** - Başa düşürəm. Mən də sizin üçün bu çarələrdən biriyəm.

**Xosrov** - Siz təbii sövqləri məntiqlə duyan bir insansınız. Özünüzü çox rahatlıqla onlara təslim edə bilirsiniz. Mən isə belə deyiləm. Daxilim vahimələr, zövqsüzlük və xəstə hesablarla doludur.

**Zeynəb** - Deməli, bir-birimizə bu qədər yadıq?

**Xosrov** - Bundan şikayət niyə? Səkkiz il əvvəl bu yadlığa görə bir-birimizə yaxınlaşmışdıq. İndi özümüzü ovundurmağa çalışmalıyıq. Yadlaşmağın bir sirri var. Qarışan, qurdalayan olmasa iki müxtəlif insan arasında sehr yarana bilər. *(Ayağa qalxaraq)* Onsuz da hər şey bir tilsimdir. Bu sehrlərə diqqət yetirməyi bilməliyik.

*(Xosrov ayaq üstündə, Zeynəbə doğru. Zeynəb Xosrovu kinlə süzür.)*

**Xosrov** - Mənə bir düşmən kimi baxırsınız.

**Zeynəb** - Əlbəttə ki, düşməninizəm.

**Xosrov** - Heç kəs mənə özüm qədər düşmən ola bilməz!

*(Göz-gözə gəlirlər. Sağdakı dəhlizdən Osman içəri girir.)*

## DOQQUZUNCU SƏHNƏ

Osman - əvvəlkilər

**Osman** - *(Xosrova)* Nevzad həkimgil gəldilər.
**Xosrov** - Bura dəvət elə!

*(Osman gəldiyi yerdən çəkilir. Xosrov dəhlizə tərəf gedir, bağçaya baxır. Zeynəb, yerindən qımıldanmayaraq gərgin, əsəbi, gözlərlə Xosrovun arxasınca baxır.)*

**Zeynəb** - *(İradəli və üsyankarcasına)* Xosrov!
**Xosrov** - *(Başını arxaya döndərərək)* Tək deyilik.

*(Xosrov başını qabağa çevirir. Bir-iki saniyə keçir. Nevzad içəri girir. Xosrova doğru addımlayır.)*

## ONUNCU SƏHNƏ

Nevzad - əvvəlkilər

**Xosrov** - *(Nevzadı görən kimi)* Salam, həkim!

**Nevzad** - *(Yaxınlaşaraq)* Salam, dostum! *(Xosrovla salamlaşarkən Zeynəbi görür.)* Necəsiniz, xanım!

**Zeynəb** - *(Gülümsəməyə çalışaraq)* Təşəkkür edirəm.

**Nevzad** - *(Zeynəbin əlini öpür. Xosrova tərəf çevrilir.)* Hamı pyesinizdən danışır. Görülməmiş uğurdur, doğrusu!

**Xosrav** - Mən bezdim artıq!

**Nevzad** - Sən bezə bilərsən, amma biz bezmirik. Hərə onun bir xüsusiyyəti ilə maraqlanır. Mən isə tibbi tərəfləriylə.

**Zeynəb** - *(Nevzada)* Təbii ki, bir nervpataloq başqa harası ilə maraqlanar ki?

**Nevzad** - Ciddi deyirəm, xanım! Bu əsər içindəki tibbi-psixoloji xüsusiyyətləri baxımından çox mühümdür. Nervpataloqlar belə ondan çox şey öyrənə bilərlər. Hətta əsər üzərində araşdırmaya da başlamışam.

**Xosrov** - Bircə bunu eləmə!

**Nevzad** - Niyə?

**Xosrov** - Xilqət qələtləri, dəli obrazları kimi tibbi terminlərə qarışmayaq. Rəhbərlik etdiyin özəl klinikadakı dəlilər sənə kifayətdir. Onlar sənə çoxlu mövzu və ünsür verə bilərlər.

**Zeynəb** - *(Nevzada)* Aaa, Nevzad bəy? Özəl klinika açmısınız?

**Nevzad** - Bəli, xanım! Dörd aydır ki, özəl klinikam var. Qəzetlər bu haqda uzun-uzadı yazdılar. Eşitməmisiniz?

**Zeynəb** - Heç eşitməmişəm. Yəqin ki, bu klinikada təkcə əsəb xəstələrinə baxırsınız.

**Nevzad** - Təkcə əsəb xəstələrinə.

**Zeynəb** - Barı, xəstələriniz çoxdur?

**Nevzad** - Heç soruşmayın. Hər tərəf əsəb xəstəlƏriylə doludur. Bunların çoxusu, xəstə olduqlarının fərqində belə deyil. Hətta özlərini dünyanın ən sağlam adamı hesab edirlər.

**Xosrov** - *(Zeynəbə tərəf)* Nevzaddan soruşsan, deyər dünyanın dörddə üçü dəlidir. Hələ birinci cərgədə gələnlər; peygəmbərlər, sənətkarlar, alimlər, inqilabçılar...

**Nevzad** - *(Xosrova)* İnsan durduğu yerdə normal səflərdən irəli çıxa bilməz. Belə olması üçün normal olmayan bir səbəb olmalıdır.

**Xosrov** - *(qəzəblə)* Siz özünüzə normal görünməyən bir insanı təsvir edirsiniz. Bir də öz nəzərinizdəki normal insanı təsvir edin! Kim bilir ortaya necə tip çıxar? Barbarların bütlərinə oxşar bir şey. İnsan şəklində bir odun. Yaddaşı, xəyalı, kədəri olmayan, itələyəndə gedən, buraxanda dayanan. Budurmu normal insan?

**Nevzad** - Yoox! O qədər də böyük iddiamız yoxdur.

**Xosrov** - Sizin iddialarınız elə böyükdür ki, dəli hesab etdiyiniz heç bir insan tipində beləsi tapılmaz.

**Nevzad** - Nəymiş o iddia?

**Xosrov** - Hökmləriniz! Həssaslığı bir az yüksək olan insanlar haqqında kəsib biçdiyiniz hökmlər! Bütün insanlığın bənzəri görünməmiş bir mənzərə kimi seyr etdiyi bir başa, idrak iztirablarıyla alov-alov yanan bir başa, bir hökmünüzlə taxa biləcəyiniz bir etiket! Bu nə iddialardır? Heç fərqindəsiniz?

**Nevzad** - Belə demə, Xosrov! Bizim əlimizdə əsaslı metodlar var. Səncə, "Ölüm qorxusu" pyesindəki obrazı normal bir adam kimi qəbul etmək olar? Atası özünü əncir ağacının budağından asıb. Xəstəlik də gen ilə gəlir.

**Xosrov** - Belə çıxır ki, atası intihar edən adamların hamısı xəstədir?

**Nevzad** - Şübhəsiz!

**Xosrov** - Hadisələri necə də qaba çərçivələr içində həbs edirsiniz. Dünya, hesab etdiyiniz kimi dörd bucaqdan ibarət deyil.

**Nevzad** - *(Barmağını Xosrovun ağzına tərəf uzadaraq)* Bax, bu mülahizələr də anormaldır!

**Xosrov** - Onsuz da mən sənin nəzərində bir dəliyəm.

**Nevzad** - Amma əyləcləri işləyən bir dəli. Cəmiyyətə fayda verən xəstəliklər də sənin qəbilindəndir. *(Zeynəbə tərəf dönərək)* Elə deyilmi, xanım?

**Zeynəb** - Mənim belə işlərdən başım çıxmır.

**Xosrov** - (*Zeynəbə)* Madam ki, başınız çıxmır, narahat olmayın! Siz sağlam və normal insansınız.

*(Şüşəli qapının sol tərəfindən Ülviyyə və Şərəf görünürlər. Arxalarınca Mənsurla, Səlma gəlir.)*

## ON BİRİNCİ SƏHNƏ

Ülviyyə - Şərəf - Mənsur - Səlma
Əvvəlkilər

*(Nevzad Ülviyyəyə tərəf gedir. Əlini öpür. Şərəflə salamlaşıb əl tutuşurlar. Səlma və Mənsurla da salamlaşırlar.)*

**Ülviyyə** - *(Qonaqlara)* Buyurun! Çayımızı içək.

*(Xosrovla Səlmadan başqa hamı oturur. Nevzad, Şərəf, Zeynəb sağ tərəfdə, Ülviyyə, Mənsur sol tərəfdə. Xosrov masanın sağ kənarında qollarını sinəsində çarpazlayıb ayaq üstündə dayanır. Səlma samovarın yanında fincanlara çay süzüb süfrəyə qulluq edir.)*

**Şərəf** - Xosrov bəy! Qəzetimdən sizə bu gün bir müxbir göndərmişdim. Necə idi, razı qaldınız?

**Xosrov** - Yaxşısı budur, ondan soruşun görün məndən məmnun qalıb?

**Zeynəb** - *(Əliylə Şərəfi göstərərək)* Ərim belədir də. Kimin kimə təşəkkür etməli olduğunu heç bilməz.

**Şərəf** - Xətamı əff edin! Məqsədimi başa sala bilmədim.

**Nevzad** - Qəzetdə işlər necə gedir? Hamının əlində sənin qəzetini gördüyümə görə, demək işlər çox yaxşıdır

**Şərəf** - Həqiqətən də çox yaxşıdır. Hələ ki, "Ölüm qorxusu" pyesiylə məşğuluq. Onun haqqında ən yaxşı tənqidlərin, ən canlı xəbərlərin bizdə çıxmasını istəyirik.

**Xosrov** - Çox nəzakətlisiniz, amma bu dərəcə də olmaz. Oxucunun marağını bir hadisə üzərində cəmləşdirməyin. Dünyada maraqlı o qədər şeylər var ki.

**Şərəf** - Bu işi bizə həvalə edin. Qəzet elə ticarət deməkdir. Oxucunun maraq dairəsini bilməsən, heç belə məsələlərlə məşğul olmaq olar?

**Nevzad** - *(Əlində fincan)* Günün hadisəsi bu pyesdir də. Deyiləcək başqa nə var ki.

**Zeynəb** - Mən belə kədərli mövzuları sevmirəm. Heç ürəyim götürmür. Pyesdəki bədbəxt hadisənin olduğu səhnəni görəndə elə sarsıldım ki.. *(Ülviyyəyə)* Xanım, düz demirəm?

**Ülviyyə** - Mən pyesə baxmamışam. Xosrov baxmağımı istəmədi.

**Zeynəb** - Niyə? Qəza hadisəsi pis təsir edər, deyə?

**Ülviyyə** - Bilmirəm.

**Nevzad** - Həyatda elə hadisələr olur ki.

**Zeynəb** - Bəli, amma mənə pyesdəki o hadisə bir az qəribə göründü. Bir insan tapançasını qurdalayanda öz anasını necə vura bilər?

**Şərəf** - *(həyat yoldaşına)* Zeynəb, təfərrüatları səhnədə görmədin?

**Zeynəb** - Təbii ki, gördüm. Amma mənə məntiqsiz göründü. Tapançada güllə olduğu bilinmir bəyəm?

**Şərəf** - Bilinməyə bilər.

**Nevzad** - Bu məsələdə ilişib qaldığım bir nöqtə yoxdur. Mən onsuz da pyesin psixologiyası ilə məşğulam. Başqa məsələlərdə diqqətimi çəkən heç nə olmadı. Amma bunu mühərririndən soruşaq bir də.

**Şərəf** - Nə deyirsiniz, Xosrov bəy!

**Xosrov** - Aktyordan soruşmaq daha yaxşıdır. Oynayan o olduğu üçün, soruşaq görək bir qüsur hiss edib?

**Mənsur** - Xosrov cavab vermək istəmədiyinə görə məsələni mənə həvalə edir. Məncə, pyesdə təbii olmayan heç bir nüans yoxdur.

**Xosrov** - Hamı nədənsə bu talesiz pyesin yalnız bir tərəfinə ilişmək istəyir. Bəyəm, üzərində durulacaq daha dəyərli cəhətlər yoxdur?

**Nevzad** - *(Xosrova)* Etirazları adi qəbul elə. Bir hadisəyə hərə bir aspektdən baxır. Dedim axı, mən bu tərəflərinə ümumiyyətlə fikir vermədim.

**Xosrov** - *(Əsəbləşməyə başlayır.)* Canım, axı bu məsələnin üstünə düşüləcək nə var? Pyesdəki bədəbəxt hadisə bir səbəbdir. Böyük böhranın səbəbidir. Məgər hər şey bir səbəbə bağlı deyil?

**Zeynəb** - *(Xosrova)* Elədir, amma baxaq görək belə bir hadisə baş verə bilər?

**Xosrov** - Həyatda nələr olur. Olduğu üçün də inanırıq. Söhbət xəyallardan gedəndə isə, etirazlar üst-üstə yağır. Çünki, bu yalnız bir təsəvvürdür, bir nəzəriyyədir, həyatın özü deyil. Nə qədər oxşarı olursa-olsun özü deyil.

**Nevzad** - Bu doğrudur.

**Xosrov** - Bu eynən bir manevrlə, bir hərb arasındakı fərqə bənzəyir. Birindən yalançı güllələr, digərindən həqiqisi atılır. Birində ölüm təqlid edilir, digərində həqiqətən ölürlər. Buna baxmayaraq, hərbdə axtarmadığımız məntiqi, manevrdə axtarırıq.

**Şərəf** - Elədir də, bəzən hərbdə elə hadisələr baş verir ki, bir manevrdə olsa gülünc görünərdi.

**Xosrov** - Həyat nə diktə edirsə, odur. Olar, olmaz məsələsi yoxdur. Həyat göstərər, heç bir şərh etmədən qəbul etdirər. Onun məharəti ondadır. Biz isə həyatdan soruşa bilmədiyimiz hesabları bir təsəvvürdən istəyirik.

**Nevzad** - Amma məntiqdən də tamamilə imtina etməməliyik.

**Xosrov** - Kim deyir, imtina edin? Amma onunla hər şeyi də həll etməyin. Hadisələrin sirri məntiqin azlığındadır. Necə ki, bir rəsm əsərində ən dəyərsiz şey onun çərçivəsidir. Çərçivəni at! Rəsmə diqqət elə! Dəhşətə gələrsən!

*(Xosrov hamını diqqətlə süzür. Qarşısındakılar onun təsiri altına girməyə başlamışlar. Bir neçə saniyə keçir.)*

**Şərəf** - Doğurdan da, həyatda elə qəribə şeylər olur.

**Xosrov** - Bəli, bunun bir adı var "Qəribə". Xəyalınızda bir igid adam təsəvvür edin. Dünyada bacarmadığı bir iş yoxdur. İradəsinin gücü ilə elə təhlükəli işlərin öhdəsindən gəlir ki. Bir gün bu adam evindən çıxanda ayağı bir daşa ilişir, yıxılıb ölür. Buna nə ad verəcəksiniz?

**Şərəf** - İnsan necə də kiçik və səfil səbəblərə məhkumdur.

**Xosrov** - Mən də əsərimdə həyatın bu tərəfini göstərmək istədim. Adi, bəsit səbəblər üzərində böyük bir əzab və çılğınlıq binası qurum, dedim. Binaya heyrət edənlər səbəbdən şübhələnməyə başladılar. Səbəb dediyiniz də nədir ki? Bir heç, bir heç!

**Nevzad** - Zeynəb xanım, söz sizə düşür.

**Zeynəb** - Mən yalnız bədbəxt qəza hadisəsini gözlənilməz hesab edirəm.

**Xosrov** - *(Zeynəbə)* Sizcə, günəşli bir havada göy gurultusu gözlənilən hadisədir?

**Zeynəb** - Xeyr.

**Xosrov** - Gözləmirsiniz, amma o baş verir. Həyat gözlənilməz hadisələrlə doludur. *(Başını tavana doğru qaldırır. Barmağıyla yuxarını göstərir və birdən səsini yüksəldir.)* İndi bu tavan çökər, hamımız altında qala bilərik. Heç də ola bilməz, deməRəm. Heç təəccüblənmərəm də. (*Ətrafına boylanır. Göstərməyə nəsə axtarırmış kimi*) Nə bilim, hər şey ola bilər. *(Əlini alnına qoyur. Üzündə iztirab dolu cizgilər qabarır.)* Həmişə beynimi məngənə kimi sıxan bir misalı xatırlayıram. Görün nələr olur! Məsələn, bir gün Eminönü meydanında bir avtomobil, bir adamı vurur. *(Əliylə işarələr göstərərək canlandırır.)* Hadisədən on dəqiqə əvvələ gedək. Həmin adam, məsələn Gülxanə parkının qabağındadır. Avtomobil isə Taksimdən gəlir. Mənzərəni görürsünüz? Gəlir. Min avtomobil içində bir avtomobil, yüz min adamın içində bir adam. Nə adam vurulacağını bilir, nə də avtomobil vuracağını. Hər ikisi müxtəlif təsadüflərlə bilmədən, bir-birinə doğru yaxınlaşırlar. Məsələn, adam bir dükanın qarşısında dayanır.

Bir qutu kibrit alır. Bir-iki addım atır. Bir yoldaşıyla danışır. Bir vitrini seyr edir. Bu məsum hərəkətlərin belə bir neçə dəqiqə sonra qopacaq faciədə payı var. Bütün bunlar bir-birini əsrarlı şəkildə əvəz edə-edə nəhayət həmin məşum anı doğururlar. Həmin an çox bəsit bir səbəblə nəticələnir. Dalğınlıq, məlumatsızlıq və s. Təsadüflərin kim bilir necə və hardan idarə edilən son dərəcə mürəkkəb və çıxılmaz bir riyazi məntiqi vardır.

**Nevzad** - Deməli, sən qədərə inanırsan!

**Xosrov** - Qədərə inanıb, inanmadığımı siz kəşf edin! Fəqət həyatın gizli bir yaddaşı olduğuna inanmaq istəyirəm. Elə bir yaddaş ki, özünü hiss etdirməyəcək dərəcədə gizləyə bilir. Mən hadisələrə çox qəliz baxan bir insanam.

**Nevzad** - Əslində, bir tərəfdən də bu çox sadədir.

**Xosrov** - Əlbəttə! Mürəkkəb olduğu qədər də bəsit. Biz də onları bəsit çöhrələriylə tanıyırıq. Belə görməyə məcburuq. Gözlərimiz belə görə bilmək üçündür. Pyesdəki bədbəxt hadisəni də belə görürüksə, deməli mübahisə doğuracaq bir şey yoxdur.

**Şərəf** - *(Öz tərəfində oturanlara doğru)* Canım, hər yerdə hər gün bədbəxt hadisə olmur ki?

**Nevzad** - Təbii ki, olur.

**Şərəf** - O uşaq tapançasını qurdalıyanda anasını vurur da.

**Xosrov** - Bu da bəsit bir səbəbdir. Bəlkə də sadəliyindən insana qəribə görünür.

**Zeynəb** - Bütün bu təfsirləriniz çox gözəldir, Xosrov bəy! Fəqət bunların hamısı fəlsəfədir. Bir də hadisəni, hadisə olaraq, ələ alaq.

**Xosrov** - Alaq. Axı burada məntiqə sığmayan nə var? *(Mənsura)* Bu hissəni təfərrüatları ilə danış, Mənsur!

**Mənsur** - Hamı teatrda baxmayıb ki?!

**Nevzad** - Baxmışıq, amma bütün hadisələri orada seçmək mümkün deyil.

**Mənsur** - O əşyalarını eşələyərkən tapançasını tapır. Deyərkən…

**Xosrov** - *(Mənsurun sözünü kəsərək.)* Yox, yox elə deyil. Anası otağın bir güncündə əyilərək iş görür, o da çamadanlarını eşələyir. Tapançası əlinə keçir. Dayanın, sizə elə başa salım ki, heç bir şübhəniz qalmasın. *(Nevzada)* Tapançan yanındadı?

**Nevzad** - Yanımdadır.

**Ülviyyə** - Bu nədir? Nevzad bəy tapança gəzdirir?

**Nevzad** - Bəli, xanım! Məsləyimə görə üstümdə gəzdirməyim vacibdir. Bilirsiniz də, işlətdiyim xəstəxananın min cürə surprizi olur.

**Xosrov** - *(Gözləri Nevzadda)* Dəlilərdən qorxduğuna görə üstündə tapanca gəzdirir. Keçmişi yada salın! Başına nələr gəlməyib. Bir dəfə az qala boğazlamışdılar bunu. Ver tapançanı!

*(Nevzad arxa cibindən tapançasını çıxarıb verir. Xosrov tapançanı sol əlinə alır.)*

**Ülviyyə** - Xosrovum, qoy yerinə bu silahı! İndi vaxtı deyil.

**Nevzad** - Qoy göstərsin, xanım! Qorxulu heç nə yoxdur.

**Xosrov** - Nə deyirdim? Hə, tapançasını götürür. Qurğuşunları çıxartmaq üçün darağı boşaldır. *(Sağ əliylə darağı yerindən çıxarıb, Mənsura verir.)* Elə deyilmi, Mənsur?

**Mənsur** - Tamamilə doğrudur.

**Xosrov** - *(Hamıya)* Güllələri daraqdan boşaldır. *(Sağ əliylə tutduğu darağın qurğuşunlarını, həmin əlinin baş barmağıyla bir-bir masanın üstünə tökərək)* İndi daraq qurğuşunsuzdur. Darağı qabına atır. *(Darağı masanın üstünə qoyaraq)* Məqsədi, silahda qurğuşun qalıb-qalmadığını yoxlamaqdır. (*Eyni vəziyyətdə əlindəki tapançanı sağa-sola göstərərək.)* Baxın bu tətiyi çəkən kimi əgər içində güllə varsa, o dəqiqə çölə fırlayar. Madam ki, düşmür, deməli içində heç nə yoxdur. Artıq əminəm ki, güllə yoxdur.

Mexanizmi yerinə qoyur. *(Sərt bir mexanizm səsiylə tapançanı sağ əlinə keçirərək)* Halbuki, silahda bir qurğuşun qalıbmış. Nə bilim mən. Şişdiyi və ya paslandığına görə içində qalıbmış. Ola bilməz? Dedik axı, həyatda necə axmaq təsadüflər olur. İndi tapança boşdur. Bircə tətiyi çəkmək lazımdır. *(Tapançanı anasına tərəf tuşlayaraq.)* Bilmədən tapançanı anası tərəfə çevirir. Anasını görmür. Anası stolun arxasında aşağı əyilib iş görür. *(Tapançanı həmin vəziyyətdə tutaraq, birdən-birə səsini yüksəldir.)* Çəkir. *(Hamı yerində daş kimi quruyub Xosrova baxır. Səlma stolun şüşəli qapı tərəfindəki sağ küncünə söykənir. Xosrov axırıncı kəliməsini deyir, tətiyi çəkmir. Sakitcə, tapançanı masanın üstünə qoyur. Sağ tərəfdə oturanlara tərəf xəfifcə çevrilir. Bir addım atır.)* Və tapançası part eləyir. Elə bu vaxt anası əyildiyi yerdən dikəlmiş. Birdən-birə gülləyə tuş gəlmişdir. Bu qədər…

*(Səlma bu vaxt, Xosrovun sözünü bitirdiyini zənn edərək, boş fincanlardan birini götürmək üçün stolun, şüşəli qapı tərəfindən fırlanaraq, sol tərəfə keçir. Demək olar ki, stola bitişik vəziyyətdə yeriyir.)*

**Nevzad** - *(Xosrova)* O tətiyi çəkmək istəyəndə anasının dikəldiyini görmür?

**Xosrov** - Görmür. Bu an məsələsidir. Görsə belə nə dəyişər? Tapança axı boşdur.

**Zeynəb** - *(Gülümsəyərək)* Düzü, bir az qəribədir.

**Xosrov** - *(Birdən-birə hövsələdən çıxaraq)* Bunun harası qəribədir?

*(Həmin vaxt, Səlma boş fincanı əlinə götürüb masanın solundan sağ tərəfinə keçir. Xosrov ağzından ilk kəliməni çıxarar-çıxarmaz, ildırım sürəti ilə stolun üstündəki tapançanı qapır. Anasına çevirir. Səlma bir addım ataraq Xosrovla Ülvyyənin arasında dayanır. Dəhşətli bir partlayış.)*

**Ülviyyə** - *(Acı fəryadla)* Allahım!

*(Səlma xəfifcə sarsılır. Nə bir qışqırıq, nə bir səs. Hamının matı-*qutu *quruyub. Nevzad özündən asılı olmayaraq ayağa qalxır. Mənsur irəli atılır. Səlma iki əliylə tutduğu fincanı qopuq hərəkətlərlə, sanki masaya qoymağa çalışır. Qoyur da. Yüngülcə sola dönür, şüşəli qapıya tərəf yıxılır. Mənsur yerindən qalxar-qalxmaz, Səlmanı qucağına götürür. Arxası üstə qollarına alır. Səlmanın başı, su kimi* axan *saçlarıyla bərabər arxaya sallanır. Ağzından nazik qan süzülür. Xosrov, aşağıya endirdiyi sağ əlindəki tapançayla, yerində quruyub qalır.)*

**Nevzad** - *(Əlləriylə üzünü tutan Ülviyyəyə)* Tez olun, yatağa uzandırın!

**Ülviyyə** - *(Yerindən atılır. Əliylə sol tərəfdəki pəncərəyə yaxın qapını göstərərək)* Buradan, buradan!

*(Bir anda hamı, yaralının ətrafına toplaşır. Xosrov hələ də həmin donmuş vəziyyətdə. Nevzad qapını açıb içəri girir. Ülviyyə, Zeynəb və Şərəf dəhşət içində onu təqib edirlər. Xosrov tək qalır. Sağdakı dəhlizdən Osman cəld özünü içəri atır. Bir-iki addım atıb dayanır. Gözlərini hədəqədən çıxacaq dərəcədə açaraq Xosrova baxır. Bir neçə saniyə eyni vəziyyət davam edir. Birdən-birə Səlmanı apardıqları qapı açılır. Ülviyyə ildırım vurmuş kimi, astanada görünür.)*

## ON İKİNCİ SƏHNƏ

**Ülviyyə** - *(Osmanı görən kimi)* Qaç! Telefona qaç! Xəstəxanaya zəng et! Telefona qaç!

*(Osman sürətlə sağdakı pilləkənlərdən qalxır. Ülviyyə Xosrova baxır. Baxışları yumşalmışdır. Cizgiləri şirinləşir. Yalvarış dolu bir şəkil alır. Xosrova yaxınlaşmağa başlayır. Xosrov gözlərini Ülviyyənin açıq qoyduğu qapıya dikir. Ülviyyə Xosrovun baxışları altında donub qalır. Yavaşca qollarını Xosrova tərəf açıb pəncərənin qabağından geniş bir qövs cızaraq oğlunun sağ tərəfinə keçir.)*

**Ülviyyə** - *(Qolları Xosrova tərəf uzanmış)* Xosrov! Övladım! Özünə gəl!

*(Xosrov eyni vəziyyətdə. Cavab vermir. Tərpənmir belə. Ülviyyə qollarını uzadaraq, gözləyir. Birdən Xosrovda ani bir tərpəniş başlayır. Sağ əli oynayır. Tapançanı yavaşca masanın üstünə qoyur. Həmin qol, bir ölü qolu kimi yanına düşür. Xosrov Səlmanı apardıqları otağa tərəf sükunətlə addımlayır.)*

**PƏRDƏ**

# İKİNCİ PƏRDƏ

***(Maçka tərəflərdə bir binanın böyük zalı. Qabaqda, düz mərkəzdə bir metrə yarım enliyində olan qapısız keçid. Bu keçid zalın küncündəki balaca bir otağa açılır. Zaldan, bu otağın təkcə sağ küncü görünür. Burada kənarlarına yastıq düzülmüş bir divan, divanın qabağında isə divara bitişik kətil var. Kətilin üstündə abajur. Zalın sağ divarının ortasında bir qapı. Qapının bir addım qabağında sağ divara dayalı bir divan; divanın sağ tərəfi arakəsməyə bitişikdir. Zalın sağ küncünün yaxınlığında dəhlizə açılan və arakəsmənin arxasında qaldığı üçün görünməyən bir qapı vardır. Hər tərəfdə pərakəndə şəkildə qoyulmuş kreslolar, skamyalar, kiçik masalar və s. Zalın sol divarının ortasında böyük bir bədənnüma güzgü.)***

## BİRİNCİ SƏHNƏ

**Xosrov - Ülviyyə**

*(Xosrov qəribə bir vəziyyətdə, otağın ortasında sağ dizini skamyaya dayayıb. Kəskin bir iztirabla möhürlənmiş üzü, artıq əvvəlki Xosrovun üzü deyil. Saçları qarma-qarışıq, gözləri bir nöqtəyə zillənmiş, sümükləri çıxmış vəziyyətdə.. Üzündə çılğın bir ifadə. Ülviyyə divanda əzgin halda üzünü əlləriylə örtüb.)*

**Ülviyyə** - *(Əllərini üzündən çəkir)* Oğlum, daha nə deyim? Nə desəm, yenə də təkrardır.

**Xosrov** - Bir kərə də, de!

**Ülviyyə** - Qırx kərə söyləsəm də, yenə eyni şeydir!

**Xosrov** - Qırx kərə də, de!

**Ülviyyə** - Oğlum, daha deyiləcək heç nə yoxdur.

**Xosrov** - *(Bir-bir)* Atam, özünü niyə əncir ağacından asdı?

**Ülviyyə** - Ah oğlum, o vaxtlar indiki kimi yenə də Maçka tərəflərdə bir evdə qalırdıq. Atanın halında elə bir şey yox idi. Sevimli, soyuqqanlı, təbii idi. Bir qış gecəsiydi. Evə gəlmədi. Ertəsi gün xəbərini eşitdik. İçində ins-cins olmayan bağa gedib. Gecəni də orda keçirmiş, səhərə yaxın o hadisəni törətmişdir. Günlərlə çaşqın gəzdim. Günlərlə ağladım. Daha nə deyim?

**Xosrov** - Atam dəli idi?

**Ülviyyə** - Dünyanın ən sağlam insanı idi. Özünə-sözünə elə hakim insan idi ki...

**Xosrov** - Onda onu kim dəli elədi?

**Ülviyyə** - Etmə, Xosrov! Sən nə bilirsənsə, mən də onu bilirəm.

**Xosrov** - *(Sakit, amma qorxunc)* Sən atamın arvadı deyildin?

**Ülviyyə** - *(Birdən-birə ürkərək)* Xosrov, o nə deməkdir?

**Xosrov** - Madam arvadı idin, bəzi məsələləri bilməliydin. Məndən bir az daha çox bilməliydin.

**Ülviyyə** - Bilmirəm, Xosrov, bilmirəm. Atan qapalı insan idi. Düşündüklərini heç söyləməzdi. Üzündən, halından da heç nə hiss olunmazdı.

**Xosrov** - Necə adam idi, o? Onu sevirdin?

**Ülviyyə** - Məndən belə şeylər soruşma! Görürsən də halımı, soruşma!

**Xosrov** - Axı niyə atam, özünü əncir ağacından asdı?

**Ülviyyə** - *(Gözləri yaşarmış)* Hey atam, atam deyirsən. Bir az da, ananı düşün! Səni dünyaya gətirən qadını! Əvvəllər məni necə də çox sevirdin! Atan öləndə, sənin o bircə sözün olmasaydı, mən heç yaşaya bilərdim? Xatırlayırsan? Bir yadına sal! Səkkiz yaşın olardı, ya olmazdı. Fəlakətin ikinci günü idi. Mən bir küncdə çırpınırdım. Yanıma gəldin. Üzümə məsum baxışlarla baxdın. "Ana, özünü üzmə!" dedin, mən varam, böyüyəcəm, sənə baxacam. Atamın yoxluğunu duymayacaqsan! Xatırlayırsan?

*(Xosrov gözləri çox uzaqlarda, bir layla dinləyirmiş kimi anasına qulaq asır. Ülviyyə sözünü bitirən kimi, oğlunun cavab verməsini gözləyir. Xosrovun bir nöqtəyə zillənən gözləri, xəfifcə yaşla dolur... Başını yellədir.)*

**Xosrov** - Heç xatırlamıram.

*(Ülviyyə dəsmalıyla üzünü örtüb ağlamağa başlayır. Xosrov başını anasına çevirib onun ağlamağını seyr edir.)*

**Xosrov** - Necə də asanlıqla ağlayırsınız! Siz, bəzi insanlar, necə də asanlıqla ağlayırsınız! Gözyaşlarınız olmasaydı nə ilə müdafiə edərdiniz özünüzü?

*(Ülviyyə sakitləşib əli çənəsində diqqətlə Xosrova baxır.)*

**Xosrov** - Bəzi insanlar da var ki, ağlaya bilmirlər. Ağlamaq onlara çətin gəlir. Bir əncir budağından asılmaqdan daha çətin.

**Ülviyyə** - *(Hayqırırmış kimi)* Xosrov!

**Xosrov** - Mən otağıma gedirəm.

*(Xosrov ayağını skamyadan çəkir. Pərdəyə doğru gedir. Pərdənin arxasına keçib görünməz olur. Ülviyyə Xosrovun arxasınca baxa-baxa qalır.)*

**Ülviyyə** - *(Başı yuxarıya doğru, əlləri dizində, vücudu gərgin.)* Allahım, qoru onu! Qorxuram. Qorxuram ki, dəli olsun. Qorxuram ki, atasının hərəkətini təkrarlasın.

*(Ülviyyə xəfifcə  sağa dönür. Başını divanın kənarına söykəyir. Beləcə qalır. Bir-iki saniyə keçir. Nevzad sürətlə pərdənin arxasından çıxır.)*

## İKİNCİ SƏHNƏ

Nevzad - Ülviyyə

**Nevzad** - *(Təlaşla)* Xanım! Maşın qapıdadı. Bu dəqiqə gedə bilərik.

**Ülviyyə** - *(Yerindən dikələrək)* Getsək nə dəyişəcək ki, Nevzad bəy! Məncə, getməsək daha yaxşıdır.

**Nevzad** - Eləməyin, belə eləməyin. Xosrov burada qaldıqca, Allah eləməsin, getdikcə müalicəsi çətinləşir. Sonra peşiman olacaqsınız.

**Ülviyyə** - Ürəyim götürmür. Oğlumu necə xəstəxanaya qoyum?

**Nevzad** - Bu sizin bildiyiniz xəstəxanalardan deyil. Özəl klinikadır. Mənim öz klinikamdır. Bir dəfə də məni fikirləşin. Xosrovun neçə illik dostuyam. Heç ona pis məsləhət verərəm? Orda bir ay qalsa, sapasağlam olub, geri qayıdacaq. Heç nəyi qalmayacaq.

**Ülviyyə** - Olmaz, Nevzad bəy, başqa bir xəstəlik olsaydı, nə isə, dəlilərin müalicə olunduğu bir yerə oğlumu apara bilmərəm. O dəli deyil. Çox iztirab çəkir, həyəcana qapılır, vəssəlam.

**Nevzad** - Xanım! Siz mənim xəstəxanamda dəlilərə baxıldığını sanırsınız? Orda ümidsiz xəstə ancaq bir neçə nəfərdir. Dəlilərin yeri başqadır. Adını bilirsiniz. Ora girən, bir də çıxmaz. Baxın açıq deyirəm, əgər Xosrovu mənə təslim etməsəniz, sonra ora göndərməyə məcbur qalacaqsınız. Mənim xəstəxanamda yalnız, müalicəsi mümkün olan xəstələr yatır. Gəlin, bir dəfə baxın!

**Ülviyyə** - Ah, Ya Rəbbi! Məcbur etməyin!

**Nevzad** - Əgər ağlınıza batmasa, ürəyiniz götürməsə, razı olmazsınız. Belə qərarlaşdırmadıq, bəyəm? Bircə dəfə baxacaqdınız! İndi niyə istəmirsiniz?

**Ülviyyə** - Bu gün otağından heç çıxmayıb. Bütün günü orada olub. Artıq qorxmağa başlamışam. Otağına getmək də olmur... Mənsurdan başqa heç kəsi görmək istəmir. Bayaq, özü bura gəlmişdi. Elə təsirli danışdı ki, fikrimi alt-üst etdi.

**Nevzad** - *(Yaxındakı kresloya oturaraq)* Nə deyirdi?

**Ülviyyə** - Hey eyni hekayət. Atam özünü niyə asıb!

**Nevzad** - Görürsünüz, bu fikri-sabit onda necə irəliləyir? Vallah qorxuram ki, eynən əsərindəki kimi...

**Ülviyyə** - *(Nevzadın sözünü kəsərək)* Davam etməyin! Kaş, bu əsər heç yazılmasaydı.

**Nevzad** - Yazılsa da, yazılmasa da heç nə dəyişməyəcək. Onu yazması da, daxilindəki o dərdi necə gizlədiyini göstərir.

**Ülviyyə** - *(Başını qorxu və heyrətlə tərpədərək)* Bəs, o bədbəxt hadisə, bəs o!

**Nevzad** - Səlmanı heç soruşur?

**Ülviyyə** - Heç! Aradan beş ay keçdi. Bir dəfə belə bəhs etdiyini xatırlamıram. Yalnız bir dəfə bilirsən də.

**Nevzad** - Məzarı hardadır deyə soruşmuşdu, hə?

**Ülviyyə** - Bəli, yerini dedim. Bir də soruşmadı.

**Nevzad** - Deməli, başqa heç nə soruşmadı Səlmayla bağlı.

**Ülviyyə** - Heç!

**Nevzad** - Əcəba? Bir fikirləşin!

**Ülviyyə** - Niyə bu qədər israr edirsiniz?

**Nevzad** - Bu gün olanları bilsəydiniz.

**Ülviyyə** - *(Həyəcanla)* Nə olub ki?

**Nevzad** - Şərəfin qəzetində bu gün Xosrova aid yazılar çıxıb.

**Ülviyyə** - Yenə nə yazırlar?

**Nevzad** - Bilirsiniz ki, bu son hadisə, bütün İstanbulu çalxalandırdı. Hələ də ardı-arası kəsilmir. Belədir də, məşhur bir dramaturq öz pyesini canlandırarkən, eynən pyesdəki kimi bədbəxt hadisənin baş verməsi. Həm də, baş verən o qəza səhnəsindən bəhs edərkən, o qəzanın fəlsəfəsini açıqlayarkən. Bu görülməmiş hadisədir.

**Ülviyyə** - *(Əsəbi)* Hə, hə?

**Nevzad** - Təbii ki, bu hadisə hər cür söz-söhbətə yol açdı. Bu məsələdə, Şərəf cəld tərpənib qəzetində, pyesdəki əncir ağacı əhvalatının keçmiş bir hadisə olduğunu yazdı.

**Ülviyyə** - Bunları bilirəm.

**Nevzad** - Fəqət işin ruhunu bilmirsiniz. Qəzetlər təkcə olub keçəni xəbər verməklə kifayətlənmədilər. Bütün olanları tamamilə əsrarlı təqdim etdilər. Onların fikrincə, ən məchul tərəf, qəzanın qurbanıdır. Hamı elə bilirdi, Səlma Xosrovun təkcə qohumu, yəni bibisinin qızıdır.

**Ülviyyə** - *(Həyəcanla ayağa qalxaraq)* Bilinməyəcək başqa nə var?

**Nevzad** - *(O da ayaq üstündə)* Bugünkü qəzet, Səlmanın Xosrovu gizli-gizli sevdiyini yazır. Guya qəzadan bir az əvvəl Xosrov, Səlmanı Mənsura ərə vermək istəmiş, amma Səlma razı olmamışdır.

**Ülviyyə** - Aman Ya Rəbbi! Bunları da yazırlar?

**Nevzad** - Hələ ardı var. Guya qəzet Səlmanın gündəliyini ələ keçirmiş, ordan da Səlmanın Xosrovu sevdiyini öyrənmişdir. Bu gündəliyi yaxında nəşr edəcəklər.

**Ülviyyə** - *(Əlləri ilə başını tutaraq)* Xosrov bunları eşitsə, nə vəziyyətə düşər?

**Nevzad** - Qəzet oxuyur?

**Ülviyyə** - Xidmətçi hər gün otağına qoyur. Bəzən özü istəyir, bəzən isə heç baxmır. Yazılanların çoxunu hər halda heç bilmir. Fəqət bəlli olmaz. Bu gün baxa bilər.

**Nevzad** - Daha deməyin! Qəzetin ilk səhifəsində onun da, Səlmanın da şəkilləri var. Görməməsi mümkün deyil.

**Ülviyyə** - İndi neyləyək?

**Nevzad** - Bu dəqiqə çağırın xidmətçini, soruşaq!

*(Ülviyyə sürətlə qayıdır. Divanın kənarında zəngin düyməsini tapıb basır. Uzaqdan səs eşidilir. Ülviyyə özünü divana salır. Nevzad əli çənəsində fikirləşir.)*

**Ülviyyə** - Necə insanlar var, bu dünyada! Necə əlləri gəlir, dilləri dönür?

**Nevzad** – Mənfəətindən başqa nəsə düşünən var?

(*Xidmətçi qız, pərdənin arxasında görünür.)*

## ÜÇÜNCÜ SƏHNƏ

Xidmətçi qız - əvvəlkilər

**Ülviyyə** - *(Xidmətçi qıza)* Qızım, Xosrov bəyin otağına bu gün qəzet aparmısan?

**Xidmətçi qız** - Bir saat əvvəl apardım, xanım.

**Ülviyyə** - *(Təlaşla)* Oxudu?

**Xidmətçi qız** - Bilmirəm, xanım. Mən içəri girəndə ağam çarpayısında oturmuşdu. Əliylə, qoy deyə işarə etdi. Mən də skamyanın üstünə qoyub çıxdım.

**Ülviyyə** - Yaxşı qızım!

*(Xidmətçi qız gəldiyi yerdən çıxır. Ülviyyə ayağa qalxır. Nevzada qorxudolu gözlərlə baxır.)*

**Ülviyyə** - Bayaq bura gələndə, məncə, hələ oxumamışdı. Amma indi otağındadır. Bəs oxusa?

**Nevzad** - Daha heç nə eləmək olmaz.

**Ülviyyə** - Otağına girib hiss etdirmədən qəzeti götürə bilmərəm?

**Nevzad** - Tamam şübhələnər. Həm də, demirsiniz, heç kəsi görmək istəmir? Gəlin, biz xəstəxanaya gedək. Buralardadır. Beş dəqiqə çəkməz. Tez qayıdarıq. O yerə bircə dəfə baxın! Vaxt itirmək olmaz.

**Ülviyyə** - Dayanın, hələ dayanın. Qəzet məsələsini həll etmədən heç yerə gedə bilmərik.

**Nevzad** - Ağlıma bir fikir gəldi. Siz tez geyinin! Onsuz da birlikdə çıxacaqdıq. Xosrovun otağına gedib mənimlə küçəyə çıxacağınızı deyərsiniz. Sağollaşarsınız. Bu da bir səbəb olar. Qəzeti oxumayıbsa, ehmallıca götürərsiniz.

**Ülviyyə** - Yaxşı fikirdir. Bir-iki saniyə gözləyin! Üstümə bir şey alım.

**Nevzad** - Gözləyirəm.

*(Ülviyyə sağdakı qapıdan çıxır. İçəridəki otağın qabağına qədər gedir. İçəri girir. Divana yaxınlaşır. Bu vaxt pərdənin arxasından Mənsur çıxır. Çox həyəcanlıdır. Keçidin qabağında dayanır.)*

## DÖRDÜNCÜ SƏHNƏ

Mənsur - Nevzad

*(Mənsurla Nevzad bir-birlərini görürlər. Nevzad yerindən qalxır. Mənsura tərəf gedir. Zala girir.)*

**Mənsur** - Nevzad bəy! Şərəfin elədiyi namussuzluğu gördünüz də?

**Nevzad** - Sakit olun, dostum, sakit olun. Biz də indi Ülviyyə xanımla bu haqda danışırdıq.

**Mənsur** - O, həddini çox aşdı. Qəzetini satmaqdan başqa dərdi-səri yoxdur. Gözünün qabağında bir faciə var. Bu faciəyə bir balaca da olsun hörmət göstərmir.

**Nevzad** - Neyləməli? Hamıdan yüksək duyğular gözləmək olmaz ki.

**Mənsur** - Başqa qəzetlərə də baxın: onlar da yazırlar. Fəqət üslublarında, münasibətlərində bir insanlıq var. Özü də, guya Xosrovun dostudur.

**Nevzad** - Çox heyf!

**Mənsur** - Elə əvvəldən belə idi. Xosrovun atasını, daha sonra bədbəxt hadisəni, sizin verdiyiniz raport məsələsini necə istismar etdiyini bilirsiniz. Heç əsl kişi də, - doktor Nevzad dostunun dəlilik əlamətləri olduğunu təsdiq etdi - deyə yazar? Bu diaqnozdan yapışıb qəza hadisəsi tamamilə günahsız hesab edildi deyə, açıqlama verər?

**Nevzad** - Bilirsiniz, onun bu hərəkəti mənə necə pis təsir etdi. Halbuki, mən onu gizlincə tələb olunan orqanlara çatdırmışdım. Yaxşı ki, Xosrov bunu eşitməyib.

**Mənsur** - Xosrovun az qala dəli olduğunu elan etdi. Yazdığı pyesi olduğu kimi yaşayır, dedi. Bütün bunlardan sonra da bugünkü? İndi Xosrov görsə nə olacaq? Tamamilə hövsələdən çıxmasa yaxşıdır!

**Nevzad** - Həqiqətən də dəhşətdir. Mən bugün Şərəfi görəcəyəm. Lazım olanı deyərəm.

**Mənsur** - *(Yumruğunu əsəblə əlinə çırparaq)* Deyiləcək heç nə yoxdur. Olan, olub.

*(Sağdakı qapı açılır. Ülviyyə bayır qiyafətində görünür. Hələ qapını örtməmiş gözləri pərdənin arxasına mıxlanır. Yerində daş kimi quruyub qalır. Xosrov pərdənin sol yanında görünür. Əlində ucundan tutduğu bir qəzet var.)*

## BEŞİNCİ SƏHNƏ

Xosrov - Ülviyyə - Əvvəlkilər

*(Xosrov ortada dayanır. Oradakılara uzun-uzadı baxır.)*

**Xosrov** - *(Anasına evin ortasını göstərərək, acı bir səslə).)* Gəl, gəl, bura gəl! Divanın arxasında dayanma!

*(Ülviyyə qorxu içində divanın ətrafında fırlanıb gücsüz halda divana çökür.)*

**Xosrov** - *(Hamını süzərək)* Bilirsiniz yazılanları, deyilmi? Elə bil günahkar sizsiniz, qorxu içindəsiniz.

*(Heç kəs cavab vermir. Mənsur əsəbi şəkildə yerə baxır. Nevzad nəsə demək istəyirmiş kimi Xosrova əliylə işarə edir.)*

**Xosrov** - Daha nələr gələcək başıma? Bilən varsa desin!

**Nevzad** - *(Ortalığı yumşaltmağa çalışaraq)* Xosrov, dostum!

**Xosrov** - *(Getdikcə həyəcanlanaraq)* Mənə "dostum" demə! Barmaqlarımın ucunda ürpərti hiss edirəm. Bir də, bu kəliməni eşitməyim. Əllərim nəyisə sıxmaq istəyir. *(Əlindəki qəzeti yuxarı qaldırb, birdən-birə yerə çırpır).* Al, bu da sənin üçün dost*! (Dili tutulubmuş kimi susur. İrəli uzatdığı əli titrəyir.)* Dostlarım məlumdur. Düşmənlərimi tanımaq istəyirəm. Cəsarətlə, mən sənin düşməninəm deyən, bir namussuz varmı? Onu tapmaq, ayaqlarına qapanmaq istəyirəm. *(Çaşqın-çaşqın ətrafına boylanır. Sanki, xitab edəcək birini axtarır.)* Dostluq riyakar bir oğru açarıymış. Evimizin qapısını açır, ruhumuzun qapısını açır, tapdığını yandırıb kül edir, hərraca çıxarır. *(Səs tonu və hərəkətləri də-*

*yişir)* Məni uzun bir tabuta qoyduqları vaxt, ardımca dostlarım yox, kəfən oğrularım gələcək.

**Ülviyyə** - *(Az qala özündən gedərək)* Xosrov, bəsdir!

**Xosrov** - *(Öz aləmində)* Kəfən oğrusu, kəfəni pul qazanmaq üçün oğurlayar. Fəqət dost, hey müdafiəsiz qoyduğu bir insanı, ən müdafiəsiz anında bir kərə daha vurmağa möhtac olduğu üçün oğurlayar. Kəfənimi öz dostlarım oğurlayacaq. Mənə üç arşınlıq kətanı belə çox görəcəklər.

**Ülviyyə** - Oğlum, məni öldürmə!

**Xosrov** - (*Anasının eşitmirmiş kimi ona tərəf baxmır belə)* Hara gedim? Başımı götürüb hara qaçım? Rahat-rahat dəli olmaq üçün hara var? *(Nevzada bir addım da yaxınlaşaraq)* Ey sən, dəlixanalar hökmdarı! Dəlilərin dalınca vedrə bağlayıb daş atılmayan bir yer adı bilirsən?

**Nevzad** - *(Son dərəcə yumşaq davranaraq)* Xosrovum. Nə danışdığını bilmirsən. Görürəm əzab içindəsən. Fəqət səbr et. Hamını düşmən hesab eliyəcək qədər müvazinətini itirmə!

**Xosrov** - *(Nevzadı qorxunc bir diqqətlə dinlədikdən sonra)* Müvazinətimi itirirəm, hə? Mənə elə gəlir ki, gözümdən pərdə qalxıb. Hamınızı başqa cür görürəm. Hamınızdan qorxuram. Bütün olanlar məni dəhşətə gətirir. *(Anasına tərəf dönərək)* Anam məni doqquz ay qanıyla bəsləyib, pişik balası kimi illərlə özüylə gəzdirib. Hətta, o belə gözümə əvvəlki kimi görünmür.

*(Ülviyyə dəhşətlə üzünü əlləriylə qapayır. Nevzad dişlərini sıxır. Mənsur narahatçılıqla Xosrova bir-iki addım yaxınlaşır.)*

**Xosrov** - Müvazinətimi itirirəm, hə? Müvazinət nədir, dünyamı itirirəm. Dünya artıq mənim üçün həmin dünya deyil. Qırx il içində yaşadığım aləm, o aləm deyil. Qırx il inandığım həqiqətlər, başımı bir yastıq kimi dayadığım əmniyyətlər, üstündə binalar qurduğum özüllər ovcumdan

axıb gedir. Heç nə əvvəlkini andırmır. Hər şeyin içindən tamamila başqa bir qat çıxır. *(Titrəyən barmağını əşyanın üzərində gəzdirərək)* Bu kreslo, kresloya, bu ayna həmin aynaya bənzəmir. Hansı dünya doğrudur? Bu, yoxsa əvvəlki?

**Nevzad** - Xosrov, Xosrov, əl çək bu vəsvəsələrdən!

**Xosrov** - *(Tamamilə özündən çıxaraq)* Mənə hələ söz də deyir. Dünyam əlimdən gedir. Bir əl altımdan nəyisə çəkir. Bu bir stolun örtüyünə bənzəyir. Onu dartırlar. Hər şey aşır. Hər şey onunla bərabər axıb gedir. *(Dal-dala gedib kreslonun ayağına ilişir.)* Dünyam əlimdən gedir. Yerinə başqa bir dünya gəlir. Necə bir dünya, başa sala bilmirəm. *(Kresloya çökür.)* Ətimi bircə-bircə maqqaşla qoparsınlar, razıyam, amma bu dünyanı görməyim.

*(Xosrov üzünü ovuclarının içinə alır. Hamı yerində donub qalır. Ülviyyə birdən-birə mətanətlə ayağa qalxır. Oğluna yaxınlaşıb yanında dayanır. Nə eləyəcəyini bilmir. Nevzad da, Xosrovun yanına gəlir. Xosrov birdən əllərini üzündən çəkir. Anasıyla Nevzada baxır.)*

**Xosrov** - Nə olub, niyə üstümə gəlirsiniz? Məni tək buraxa bilməzsiniz? Çox rica edirəm.

**Nevzad** - Xosrovum! Onsuz da, Ülviyyə xanımla bir yerə gedəcəkdik. İcazə verərsiniz?

(*Ülviyyə hakimanə şəkildə əlini Nevzada tərəf qaldırıb susmağı işarə edir. Xosrov dalğındır. Bunları görmür.*)

**Xosrov** - Gedin! Yaxşı edirsiniz, çox yaxşı edirsiniz.

**Nevzad** - İcazə ver, Mənsur səninlə qalsın.

**Xosrov** - Qalsın.

*(Ülviyyə çaşqındır. Nevzad həssaslıqla, Ülviyyənin qoluna girir.)*

**Nevzad** - *(Ülviyyəyə)* Buyurun, xanım!

*(Xosrov başı yana əyilmiş, qorxunc bir şəkildə, kresloda oturur. Ülviyyə az qala onu sürüyüb aparan Nevzadın qoluna girərək, oğluna baxa-baxa gedir. Ülviyyənin yanında gedən Nevzad əliylə Mənsura qalmağın lazım olduğunu işarə edir. Mənsur yavaşca başını tərpədib gözlərini qırparaq başa düşdüyünü bildirir. Ülviyyə və Nevzad pərdənin arxasında gözdən itirlər. Mənsur ayaq üstündə gözləri Xosrovda.... Saniyələr keçir.)*

**Xosrov** - *(Şirin və hüzünlü sükunət içində... Mənsura baxmadan danışır...)* Mənsur!
**Mənsur** - *(can yanğısıyla)* Qardaşım!
**Xosrov** - Sən mənim dostumsan, hə?
**Mənsur** - Dostunam Xosrov!
**Xosrov** - Mənsur, sənə inanıram.

(*Mənsurun başı kədərlə sinəsinə düşür. Cavab vermir.)*

**Xosrov** - Sənin yanında köynəyimi cıra bilərəm. Sənin yanında ağlaya bilərəm.

*(Mənsur tamamilə əzgin. Kədərini hiss etdirməmək üçün arxasını Xosrova döndərir.)*

**Xosrov** - Mənsur, özümü çox pis hiss edirəm. Yıxılıram..

*(Mənsur dəhşət içində təzədən Xosrova tərəf dönür.)*

**Xosrov** - Dibsiz bir uçuruma yuvarlanıram. Yapışa bildiyim bir-iki ot saxlayır məni. Bu otlar qopur. Yumşaq torpağın içindən kökləriylə birlikdə çıxırlar. Yıxılıram.

**Mənsur** - *(İnandırırmış kimi)* Xosrov, sən dünyanın ən güclü insanlarından birisən. Bu böhrana qalib gələcəksən. Özünü qurtaracaqsan, əminəm.

**Xosrov** - Heç nəyə yanmazdım, bu qədər gülünc vəziyyətə düşməsəydim.

**Mənsur** - Gülünc olmaq? Bu sənə aid deyil. Hamı gülünc ola bilər, amma sən yox.

**Xosrov** - Hamının yanında biabır oldum. Zəhər verilmiş küçə itlərindən bir fərqim yoxdur. Səkilərin üstündə can verirəm. Cavan, qoca hamı ətrafıma toplaşıb mənə tamaşa edir. *(Barmağıyla kimisə göstərirmiş kimi)* Budur yazdığını yaşayan insan! *(əli quruyub yanına düşür)* Məni bu gülünc hala insan iradəsi salmadı. İçimdə başqa bir iradə var. Onu bir qanad kölgəsi kimi üzərimdə hiss edirəm. Fəqət əlimlə tuta bilmirəm... O belə istəyir.

**Mənsur** - Nə deyim? Bilmirəm, nə deyim? Sənə heç kəs kömək edə bilməz. Dərdinə özündən başqa heç kəs dərman tapa bilməz.

**Xosrov** - *(Xosrov yerindən dikələrək)* Mənsur! Aləmdən gizli bircə sirrim qaldı. Daxilimdəki qiyamət! Heç kəs bunu bilmir. Baxma, qıvranmağıma. Baxma, ağzımın tikişlərindən süzülən xırıltılara! Baxma, məni dəli sanmalarına! Bilmirlər. Söyləyə bilmirəm. İstəsəm də söyləyə bilmirəm. Söyləsəm də anlamazlar. *(Bir xəyal kimi, dimdik, ayaq üstündə durur)* Mənsur! O, sən demə mənim qurbanım imiş. Qəflətimin deyil, ən axmaq tərəfimin, sənətimin qurbanı! Əsərimi niyə yazdım? Onu öldürmək üçün? Onu niyə öldürdüm? Əsərimi yazdığım üçün?

**Mənsur** - Artıq, bunları düşünmə, Xosrov.

**Xosrov** - Mən sənətin həyatdan fərqli olduğunu sanırdım. Hürriyətlərin sonu. Aciz bəxtimin çata bilmədiyi bir yer. Ora iradəmin bağçası idi. Orada, oyuncaqlarıyla oynayan bir uşaq kimi başlı-başına idim. Orada qul olmaqdan azad olurdum, sanki.

**Mənsur** - Ah, Xosrov!

**Xosrov** - Mən nə etdim? Sərhədləri aşmaq istədim. Özümdən kənara çıxmaq istəyərkən, özümə rast gəldim. *(Bir addım ataraq, çılğınlıqla getdikcə hədəqədən çıxan gözlərini Mənsurun qorxudolu gözlərinə dikir.)* Məgər qul olduğumu anlamaq üçün Allahlıq iddiasına düşməliymişəm! Məgər necə yaradıldığımı anlamaq üçün bir adam yaratmağa qalxmalıymışam! *(Üzündə tamamilə çılğın bir ifadə evin ortasında dayanır.)* Mən nə etdim? Ən möhkəm nərdivanı ayağımın altından itələdim. Qəlb gözüm açıldı. İndi görünənlərə necə baxım? İnsan alın yazısını bir röya kimi yuxusunda tapır. Bu röyanı, oyaq necə seyr edim? Allahla izdihamlar arasında qaldım. Bu boşluqda necə dayanım?

**Mənsur** - *(Ehtiyatla əlini dostunun çiyninə qoyur.)* Xosrovum!

**Xosrov** - *(Silkinir. Partlayışın son pilləsində)* Anlayın bu əzabı! Elə bir əzab ki, qul olduğum üçün çəkirəm, çəkməmək üçün Allah olmaq lazımdır. İnsanın bacara biləcəyi şey deyil bu; bunu çəkəcək qüdrət yoxdur insanda! *(Birdən-birə ox kimi yerindən sıçrayıb qollarını çarpazlayır)* Bəsdir daha! Gəlsin artıq hər şey yerli-yerinə! Verin artıq mənə dünyamı! Atın məni izdihamlara!

(*Xosrov axırıncı kəlimələri deyərkən, bir stula çökür. Üzü pərdəyə, arxası Mənsura tərəf. Üzü hərarət içindədir.*)

**Mənsur** - *(Xosrov kimi əzgin)* Xosrov! Səni belə görəndə ürəyim parça-parça olur. Neyləyə bilərəm, sənin üçün?

**Xosrov** - *(Gözləri pərdənin arxasında)* Əlindən gəlirsə, məni bu insanlardan qurtar.

(*Mənsur da pərdəyə tərəf baxır. Pərdənin arxasından sadə geyimli Zeynəb çıxır. Bir addım ataraq dayanır. Üzündə əzmli bir ifadə vardır.*)

## ALTINCI SƏHNƏ

Zeynəb - əvvəlkilər

**Zeynəb** - *(Xosrova)* Heç kəsi qəbul etmədiyinizi bilirəm. Qapıdan zorla keçdim. Danlamayın xidmətçinizi!

**Xosrov** - Nə istəyirsiniz məndən?

**Zeynəb** - *(Hakimanə bir tövrlə Mənsura)* Mənsur bəy! Bizi bir dəqiqəlik tək buraxa bilərsiniz? *(Xosrovun üzünün ifadəsi dəyişir, sərt və duyğusuz halda gözləyir. Mənsur pərdənin arxasında gözdən itir.)*

**Xosrov** - Eşidirəm sizi.

**Zeynəb** - (*Həyəcanla irəliləyir. Sözlər tələm-tələsik bir-birinin ardınca ağzından tökülür.)* Xosrov! Artıq səbrim qalmayıb. Qovulacağımı bilə-bilə gəldim. Sizə əvvəlkindən də çox bağlıyam. Bu fəlakətin içində, bu halınızda sizi, daha çox sevirəm. Əyməyin başınızı, uzaqlaşmayın məndən! Heç məni indiyə qədər belə düşgün görmüsünüz? Artıq, mənə qayıdın! Bu dəqiqələrinizdə yanınızda olmaq istəyirəm. Sizə təsəlli verə biləcəyimə, əminəm. Bəlkə də çox şeyi sizə unutdura biləcəyəm.

**Xosrov** - *(Oturduğu yerdən ağır bir sükunətlə*) Mənə yaxşı-yaxşı baxın! *(Zeynəb heyrət və qorxuyla dəsmalını ağzına tutub Xosrova baxır.)*

**Xosrov** - Mən belə sözləri dinləyəcək adama heç oxşayıram? Hətta adama oxşayıram? *(Ayağa qalxaraq)* Bir vaxtlar sağlam və gənc yaşımda oynadığım oyunu, bu halımla davam etdirim? Bunu istəməyə gəldiniz?

**Zeynəb** - *(Əsəbi, amma əzmlə)* Məni öz gözümdə çox alçaltdınız. Artıq əl ata bilməyəcəyim bir yol qalmayıb. Yaxşı-pis, səhv-düz deyə heç nə bilmirəm. Sizə təzədən sahib olmaq üçün hər şey edəcəyəm.

**Xosrov** - *(Tamamilə özündən çıxaraq)* Zeynəb! Sənə nə deyim? Artıq lüzumsuz və çarəsiz bir insan olduğumu qəbul

etməyin üçün nə danışım? *(Bir anlıq nə deyəcəyini bilmirmiş kimi dayanır.)* Sənə borcum var?

**Zeynəb** - Heç bir borcun yoxdur.

**Xosrov** - Fərz elə ki, var. Borcluyam. Fəqət verə bilmirəm. Acizəm, müflisəm. Döymə bir alacaqlı kimi qapımı! Əl çək, sıyrıl, qop məndən!

**Zeynəb** - *(Xosrovun sözlərinin təsiri altına girmədən, onu süzür)* Bunun üçün bircə çarə var.

**Xosrov** - *(Həqarət saçan heyrətlə)* Nədi o çarə?

**Zeynəb** - Bu qarma-qarışıq sözləri, bu xəstə fikirləri bir tərəfə at. Onsuz da heç nə başa düşmürəm. Açıqca söylə. Səndən bezdim, səndən iyrənirəm de. Bax onda səni başa düşər və çıxıb gedərəm.

**Xosrov** - Zeynəb, danışa bilmirəm, boğuluram. Məni mənə aid olmayan hərəkətlərə məcbur etmə! İstəmədiyim halda, xətrinə dəyəcəyəm.

**Zeynəb** - Xətrimə dəyə bilərsən! Bura hər şeyi gözə alıb gəlmişəm. Ya məni evindən qovacaqsan, ya da heç vaxt yanından ayrılmayacağam.

**Xosrov** - Səni evimdən qovmayacağam. Bunu eləyə bilmərəm. Fəqət sənə o xəstə fikirlərdən birini də deyəcəyəm. Bəlkə onu da başa düşməyəcəksən. Bəlkə də o sənə qovulmaqdan daha yüngül gələcək.

**Zeynəb** – Hə, de!

**Xosrov** - Sən o qadın tiplərindənsən ki, üzünə bir mənəvi qapı örtüldüyü vaxt, özünü görməməzliyə vurarsan. Girməyini istəməyən maddi qapıdan zorla qovulmaq istəyərsən. Sehrbaz incəliyi ilə başlayan bu işi, hambal kobudluğu ilə bitirməliyəm ki, nəticə ağlına batsın.

**Zeynəb** - Təşəkkür edirəm, Xosrov!

**Xosrov** - Axırıncı hərəkəti edə bilmədiyim üçün mənə bu cəzanı çəkdirdin. Məmnun ol! Əməyin boşa getmədi. İllərdən bəri qəlbimə gömdüyüm sözləri nəhayət zorla ağzımdan çıxartdın.

**Zeynəb** - Çox məmnunam.

**Xosrov** - Zeynəb! Mən şəhərləri, küçələri, çayxanaları dolduran o adamlar kimi deyiləm. Kaş, onlar kimi olsaydım. Onlar sağlam, adi, mükəmməl varlıqlardır. Mənim ən vacib tərəfim şikəstdir. Yəqin ki, mən Allahın yalnız əzab çəksin, yalnız qıvransın deyə yaratdığı bir alətəm. Kainatı dolduran hər şey, hər hadisə, hər hərəkət mənim üçün bir işgəncə vəsiləsidir. Heç cürə yerimi, rahatçılığımı tapa bilmirəm. Təbii instinktləri ilə yaşayan heyvanlara baxıram, hansı duyğulardan məhrum qaldığımı anlayıram. Mən daxilindəki heyvanı ürkütmüş, incitmiş bir xəstəyəm.

**Zeynəb** - Bunlar nə deməkdir?

**Xosrov** - Bax, bunlar nə deməkdir! Səninlə mənim aramda elə bir yadlıq var ki, bu odla suyun arasında belə yoxdur. Bu mayamızın arasındakı müxtəliflilikdir. Bu qədər fərqlilikləri olan iki cism uyuşub anlaşa bilməz. Ahəng qura bilməz.

**Zeynəb** - *(Ürkəkliklə)* Xosrov! Hara gedirsən?

**Xosrov** - Sən əsl qadınsan. Cinsiyyətinin kor həmlələrindən başqa heç nə görmürsən. Haqlısan. Çünki təbiətin övladısan. Mən isə...

**Zeynəb** - Hə, bəs sən?

**Xosrov** - Ən azğın heyvanın vücuduna hopmuş, elə zalım bir ruha sahibəm ki, bu bütün duyğularımı korşaldır. Məni yeyir, parçalayır. Məni kirli bir əski halına salır.

**Zeynəb** - *(Üsyankarcasına)* Anlamıram, anlamıram.

**Xosrov** - (*İstehzayla*) Bir dəqiqə, səbr elə! Bir azdan, ümumiyyətlə heç nə anlamayacaqsan! Daxilimdəki bu ruh hər şeyin iç üzünü açır. Gözü bağlı heç bir istəyə izin vermir. Ən sevdiyi şeylərdən bir anda iyrənir. Heç düşünülməyəcək yerdə, birdən-birə düşünməyə, hesabat aparmağa qalxır. Özünəməxsus qanunları, ölçüləri var. Müdhiş bir çirkinlik qorxusu və gözəllik qayğısı içində çırpınır. Axtardığını tapa bilmir. Tapdığıyla razılaşmır. Səadət mənbəyi olan saf duyğularını bir gəmiricinin bir cücəni boğması kimi içində boğur.

**Zeynəb** - Durma, yeri get artıq!

**Xosrov** - Qadınla kişinin birlikdə qurduqları tamamilə fərqli bir cahan təsəvvür et. Bu cahanın özünəməxsus bir təbiəti, şərtləri, incəlikləri var. O cahana əli çatmayan insanlardan daha kobudu ola bilməz. Fəqət bu cəzanı öz nəfslərinə, öz əzalarına çəkdirirlər. Və ya, qarşısına çıxarılan günahkarların cəzasına özü çəkən bir hakim təsəvvür et. Nə qəribədir, hə? O, cəzaları öz öhdəsinə götürür. Çünki bilir ki, suçlular əlindəki qanunun hikmətini başa düşmürlər. Bunun üçün məsul deyillər.

**Zeynəb** - Necə də çıxılmaz məsələlərdir bunlar. Özünü bunlarla məhv edirsən.

**Xosrov** - Doğrudur! Bu necə də çox istəyən, verilə bilməyəcək, tapıla bilməyəcək dərəcədə çox istəyən, doya bilməyəcək qədər ac, oxşana bilməyəcək dərəcədə əsəbi və şıltaq bir ruhdur. Bu ruh insanın xarici və daxili mənliyində elə bir ikinci "mən" yaradır ki, bu "mən" yaxşı-pis, nə varsa hər şeyə düşmən və yad qalır.

**Zeynəb** - Səndən qorxuram.

**Xosrov** - Bax, sən məndəki ikinci "mən"lə uyğunlaşa bilmədin. Onu yalqız, təkbaşına, öz aləmində buraxdın. Mənimlə birlikdə olarkən, hər dəfə yalqızlığımı, çarəsizliyimi mənə xatırlatdın. İki tən arasındakı uçurumu, mənə öyrədən sənsən.

**Zeynəb** - *(Hayqıraraq)* Mən neyləmişəm, Xosrov, axı neyləmişəm?

**Xosrov** - Qulaq as, gör neyləmisən? Kişiylə qadın arasında elə bir həssas cazibə qüvvəsi var ki, ən adi səbəblərdən quş kimi uçub duman kimi dağıla bilər. Artıq heç bir fədakarlıq və səylə geri qaytarıla bilməz. Qarşısındakına heç bir təqib və sərzəniş haqqı verməz. Sən nə etdin, heç bilirsən? Ruhumuzun bu amansız qanunları qarşısında itirilən cazibələri geri qaytarmaq üçün ən kobud vasitələrə baş vurdun. Qanuna, jandarmaya, cəmiyyətə müraciət edirmiş

kimi, acizlərə məxsus bir şəkildə haqqını istəməyə başladın. Sən nə etdin, bilirsən? Məni öldürdün.

**Zeynəb** - *(Əlləriylə başını tutaraq)* Heyrət, heyrətlər içindəyəm.

**Xosrov** - Heyrətdəsən, hə? Mən də qarşına keçib nələri qurcalayıram! Xəstəliyimi necə də axmaqlıqla izah edirəm! Gör mən nə qədər axmağam ki, bunların heç birini anlamadığını deyən bir insanın məni üzürlü hesab etməsi üçün açıqlama verirəm.

**Zeynəb** - Səni anlamasam da, məqsədini çox yaxşı dərk edirəm.

**Xosrov** - Məni çox yalqız qoydun, başa düşürsən? Üstəlik mən bu yalqızlığı səndən gizləmək üçün çırpınarkən, sən məni ovcunda saxlamaq üçün nələrə əl atmadın. Məni, ruhumun həbsxanasına tıxmaq; öz qorxularım, abır-həyamla bağlamaq istədin. Səni ilk tanıdığım gün, zəif nöqtəmi tapıb onu əbədi olaraq məhkumiyyət əlbisəsi kimi mənə geyindirdin.

*(Xosrov danışarkən Zeynəb, onu bir cücüyə baxırmış kimi seyr edir. Xosrov bir anlıq bu baxışa nəzər yetirib davam edir.)*

**Xosrov** - Zeynəb! Mənasız, nizamsız istəklərimizin bizi nə qədər çirkinləşdirdiyini gör artıq! Gör sənə, ölüm təri tökərək nələr deyirəm! İmtina etməyi, istəməməyi öyrən! Məni, sənə həqarət edən bir insan hesab eləmə! Artıq, bəzi xüsusiyyətlərə sahib olmadığı üçün öz halına buraxılmalı olan, mənasız bir mövzu hesab elə! Fərz et ki, mən, artıq kişilik xüsusiyyətlərinə malik deyiləm.

**Zeynəb** - Mən səni tanıyıram, Xosrov!

**Xosrov** - Yalvarıram. Heyvanlığımın cəzasını mənə bu qədər baha ödətmə! Məni bu cəzaya, belə mərhəmətsizcəsinə məhkum etmə!

**Zeynəb** - Xosrov, dedim axı, mən səni tanıyıram. Sən hadisələrin gedişatını istədiyin kimi dəyişdirə bilər,

qarşındakına da belə qəbul etdirə bilərsən. Sən sehrbazlığı sevirsən. Səmimi və təbii deyilsən, indi.

**Xosrov** - *(Əlini köksünə qoyaraq)* Mən səmimi və təbii deyiləm? Əgər mən, indi səmimi və təbii deyiləmsə, deməli can verən bir heyvan, məsələn başı daşla əzilmiş ağrıdan qıvrılan bir soxulcan da, bu halında səmimi və təbii deyil.

**Zeynəb** - Sən məni qadınla kişi arasındakı sehr sənətindən başı çıxmayan bir dişi kimi təsvir etdin. Çünki qadın məsələsində bu qədər həssas olan sən, nəhayət anlaşa biləcəyin, birlikdə ahəng qura biləcəyin qadını tapmısan. Onu tapdın və mən, artıq bütün varlığımla iflasa uğradım.

**Xosrov** - *(Qaşları iztirabla çatılır. Çox pis bir xəbər gözləyirmiş kimi)* Nə demək istəyirsən?

**Zeynəb** - Xosrov, istəyirsən açaq örtüklərimizi? Madam ki, səmimisən onda mənə əsl üzünü göstər, qorxma!

**Xosrov** - *(Qəzəb, nifrət və şiddətlə)* Nə demək istəyirsən?

**Zeynəb** - *(Birdən-birə Xosrova qısılıb, ilan kimi fısıldayaraq)* Çünki Səlmanı sevirdin. Öldürdüyün qızı. Bibin qızını, övladın yerində olan o qızı.

**Xosrov** - *(Üzündə dəhşətli bir diksinmə)* Zeynəb, sən bir ilansanmış. Sənin kimi, başı daşla əziəsi, maşayla pəncərədən atılası ilana, mən də durub ruhi vəziyyətimdən, duyğularımın dolambaclarından bəhs eləyirəm. *(Əliylə başına vurur)* Ah, mən bu qapaza layiqəm.

**Zeynəb** - Xosrov, niyə inkar edirsən?

**Xosrov** - (*Zeynəbi ilk dəfə görürmüş kimi gözlərini ona zilləyir. Yırtıcı bir ahənglə səsini yüksəldərək)* Zəhərini tökdüyün üçün təşəkkür edirəm. Artıq bütün bəhanələri mənə verdin.

**Zeynəb** - *(Əsəbi halda çantasından, balaca bir cib dəftəri çıxarır.)* Məni gözlərim də aldatmır ki!

**Xosrov** - (*Çaşqınlıqla)* O nədir?

**Zeynəb** - Səlmanın gündəliyi.

**Xosrov** - Hardan tapdın onu?

**Zeynəb** - Yaralananda paltarının cibində idi... Əlləriylə möhkəm-möhkəm sıxmışdı.

**Xosrov** - *(Ağlayırmış kimi)* Deməli, bir ölünün ovcunu açdın. İçərisində sirlərini gizlədiyi ən qiymətli xəzinəsini oğurladın. Bir ölünü soydun. *(Pərişanlıqla, ətrafına baxınır. Yerdəki qəzeti görür. Pələng kimi yerindən sıçrayıb onu götürür.)* Sonra da onu ərinə verdin. *(Qəzeti Zeynəbə uzadaraq)* Məni bütün cəmiyyətdə rüsvay etmək fikri sənindir. Ərini sən təşviq etdin.

**Zeynəb** - Gördün? Halbuki mən səndən inkar gözləyirdim.

**Xosrov** - *(Dəli kimi)* Artıq sənə həqarət etməyəcəyəm. Çünki heç bir həqarət sənin qədər alçala bilməz. Qoy o dəftəri masanın üstünə və bu dəqiqə çıx evimdən.

**Zeynəb** - *(Əlindəki dəftəri möhkəm-möhkəm tutaraq)* Qoymayacağam. O hamının malıdır.

**Xosrov** - O nə mənim, nə sənin, nə də başqalarının deyil, yalnız o qızın idi. O qız ki, dəftərinə yazdıqlarını heç kəsə bildirməmişdir. Heç kimə, heç nə hiss etdirməyəcək dərəcədə incəlik, məhrəmiyyət və qürur sahibi idi.

**Zeynəb** - Sanki, burda yazılanları bilmirdin, hə?

**Xosrov** - İnan ki, nə onları bilirdim, nə də sənin iç üzünü. Dəftəri qoy yerə!

**Zeynəb** - *(Əlindəki dəftəri bağrına basaraq)* Ərimdən istə! Özü versin sənə.

**Xosrov** - Demək, bu dünyada tək deyilmişsən. Sənin mayandan olan kişilər də varmış. Onlardan biri də sənin ərinmiş. Necə də uyğunsunuz bir-birinizə!

*(Elə bu vaxt koridordan qarma-qarışıq səslər eşidilməyə başlayır. İki nəfər bir-biriylə mübahisə edir. Mənsurla Şərəfin səsi eşidilir.)*

**Mənsurun səsi** - Olmaz Şərəf bəy, girə bilməzsiniz. Kimisə qəbul eləməyə halı yoxdur.

**Şərəfin səsi** - Rica edirəm, icazə verin! Ona izah edəcəyim bəzi məsələlər var. İcazə verin!

**Mənsurun səsi** - İsrar etməyin! Sizi qoymayacağam. Həm də onun sizi görməsi, sizin üçün yaxşı nəticələnməz.

*(Xosrov və Zeynəb donub qalırlar. Zeynəb qorxu və həyəcan içində. Xosrov başını pərdəyə tərəf çevirir.)*

**Zeynəb** - *(Əlləriylə gicgahlarını tutaraq)* Ərim! Görəsən nə məsələdir!

**Xosrov** - *(Zeynəbin vəziyyətinə baxıb təzədən başını pərdəyə tərəf çevirir. Çölə səslənir.)* Mənsur, burax, Şərəf bəy gəlsin!

*(Zeynəb birdən-birə hərəkətə keçir. Dərhal yerindən sıçrayıb içəridəki otağa atılır. Çantasıyla, gündəliyi divanın üstünə atıb qayıdır. İçəridəki otaqla zalı bir-birindən ayıran məxmər pərdənin ipini çəkir. Məxmər pərdələr sürətlə Zeynəbin üzünə örtülür. Keçid başdan-ayağa tutulur. Və içəridəki otaq Zeynəblə birlikdə görünməz olur. Xosrov dimdik, ayaq üstə, hərəkətsiz. Şərəf, arxasınca da Mənsur içəri girirlər. Xosrovun əlində hələ də qəzet var.)*

## YEDDİNCI SƏHNƏ

Şərəf - Mənsur - əvvəlkilər

*(Mənsur pərdənin yanında dayanır. Şərəf sürətlə Xosrova yaxınlaşır. Əllərini uzadıb nə isə demək istəyirmiş kimi dayanır. Xosrovun əlindəki qəzeti görür. Xosrov qəzeti əlindən yerə qoyur. Şərəf, Xosrovun hərəkətindən ürkür. Heç nə danışa bilmir.)*

**Xosrov** - Nə üzlə gəlirsiniz bura, Şərəf bəy?

**Şərəf** - Təsirləndiyinizi dedilər. Gəldim ki, görəm bu nə hiddətdir? İzah edə bilərsiniz?

**Xosrov** - Başa düşmürsünüz?

**Şərəf** - Xeyr, başa düşmürəm. Əslində, bu gün qəzetdə çıxanlardan təsirləndiyinizi təxmin edirəm. Fəqət buna haqqınız var?

**Xosrov** - Deməli haqqım yoxdur.

**Şərəf** - Əlbəttə yoxdur. Sizin kimi tanınmış, sevilən insanların başqalarının diqqətini nə qədər cəlb etdiyini bilirsiniz. Biz də öyrəndiyimizi yazmışıq.

**Xosrov** - *(Özünə gəlməyə çalışaraq)* Mən elə bir oxucu təsəvvür edə bilmirəm ki, başqalarının ən məhrəm duyğularına maraq duyacaq qədər ruh iffətindən uzaqlaşmış olsun. Oxucularınıza iftira etməyin.

**Şərəf** - Oxucu belə olur.

**Xosrov** - Xeyr, oxucu belə deyil. Siz beləsiniz. Birdəfəlik bilin ki, oxucunu tanımırsınız. Üzünü, quruluşunu, istəklərini bilmirsiniz. Onun seçimi üzərindəki müqayisələri, özünüzdə axtarır, özünüzdə tapırsınız.

**Şərəf** - Fərz edək ki, belədir.

**Xosrov** - Əgər belədirsə, məsuliyyəti hiss edəcək dərəcədə, mənlik və heysiyyət sahibi olmalısınız.

**Şərəf** - *(Yerindən səksənərək)* Xosrov bəy, çox irəli gedirsiniz. Sizi üzürlü bilirəm. Çünki..

**Xosrov** – Çünki nə?

**Şərəf** - Xəstəsiniz.

**Xosrov** - Gözəl, bəlkə də xəstəyəm. Amma bu an məni xəstə hesab etməyin! Sözlərimdə həzm edilməyəcək nəsə tapsanız, onu sağlam bir adamdan, düzgün bir vaxtda deyilmiş fərz edin!

**Şərəf** - Xosrov bəy, rica edirəm!

**Xosrov** - Bəli, elə fərz edin! Necə qarşılıq verəcəyiniz məni çox maraqlandırır. Heç olmasa bu məqamda sizi bir azca şərəfli görmək istəyərdim.

**Şərəf** - *(Bir addım geri çəkilir. Dəsmalıyla tərini silirmiş kimi alnını ovuşdurur.)* Hərəkətlərinizə indi qarşılıq verməyəcəyəm. Hər şeydən əvvəl, deyin görüm qəbahət bu hərəkətin harasındadır?

**Xosrov** - *(Nifrətdolu gözlərlə, Şərəfi uzun-uzadı süzür)* Bir adam ki, hamının malik olduğu ən bəsit müdafiə silahlarını, maskalarını itirərək, daxilindəki cəhənnəm odunda yanır. Başqalarının keyfini açmaq üçün onu gündəmə gətirmək günah deyilmi?

**Şərəf** - Niyə də olsun? Deməli, hamı bu adamla maraqlanır!

**Xosrov** - Deməli, hamının bu adamla maraqlanması, onda özünəxas şəxsi bir nüans, fərdi hüquq və sahiblik duyğusu buraxmır, hə?

**Şərəf** - Cəmiyyətin malı olan insanlar, şübhəsiz ki, bir az da şəxsi mülkiyyətlərini fəda edirlər.

**Xosrov** - Bu fədakarlıq, bəlkə də ümumi məsələlərə aiddir. Onların fərdiyyətindəki ən məhrəm nüansları sərgiləməkdə sizi tərəddüdə salan heç bir duyğunuz yoxdur?

**Şərəf** - Yox.

**Xosrov** - *(Sol əlinin barmaqlarıyla üzünü daraqlayır. Sifəti partlayacaqmış kimi)* Yalnız bu davranışınız məni dəli edə bilər. Deməli, mən heç kəslə müştərək xüsusiyyətləri

qalmayan bir zavallıyam. Deməli, mən bu torpağın üstündə yaşamıram.  Deməli, mənim beynim heç kəsdə tapılmayan bəzi qorxu toxumları yetişdirən bir xəstəlik tarlasıdır! Allahım! Ya mən dəliyəm, ya da qarşımdakı bu adam, insanların üzünə baxa bilməyəcək qədər düşgün məxluqdur!

**Şərəf** - Xosrov bəy, siz həqiqətən də dəlisiniz. Və yavaş-yavaş üzürlü olduğunuzu unutduracaqsınız!

*(Pərdənin yanında duran Mənsur, nifrətlə Şərəfə baxır. Bir-iki addım yaxınlaşır. Xosrov çiyinləri yüngülcə aşağı düşmüş, Şərəfə tərəf.)*

**Xosrov** - Ah, kaş ki, unutdura bilsəm! Quzum, mənə bir kərə, daha söyləyin! Duyğu cövhərindən bu qədər məhrum olduğunuzu qavraya bilmirəm. Sizcə, bir insanın həyatıyla bağlı, yad gözlərə göstərməyəcəyiniz heç bir nöqtə yoxdur? Bunu göstərməkdə və aşkarlamaqda qarşınızı kəsən heç bir ülvi duyğunuz  yoxdur?

**Şərəf** - Dedim ki, yoxdur.

**Xosrov** - *(Getdikcə heyrətlənərək)* Bir insan haqqında hər nə olsa qəzetinizdə yazarsınız?

**Şərəf** - Yazaram.

**Xosrov** - Bunu eləyərkən, ortalığa qoyduğunuz insanla, içinizdə müştərək bir mərkəz, bir həssasiyyət və fərdiyyət mərkəzi yaralanmazmı?

**Şərəf** - Xosrov bəy! Mən ədəbiyyatdan anlamıram. Mən jurnalıstəm. Bir ticarət işidir bu və mən bu ticarətlə məşğulam. Mənim üçün bu bir vəzifədir.

**Xosrov** - Deməli, bu duyğular sizə görə söz yığınıdır.

**Şərəf** - Mən ticarətxanamın qanunlarına bağlıyam. Vəzifəmə əngəl törədəcək heç bir qayə tanımıram.

**Xosrov** - Başqa heç bir qayə tanımırsınız? Yalvarıram bir daha söyləyin.

**Şərəf** - Tanımıram.

**Xosrov** - Bəs gizlilik, örtünmə ehtiyacı, öz-özünə hakim olmaq kimi hər hansı bir mənəvi dəyər də tanımırsınız?

**Şərəf** - Qətiyyən tanımıram, dedim.

**Xosrov** - *(Heyrəti qəzəbə çevrilir.)* Bəs bayaqkı dəyərləndirmələr şəxsinizlə bağlı olsaydı?

**Şərəf** - Lazım gəlsə, onu da yazaram. Yetər ki doğru olsun.

**Xosrov** - Doğru ha! Mənim üçün yazdıqlarınızın doğru olduğunu hardan bilirsiniz?

**Şərəf** - Səlmanın gündəliyindən. Onu arvadım tapıb mənə verdi. Mən də nəşr etdim.

**Xosrov** - *(çox əsəbi)* Nəşr etmək ideyasını da arvadınız verdi?

**Şərəf** - Bəli, ideya onun oldu, hətta israrla təklif etdi.

**Xosrov** - Təkcə məni aləmə rüsvay etməklə qalmırsınız, arvadınızı da mənim yanımda ifşa edir-siniz. Siz məsuliyyət duygusundan tamamilə məhrumsunuz.

**Şərəf** - Gündəliyi verən arvadımdırsa, nəşr edən də mənəm.

**Xosrov** - *(Əliylə çənəsini tutub yerə baxır. Sanki üzünə qan çilənib, öz-özünə danışırmış kimi)* Və daha nə olsa nəşr edərsiniz! Sizi bu yoldan çəkindirəcək heç bir şey yoxdur.

(*Şərəf heyrətlə Mənsura baxır. Mənsur iyrənirmiş kimi başını çevirir. Xosrov yerə baxır. Əsəbidir.)*

**Xosrov** - Hər nə olsa nəşr edərsiniz?

**Şərəf** - Cavab vermək istəmirəm, Xosrov bəy!

**Xosrov** - *(Dərhal başını qaldırıb Şərəfi süzür)* Hətta özünüzə aid olsa da, nəşr etməkdən çəkinməzsiniz!

**Şərəf** - Fəqət Xosrov bəy!

**Xosrov** - Söyləyin, xahiş edirəm, söyləyin. Özünüzə aid olsa da nəşr etməkdə tərəddüt etməzsiniz?

**Şərəf** - Nə olursa olsun!

**Xosrov -** Bəs bu xəbər bir kişinin bütün ağırlığını daşıyan müqəddəs təməlini – ailəsini tar-mar edəcək qədər dəhşətli olsa?

**Şərəf -** (*Laqeyidliklə dodaqlarını bükür)* Bunlar, mənasız kəlimələr...

*(Xosrov yerindən sıçrayır. İçəridəki otağı salondan ayıran pərdənin qabağına atılır. Keçidin sağında iki tərəfdən də görünən ipi bir həmlədə çəkir. Ani olaraq iç otaq bütün əşyaları ilə bərabər görünür. Pərdənin tam açıldığı yerdə və ortada, əlində çantası bir heykəl kimi dimdik Zeynəb dayanıb.)*

## SƏKKİZİNCİ SƏHNƏ

Zeynəb- əvvəlkilər

*(Şərəf çaşbaş arvadına baxır. Mənsur xəcalətdən sağ əli ilə gözlərini tutur.)*

**Xosrov** - *(Sağ əlində pərdənin ipi, sol əlini Şərəfə uzadıb)* Arvadınız məşuqəmdir. Bunu da yazın.

*(Otaqdakılar donmuş vəziyyətdə, Zeynəb olduğu yerdə daş kimi quruyub qalır, gözləri Xosrovdadır. Xosrov pərdənin kənarında, yarı əyilmiş Şərəfə tərəf. Şərəf arvadına çaşqınlıqla baxır. Mənsur əlini üzündən götürüb həyəcanla ətrafa baxır. Bir neçə saniyə sonra Şərəf yerindən qımıldanır.)*

**Şərəf** - *(Üzünü Xosrova tutur)* Bu hərəkətiniz sizə çox baha başa gələcək, Xosrov bəy!

**Xosrov** - Bu gün ödətdiyiniz kimi...

**Şərəf** - Xeyr, bu səfər sizi aid olduğunuz yerə, dəlixanaya göndərtdirəcəyəm.

**Xosrov** - Ah, bunu sizdən gözləyirəm.

**Şərəf** - Tək məndən gözləməyin, dostunuz Nevzadın da fikri budur. Hətta sahibi olduğu özəl dəlixana üçün sizin yaxşı bir reklam olacağınıza da əmindir. Bayaq gördüm, indi dəlixanasını ananıza göstərirdi. Yaxşı bir yer olduğunu qəbul etdirmək üçün.

*(Xosrov ağrı içində başını qoluna dayayır. Mənsur yumruqlarını sıxaraq Şərəfin üzərinə yeriyir.)*

**Mənsur** - Şərəf bəy! Sizin insanlıqdan bu qədər uzaq olduğunuzu bilməzdım. Hələ də bu evdə qala bilirsiniz, hələ də danışa bilirsiniz.

**Şərəf** - (*Soyuqqanlılığını itirmədən)* Ona görə danışıram ki, Xosrov bəy yaxınlarını yaxşı tanısın. Buna görə hərəkət etsin. Mənə gəldikdə isə, mən hədəfə aldığım yeri açıq bildirirəm. Bu bir avansdır. Nevzad kimi qəzet-qəzet gəzib sizi dəlixanamda yatıracağımı yazmıram. *(Arvadına)* Zeynəb! Mən evə gedirəm. Davamızı orda həll edərik. Gedək!

*(Zeynəb üzü büt kimi bomboz olub irəliləyir. Heç kəsə baxmadan pərdənin arxasında gözdən itir. Şərəf də onun arxasınca çıxır. Xosrovla Mənsur bir müddət hərəkətsiz qalırlar. Mənsur irəli gəlir, Xosrovu ehtiyatla qucaqlayıb kresloya tərəf aparır. Yavaşça oturdur. Baş tərəfində ayaq üstündə dayanır. Xosrov əlləri dizində, qəmli və pərişan, üzündə çılğın bir ifadə)*

**Xosrov** - Mənsur!

**Mənsur** - Xosrov!

**Xosrov** - Mən dəli olacam, Mənsur! Əlimi tut, mənə dünyada, evimdə və sənin yanında olduğumu bildir!

**Mənsur** - *(Tez Xosrovun sol əlini tutub iki əlinin arasında qüvvətlə sıxır.)* Dostum, Xosrov səbr!

**Xosrov** - *(Əlini çəkir. Mənsura baxmadan dalğın - dalğın danışır. Dəli kimi ağır və qəribə bir tələffüzlə, hətta bəzi kəlimələr üzərində mənasız pauzalar edərək danışır.)* Məni daim daxilimdəki narahatlıqlarla baş-başa qoyan qadın! Vəba kimi zəifliklərimlə qidalanan, içdiyim sudan, udduğum havaya qədər ətrafımı öz qısqacına alan qadın! Yanıma gəldikcə yalnızlığımı, mənə nəsə bəxş etdikcə məhrumiyyətimi öyrədən qadın! Ən gözəl duyğularını təslim etdiyi kişini rəzil etmək üçün, sonunda əri ilə birləşən qadın! Son nəfəsində üstü açılmasın deyə sirrini ovcuna alan bir ölünün barmaqlarını açıb tapdığı gündəliklə məni ovlamaq

niyətində olan qadın! Sonra ər! Qırılan kişilik qürurunu, məni dəlixanaya saldırmaqla ovudacaq olan ər! Sonra, sonra öz dəlixanasını dostunun adıyla reklam etmək istəyən bir başqası! Evimə mənim kimi rahat girib çıxan dostum, əsəb həkimi! Qadınımla, dostumla necə də gözəl bir cəmiyyətdə yaşayıram.

**Mənsur** - İnanma, Xosrov! Nevzada şər atır.

**Xosrov** - *(Daim eyni dalğınlıqla Mənsura baxmadan ağır-ağır)* Bunlar elə adamlardır ki, birbirlərinə atacaqları heç bir şər yoxdur.

**Mənsur** - *( Təsdiq edərək)* Sənə haq verməmək əlimdə deyil.

**Xosrov** - Daha dözə bimirəm, Mənsur! Bunlara istədiklərini verəcəyəm. Elə istəyirlər ki, verməmək mümkün deyil. Nə istəyirlər? Dəlixanaya girim? Girəcəyəm. Bu halımla mart pişiyi rolunu oynayım? Oynayacağam. Arxamca dəf, zurna və bir alay məhəllə uşağı küçə-küçə gəzim? Gəzəcəyəm. Atam, özünü bir əncir ağacının budağından asdı. Özümü həmin ağacın, həmin budağından asım? Asacağım. Daha nə istəyirlərsə, edəcəyəm. Başa düşürsən, Mənsur? Bunlara qarşı müdafiə mövqeyində olmaq, mənə çox çirkin görünür.

**Mənsur** - Xosrov! Yerin dibinə girirəm.

**Xosrov** - Artıq anlayıram. Məni özümlə, əzab-larımla, çılğınlıqlarımla baş-başa qoymayacaqlar. Özüm-özümlə tək qala bilmək üçün nə lazımdırsa edəcəyəm.

*(Mənsur yumruğuyla alnına vurur. Xosrov əvvəlki vəziyyətdə. Birdən-birə pərdənin arxasından əynində bayaqkı qiyafəti ilə Ülviyyə görünür.)*

## DOQUZUNCU SƏHNƏ

Ülviyyə - əvvəlkilər

*(Ülviyyə o dəqiqə pərdənin qabağında dayanır. Oğluna baxır. Halında böyük bir kədər və iztirab var. Mənsur Ülviyyəni görər-görməz geri çəkilir, qadının oğluna yaxınlaşmasını gözləyir. Ülviyyə dayandığı yerdə qalır. Xosrov anasına baxır.)*

**Xosrov** - Hardan gəlirsən, ana?

**Ülviyyə** - Xosrovum! Nevzad bəylə bura yaxına bir yerə getmişdik.

**Xosrov** - Hara getmişdiniz?

**Ülviyyə** - *(Kəkələyərək)* Əhəmiyyətli bir yer deyil.

**Xosrov** - Rəhbərlik etdiyi şəxsi dəlixanasına getmişdiniz, hə?

**Ülviyyə** - Ah oğlum, sənə necə and içim?

**Xosrov** - Nə deyib and içəcəksən? Onun dəlixanasına getməyin nə mənası var?

*(Ülviyyə hələ də çaşqındır. Əzginləşir. Elə bu vaxt pərdənin arxasından Nevzad çıxır. Otaqdakılara nəzər salıb Xosrova yaxınlaşır. Xosrov onu görən kimi ayağa qalxır. Nevzad dayanır.)*

## ONUNCU SƏHNƏ

Nevzad - əvvəlkilər

**Xosrov** - *(Nevzada)* Anamı dəlixanana niyə aparmışdın?

**Nevzad** - *(Çaşaraq Ülviyyə ilə Mənsura baxır. Nəyisə anlamağa çalışır. Amma heç nə başa düşmür.)* Xanıma xəstəxanamı göstərmək istəyirdim.

**Xosrov** - *(Qəribə və qorxunc bir tonla)* Niyə?

**Nevzad** - Heç, görsün deyə.

**Xosrov** - Görsün və münasib bilsə, orada yatmama razı olsun deyə, hə?

**Nevzad** - Xosrov, bu axmaq sözləri sənə kim deyib?

**Xosrov** - Özümdən deyirəm, madam ki, mən dəliyəm, belə axmaq sözləri də yalnız mən deyə bilərəm. Başqa kim ola bilər ki?

**Nevzad** - Xosrov, ağlını başına yığ!

**Xosrov** - Yığa bilmərəm. Bu sənə sərf eləməz. Məni əldən çıxarmış olarsan.

**Nevzad** - Xosrov, dostunun xətrinə dəyirsən.

*(Ülviyyə çuval kimi yanındakı skamyaya çökür. Mənsur da kresloya əyləşib başını əllərinin arasına alır. Xosrov Nevzada yaxınlaşır.)*

**Xosrov** - Artıq dostuma yalan dedirtməyəcəyəm. Nə istəyirsənsə, birbaşa istə. Məndən istə. Bəlkə də verərəm. Anamı inandırmağa ehtiyac yoxdur.

**Nevzad** - *(Ülviyyəyə)* Xanım! Bir söz deyin! Baxın görün öz dostundan nələr gözləyir?

*(Ülviyyə yaşarmış gözləriylə Xosrovu axtarır. Xosrov anasına tərəf baxmır. Gözləri Nevzadda...)*

**Xosrov** - Hələ də dostluq deyir? Heç qaplanla çöl eşşəyi, gürzə ilə bülbül dostluq edə bilər? Mən sənin şikarınam. Ovçu şikarına necə baxırsa, sən də mənə elə baxırsan. Tanış olduğumuz ilk gündən bəri məni tələnə düşmüş kəklik hesab edirsən. Dostluq etdiyimiz, birlikdə tədqiqlər, mübahisələr etdiyimiz o günlər yadındadır? Elə həmin vaxtlarda belə mən sənin üçün, hələlik kəsilməsinə lüzum olmadığı üçün bəslənən xınalı qurbanlıq quzu idim. Sən mənə bir dəlini göstərib fikrimi soruşduğun vaxtlar, əslində mənə məni göstərirdin. Fikirlərinə və elminə heyran olduğun dostun, reallıqda isə bütün laboratoriyan ilə həsrətini çəkdiyin ən gözəl dəli, ən yağlı tikə idi. İynələrin, dəli köynəklərin, yuxu dərmanların, bütün laboratoriyanla! Xatırlayırsan, məndən atamı necə soruşardın? Niyə özünü asıb? Niyə özünü asıb? Əvvəllər sən soruşardın, indi mən səndən soruşuram. Yadındadı, tanış olduğumuz ilk gün, əsərlərimə olan marağını necə təsvir etmişdin? Psixoterapevtlik üçün cəlbedici nüanslar… Hər halda sən ədəbiyyat həvəskarı deyildin. Mənə o gündən bəri yalan danışırsan. O gündən bəri qoyun cildinə girib pəyəyə girən qurd kimisən. Bu hal baxışlarında, gülüşündə, oturub-duruşunda tütən mənaların yekunudur. Nə məntiqi, nə isbatı, nə polisi, nə də ədliyəsi var. Bu vəziyyətə səni ixtisasın sürükləmir. Daxilin və əxlaqın sürükləyir. Eyvah, sənin xasiyyətinlə məsləyini birləşdirənə! *(Bir anlıq dayanır.)* Dəlinin ağlı olsa heç sənin kimisinin əlindən dərman alıb içər? Dəli, öz daxili dünyasını bir az tanımış olsaydı, səni də tanıyardı.

*(Ülviyyə hıçqıra-hıçqıra ağlamağa başlayır. Mənsur dəhşət içində ayağa qalxır. Xosrov daxili böhranın ən yüksək zirvəsində, Nevzadın az qala burnunun dibində dayanaraq, gözlərinə düz içinə baxır.)*

**Nevzad** - *(Soyuqqanlılığını itirməyərək)* Xosrov, nə istəyirsən danış, onsuz da səni bağışlayacağam.

**Xosrov** - Yalandı, bu da yalandı! De görüm, anamı xəstəxanana niyə aparmışdın? Nə də olsa anadır, oğlunun dəlixanaya düşməsinə razı olmaz, görsün, ağlına batsın, razı olsun deyə, hə?

Axı bunu niyə istəyirsən? Mən xəstəxanada yatım deyə. Yatmağımı niyə istəyirsən? Yaxşılaşım deyə? Bu halım ürəyini ağrıdır, hə? Bu dostluq duyğusudur, hə?

**Nevzad** - Başqa nə ola bilər ki, Xosrov?

**Xosrov** - Nə ola bilər, hə? İstəyirsən gəlim, yatım, amma məni əmin elə ki, heç kəs xəstəxananda yatdığımı bilməyəcək. Təbii ki, ertəsi günü qəzetlər yazacaq, hə?

**Nevzad** - Bunu gizləmək mümkündür ki?

**Xosrov** - Hə, bax onda arzuna çatacaqsan. Bundan sənin də, xəstəxananın da heysiyyatı yüksələcək, şöhrəti artacaq… Birinizin mənəvi, digərinizin maddi heysiyyatı...

**Nevzad** - Xahiş edirəm Xosrov, onun bunun təsiri altına düşmə!

**Xosrov** - *(Müdhiş bir heyrətlə*) Məsəlçün kimin?

**Nevzad** - Məsələn, Şərəf kimi səviyyəsizlərin.

**Xosrov** - *(Sürətlə Mənsura tərəf dönüb)* Görürsən Mənsur? Bunlar bir-birlərinə iftira da edə bilirlərmiş?

*(Mənsurun gözləri qapanır. Üzündə əzab hiss olunur. Xosrov yenə Nevzada tərəf çevrilir.)*

**Xosrov** - Əziz dostum, Nevzad! Səni şillələmək istəyərdim. Fəqət hələ də daxilimdə bir şüur qırıntısı var. Əl-qolumu bağlayır. Fərz et ki, artıq səni şillələmişəm. Dərhal çıx evimdən və uzaqdan tələnə düşəcəyim günü gözlə. Artıq soxulmağına ehtiyac yoxdur.

**Nevzad** - Bir gün bu sözlərə görə vicdanın çox ağrıyacaq!

*(Nevzad dərhal geri qayıdır. Heç kəslə sağollaşmadan əsəblə çıxır. Xosrov onun getdiyi tərəfə baxır.)*

**Xosrov** - *(Öz-özünə)* Vicdanım ağrıyacaqmış? Bu dəqiqə vücudumun hər yeri ağrıyır. Necə olubsa, vicdanım qurtulub.

*(Ülviyyə ayağa qalxır. Əlindəki dəsmalı üzünə sıxıb hıçqıraraq gedir. Yıxılmamaq üçün özünü zorla saxlayır. Güc-bəla ilə divanın yanından keçir. Sağdakı qapıdan özünü çölə atır. Qapını arxasınca örtür. Xosrov sola dönür. Sol divardakı güzgüyə tərəf qəribə tərzdə ağır-ağır gedir. Güzgüyə bir addım qalmış dayanır. Güzgüdəki xəyalıyla üzbəüz. çılğınlıqla güzgüdən özünə baxır. Mənsur, Xosrovun arxasınca onu izləyərək, güzgünün solunda dayanır. Maraq və qorxuyla dostunun nə edəcəyini təxmin etməyə çalışır.)*

**Xosrov** - *(Heç nəyin fərqində deyil)* Bu mənəm? *(Mənsura doğru)* Söyləyin mənə, mən kiməm? *(Yenə aynaya tərəf)* Hələ bu sifətə bax! Qəssab dükkanlarına qoyulan meşədən kəsilmiş kötük üzərində, palıd saplı baltayla döyülmüş bayat ət parçasına bənzəyir! *(Əli yavaş-yavaş alnına doğru gedir.*) Hələ bu başa bax! Necə də əzilib xurd-xəşil olub. Yük maşınının altında qalmış xoruz ölüsünə bənzəyir! *(Barmaqlarını toxundurmadan üz cizgiləri üzərində gəzdirir.)* Bu cizgilərə bir bax! Necə də aciz, necə də çaşqın qırışlarla örtülmüşdür. Ağlamaq, rahatlanmaq, boşalmaq istəsələr də, bacarmırlar. Gözlərim! Közərən işıq lampası kimi sönük halından necə də utanırlar. *(Əlləriylə almacıq sümüklərinə vurur.)* Bəs bu sümüklər! Üşüyən bir uşaq kimi nazik bir dəri yorğanına möhtac! Yorğanı haradadır? Bu mənəm? *(Ani bir heyrət böhranıyla*) Kim məni bu hala gətirdi? Bu adamı, əzməsinlər, süründürməsinlər, dəlixanaya soxmasınlar, bəs nə etsinlər? *(Pencəyinin yaxasından cıracaqmış kimi yapışır*) Bu paltarlar mənim deyilmi? Axı paltarlarımı geyinib, qəlibimə girib qarşıma çıxan kimdir? *(Güzgüdəki əksinə avazı çıxdığı qədər)* Söylə deyirəm sənə, mən kiməm?

*(Xosrovun əlləri yavaşca yanına düşür. Sol tərəfə sürüşür. Orda əlinə keçən skamyanın arxa tərəfindən tutur. Yavaş-yavaş qaldırır. Gözləri güzgüdəki xəyalında. Xəyalını nişanladığı bəllidir. Mənsur dəhşətə gəlir, fəqət onu dayandırmağa özündə cəsarət tapa bilmir. Elə bu vaxt sağdakı qapı açılır. Astanada Ülviyyə.)*

## ON BİRİNCİ SƏHNƏ

Ülviyyə - Əvvəlkilər

*(Ülviyyə çətinliklə divana qədər addımlayır. Orada dayanıb qalır. Xosrovun güzgünü qırmaq istədiyinin fərqindədir.)*

**Ülviyyə** - *(Həyəcanla hayqıraraq)* Xosrov! Nə edirsən?

*(Xosrov arxaya tərəf baxmadan hərəkətlərini dayandırır. Əlindəki skamyanı göydə tutaraq, bir anlıq tərəddüddən sonra, onu yerdən götürdüyü kimi qırıq hərəkətlərlə yavaşca yerə qoyur. Anasına tərəf çevrilir.)*

**Xosrov** - *(Ağlamsınaraq)* Heç, ana!

**PƏRDƏ**

# ÜÇÜNCÜ PƏRDƏ

***(Bağ evində Xosrovun kitabxanası. Divarda yerdən bir qədər yuxarıda üç pəncərə. Solda dörd ayaqlı, böyük bir yazı masası. Yazı masasının üstündə, solda bir stolüstü lampa, ortada qələmdan, sağda bir-iki kitab. Yazı masasının qarşısında, üzü meydana tərəf böyük bir kreslo. Yazı masasının düz qabağında sağ divarda içi odunla dolu buxarı. Buxarının sağ və sol tərəfində divarın içində düzəldilən iki kitab rəfi. Buxarının üstündə çərçivəyə salınmış yağlı boya ilə çəkilmiş böyük bir portret. Xosrovun atasının portreti. Eyni ilə Xosrova bənzəyir. Buxarının mərməri üstündə altı şamlı iki gümüş şamdan. Buxarının bir neçə metr addımlığında zala açılan böyük qapı. Buxarının hər iki tərəfində biri sol küncə, digəri isə sol divarın ön tərəfinə baxan iki kreslo daha. Buxarının qabağında, iki kreslonun arasında balaca dəyirmi masa. Sol divarın qabağında yazı masasının bir neçə addımlığında divara bitişik bir divan. Yazı masası tərəfdən divanın üstünə dolab asılıb. Dolabın sağında telefon, ortasında bir heykəl, solunda abajur. Dolabla yazı masası arasında balaca bir qapı. Sol divarda dolabın üstündə qalın, qara parçaya bükülmüş bir çərçivə. Divarda üç pəncərə arasındakı hər iki boş hissədə balaca jurnal stolunun üzərində iki stolüstü lampa. Sağdakı qapıya yaxın kitabxananın qabağında da bir sütun abajur. Tavanda işıqlandırma sistemi yoxdur.)***

## BİRİNCİ SƏHNƏ

Heç kəs yoxdur - Daha sonra Osman gəlir

*(Pərdə açılar-açılmaz kitabxana olduğu kimi görünür. Bomboşdur. Pəncərələrdən süzülən tək-tük işıq şüalarından başqa heç nə görünmür. Qış mövsümü, gecə vaxtı, otaq qaranlıqdır. Uzaqdan rüzgarın uğultusu eşidilir. Birdən-birə telefon zəng çalır və dayanır. Gələn yoxdur. Daha sonra təkrar, təkrar zəng çalır. Sağdakı böyük qapı açılır. Osman içəri girir. Girən kimi qapıyla kitabxana arasındakı elektrik düyməsini basır. Bütün abajurlar yanır. Mavi, qırmızı, sarı, narıncı işıq həlqəsi yaranır. Osman telefona qaçır. Dəstəyi götürür... )*

**Osman** - Buyurun! *(Bir anlıq sükut)* Xosrov bəyin bağ evi! Bəli, bəli. *(Bir anlıq sükut)* Xeyr, heç kəs yoxdur. *(Bir anlıq sükut)* Ağam? Maçkadakı evində deyil? *(Bir anlıq sükut)* Xeyr! Bura heç gəlməyib. Nə bu gün, nə dünən. *(Bir anlıq sükut)* Yaxşı, oldu. (*Bir anlıq sükut)* Mən? Mən, xidmətçi Osmanam!

*(Osman dəstəyi yerinə asır. Fikirli-fikirli gəldiyi yerdən çıxıb gedir. Gedərkən abajurları söndürmür. Küləyin uğultusu gah azalır, gah artır. Rüzgarın yavaşladığı vaxt birdən telefon yenə zəng çalır. Bir daha çalınır. Osman tələm-tələsik içəri girir.)*

## İKİNCİ SƏHNƏ

-Osman -

*(Osman telefona qaçır. Dəstəyi qaldırır.)*

**Osman** - Mənəm, Osmandı! (*Bir anlıq sükut. Həyəcanla...)* Xanım, sizsiniz? Buyurun! (*Uzun bir sükut*) Ağam hələ gəlməyib. Heç gəlməyib bura. Bayaq başqaları da soruşdu. Bəli? *(Sükut)* Ağac kəsildi. Bəli, mən kəsdim. Dibindən mişarla kəsdim. (*Bir anlıq sükut.*) Başüstə, xanım. Yaxşı, xanım. *(Bir anlıq sükut*) Başüstə! (*Heç nə anlamırmış kimi telefonu yerinə qoyur. Öz-özünə danışır.)*Ya Rəbbi, sən qurtar ağamı!

*(Buxarıya tərəf yavaş-yavaş addımlayır, (buxarının) qabağında dayanır. Yerə çömbəlir. Balaca masadan kibrit qutusunu götürür. Buxarını qalamağa çalışır. Bir-iki kibrit yandırır. Ara-bir küləyin vıyıltısı eşidilir. Buxarı alovlanmağa başlayır. Bu vaxt sağdakı qapı açılır. Əynində yaxalığı qalxmış palto, başında papaq, əlləri cibində Xosrov bir xəyal kimi içəri daxil olur.)*

## ÜÇÜNCÜ SƏHNƏ

Xosrov - Osman

*(Xosrov Osmanı görür. Buxarıya tərəf dönür. Papağını çıxardır. Əlinə alır. Osman onun gəlişinin hələ fərqində deyil. Odunlarla məşğuldur.)*

**Xosrov** - Bağça qapısı niyə açıqdır?

**Osman** - *(Xosrovu görərək heyrətlə ayağa qalxır.)* Sizsiniz, ağam? Mən açıq qoymuşam. Bayaq gəldim.

**Xosrov** - Nə gəzirsən burada? Axı sən kitab həvəskarı deyilsən.

**Osman** - Telefona cavab vermək üçün gəldim.

**Xosrov** - Kim idi, telefondakı?

**Osman** - Dedi ki, dövlət hakimiyəm.

**Xosrov** - Nə soruşurdu?

**Osman** - Sizi soruşdu. Bağ evində olub-olmadığınızla maraqlandı.

**Xosrov** - Nə cavab verdin?

**Osman** - Bağ evinə heç gəlmədiyinizi, dedim.

**Xosrov** - Əla! Get sahilə məni gətirən qayığın pulunu ver!

*(Osman sürətlə çıxır. Xosrov divana tərəf gedir. Divanın qabağında dayanır. Hərəkətləri olduqca yavaşdır. Aramla papağını və paltosunu çıxarıb divana atır. Yazı masasının arxasına keçir. Oturur. Dirsəklərini masaya dayayıb başını ovuclarına alır. Küləyin uğultusu kəsilmişdir. Səs-səmir gəlmir. Xosrov hələ də eyni vəziyyətdə oturur. Bir-neçə saniyə keçir. Uzaqdan pianino səsi eşidilməyə başlayır. Pianinoda ağır bir musiqi çalınmaqdadır. Səs gah yüksələrək otağa dolur, gah da zəifləyərək uzaqlaşır. Pianinonun səsi eşidilməz*

*olur. Elə bu vaxt telefon zəng çalır. Sağdakı qapıdan Osman qaranəfəs içəri girir.)*

## DÖRDÜNCÜ SƏHNƏ

Osman - Xosrov

*(Osman otağın ortasında çaşqınlıqla dayanır. Xosrov yumruqlarını gicgahlarına vurur.)*

**Xosrov** - Çıxart bu telefonun naqilini!
**Osman** - *(Başa düşmürmüş kimi)* Bəli?
**Xosrov** - Çək telefonun bağını, çıxart divardan!
**Osman** - Cavab verməyim?
**Xosrov** - Vermə!
**Osman** - Yaxşı, ağam.

*(Osman telefona qaçır. Telefon yenə çalmağa başlayır. Osman dolabın arxasındakı naqili çıxarır. Telefonun zəngi yarıda qırılır. Sükut. Pianino səsi daha da canlanır. Osman yazı masasının qabağına keçir. Ağasına baxır.)*

**Xosrov** - Bu pianino səsi hardan gəlir?
**Osman** - Bizə bitişik bağ evindən gəlir, ağam. Bütün günü çalıblar.
**Xosrov** - Səsini kəsdirə bilməzsən?
**Osman** - İstəyirsinizsə gedib xahiş edim, ağam?
**Xosrov** - Lazım deyil! Sən ocağa bax!

*(Osman həmin dəqiqə geri qayıdır. Buxarının qabağında əyilərək ocağı nizamlayır. Xosrovun üzü stolüstü lampanın işığında aydın görünür. Artıq əsl dəliyə oxşayır. Üzü solğunlaşmış və çox arıqlamışdır. Buxarını qalayan Osmanı sabit baxışlarla seyr edir. Osman işini qurtarıb ayağa qalxır. Ağasına tərəf çevrilir. Əllərini önündə birləşdirir. Pianino səsi hüzünlü ahənglə.)*

**Xosrov** - Osman!

**Osman** - Buyurun, ağam!

**Xosrov** - Neçə yaşın var?

**Osman** - *(Çaşqınlıqla)* 65 yaşım var.

**Xosrov** - Neçə ildi bizdəsən?

**Osman** - Qırx ili keçib.

**Xosrov** - Mənim doğulduğum vaxtı xatırlayırsan?

**Osman** - Necə xatırlaya bilmərəm, ağam? Sizi səkkiz-doqquz yaşına qədər mən gəzdirmişəm.

**Xosrov** - Haralarda gəzərdik?

**Osman** - Bağ evinin bağçasında, dağlarda, çəmənlərdə.

**Xosrov** - Necə uşaq idim?

**Osman** - (*Sıxıntıqarışıq heyrətlə*) Elə gözəl, elə təmiz qəlbli uşaq idiniz ki.. Amma ağam! Niyə soruşursunuz bunları?

**Xosrov** - Əhəmiyyət vermə! Səkkiz-doqquz yaşına qədər dedin, hə?

**Osman** - *(Hələ də çaşqınlıqla*) Bəli, ağam.

**Xosrov** - Yəni atamın özünü asdığı ilə qədər.

**Osman** - *(Çox mütəssir)* Allah rəhmət eləsin!

*(Pianino qəfil susur. Dərin bir sükut hökm sürür.)*

**Xosrov** - *(Eyni sabit baxışlarla)* Osman!

**Osman** - Bəli, ağam!

**Xosrov** - Allah var?

**Osman** - *(Qorxmuş və incik)* Əlbəttə var, əlbəttə var.

**Xosrov** - Nə bilirsən?

**Osman** - *(Üsyankarcasına)* Bunu necə bilməmək olar? Əlbəttə bilirəm.

**Xosrov** - Onda göstər!

**Osman** - Göstərə bilmərəm. Fəqət var.

**Xosrov** - Osman! Mən də göstərə bilmərəm. Amma məncə də var. *(Bir anlıq başı kədərlə sinəsinə düşən Osmana baxır.)* Səbəbini niyə soruşmursan?

**Osman** - *(Hıçqıraraq)* Niyə, ağam?

**Xosrov** - Görünmədiyi üçün. Görünənlərdən olmadığı üçün.

**Osman** - (*Başını sinəsindən qaldırır. Yalvarırmış kimi)* Ağam! Yatağınızı hazırlayım?

**Xosrov** - *(Dinləmirmiş kimi*) Osman!

**Osman** - Ağam!

**Xosrov** – Mən görünənlərdənəm. Məni görürsən də, hə?

**Osman** - *(Ağlamsınaraq)* Bəli, ağam!

**Xosrov** - Mən nəyə bənzəyirəm? *(Osman iztirabla başını sağa çevirir. Cavab vermir.)*

**Xosrov** - Söylə! Nəyə bənzəyirəm?

**Osman** - Ağam! Yaşlı xidmətçinizə yazığınız gəlsin! Heç adamdan da belə şey soruşarlar? Nəyə bənzəyəcəksiniz?

**Xosrov** - Məni nəyə isə bənzət! Hamı nəyəsə bənzəyir.

**Osman** - Allah bənzətməsin ağam, atanıza bənzəyirsiniz.

**Xosrov** - (*Əliylə buxarının üstündəki portreti göstərir*.) Bu adama, hə? Madam ki, bənzəyirəm, Allah niyə bənzətməsin?

**Osman** - (*Çox iztirabla)* Allah bənzətməsin!

**Xosrov** - *(Yavaşca ayağa qalxır.)* Osman, fikir eləmə! Mən atama bənzəmirəm.

**Osman** - (*Dəhşət içində əlini ağzına tutur.)* Bəs kimə bənzəyirsiniz?

**Xosrov** - Mən dəliyə bənzəyirəm.

**Osman** - Allah eləməsin, Allah qorusun!

**Xosrov** - *(Yazı masasının yanına qayıdır. Barmağıyla havada qəribə bir dairə cızıraraq*) İnsan niyə dəli olur, Osman?

**Osman** - Ah ağam, keçin günahımdan! İnsan çox düşünməkdən dəli olur.

**Xosrov** - Osman, heç bıçağın kəsdiyi yerdən qan axmaya bilər? Mənim də beynimdən qan axır. Mən düşünmürəm, beynim qaynayır. Görürəm, gözlərimi yumanda da görürəm. Beynimin içində hər bir düşüncə qapqara bir qan kimi

yuvarlanır. Mən istəmirəm, Osman! Fəqət heç bıçağın deşdiyi yerdən qan axmaya bilər?

**Osman** - Daha düşünməyin, ağam!

**Xosrov** - Kimisə düşünməyə məcbur etsən, düşündürə bilməzsən. Məni düşünməməyə məcbur etsən, yenə əlindən heç nə gəlməz! Mən başqalarının düşünməməyə məhkum olduğu qədər düşünməyə məhkumam. Osman! Pəncərələri açmaq istəyirəm. Başımı soyuq havaya uzadıb köpəklər kimi ulayaraq hamını pəncərəmin altına yığmaq istəyirəm. Düşünmək istəmirəm deyə bağırmaq, hayqırmaq istəyirəm. Osman, düşünmək istəmirəm! Düşünmək istəmirəm!

*(Osman, gözlərini sildiyi əlləriylə üzünü örtür. Artıq bu vəziyyətə tab gətirə bilmir. Xosrovun gözləri atasının şəklində. Bir-iki saniyə şəklə baxır. Uzaqdan yenə pianinonun səsi eşidilməyə başlayır.)*

**Xosrov** - Osman, çək əlini üzündən! *(Osman dərhal əlini üzündən çəkir.)* Arxaya çevril və atamın şəklinə bax! *(Osman arxaya çevrilib şəklə baxır.)* Osman, bu adamı tanıyırdın?

**Osman** - Heç tanımaya bilərəm, ağam? Məni işə o götürmüşdü, çörəyimi verirdi.

**Xosrov** - Osman, heç atamın əlindən tutmusan?

**Osman** - Əlbəttə, ağam. Dəfələrlə tutmuş və öpmüşəm.

**Xosrov** - *(Çılğınlıqla)* İstiydi əlləri?

*(Osman cavab vermir. Başı kəsilmiş kimi sinəsinə düşür.)*

**Xosrov** - Nə soruşsam, cavab ver!

**Osman** - Təbii ki istiydi, ağam.

**Xosrov** - İndi o əllər haradadır? İndi o əllər bəlkə də biləyindən qopmuş, bumbuz qələm kimi beş sümüyə dönmüşdür!

*(Müsiqi, Xosrovun səsiylə həmahənglik təşkil edir. Hər cümləsini bitirərkən, müsiqi daha yaxşı eşidilir. Sonra hər cümlənin əvvəlində Xosrovun səsiylə birləşir. Xosrov xəstəhal hərəkətlərlə şəklə işarə edərək danışır.)*

**Xosrov** - Bu gözlər, baxanda görən, gördüklərinin xəyalını ayna kimi qəlbinin dərinliklərinə əks etdirən bu gözlər hardadır? Onların hərəsi bir fincan, rəngli su idi. Torpağa töküldü. Buxar olub buludlara qarışdı. *(Səsi birdən coşur. Getdikcə özündən çıxır)* Hardadır bu adam, Osman? Gözünü, üzünü, əllərini, ayaqlarını qoy bir yana, bütün varlığı ilə, varlığının tək və yeganə mənasıyla haradadı bu adam? Əridi, dağıldı, qurudu, ovxalandı, silindi, hə? Bəs ərimək, dağılmaq, qurumaq, ovxalanmaq, silinmək nə deməkdir? Hər şey əriyir, dağılır, quruyur, ovxalanır, silinir, heç olur. Fəqət bu insanın canından ətrafa saçılan, bədəninin mərkəz nöqtəsindən fışqıran həyat alovları, varlıq şövqü, qüdrəti, yaşamaq həzzi, həyat eşqi necə silinə bilər? Bu həzz və əminlik duyğusu necə ola bilər ki, miskin əzalarımızı bir-birinə bağlaya bilməsin? Cəsədimizi kəlləsindən tutub, ayağa qaldıra bilməsin? Yoxsa əsl gedən, puç olan, silinən odur? *(Sükut, musiqi.)* Xeyr! O silinmir. Bəlkə yox, yüz faiz silinmir. Ölərəm, yenə inanmaram. Silinə bilməz. Fəqət hara getdiyi, haralarda gəzdiyi, necə olduğu ağlımıza batmır. Osman! Ağlımız kəsmir. Onun üçün də dəli oluruq. Bu şəklə bir bax! Bəzi bitkilərdən hazırlanmış boyası, müşəmbəsi və çərçivəsi ilə qarşımızdadır. O heç nəyin əsli deyil, təqlididir. Onun özü yox, təqlidi var. Bu necə günəşdir ki, özü yox, dalğalarda əksi var? *(Sükut, musiqi.)* Yaşamırıq. Rəsmlərimiz, fotolarımız qədər yaşamırıq. Əl yaylığımız, köynəyimiz, ayaqqabılarımız qədər yaşamırıq. *(Sürətlə qayıdıb stolunu göstərir.)* Bu siqaret kağızını bu stolun üstünə qoy, üstünə də bir daş qoy, qapıları ört və get! Üç yüz il sonra gəl, görəcəksən ki, elə yerindədir. Bəlkə saralıb bürüşüb, fəqət yenə də özüdür ki var. Bir siqaret kağızı qədər yaşaya bilmirik. Kəfənimizdən əvvəl özümüz

çürüyürük. Eşidirəm! Qulaq as, sən də eşidəcəksən! Torpaq altında milyardlala qurdun, xırçıltı ilə tut yarpaqlarını yeyən ipək qurdu kimi, milyardlarla ölünü yediyini eşidirəm. *(Çılğınlıqla)* Ölülər! Gözsüz, qulaqsız qurdların içdiyi köpüklü şampan damlaları! Tozun, torpağın məzələri! Qorxunc gizlənpacın qorxunc oyunçuları. Qurtarın məni əbədilikdən! Öldüm sizi axtarmaqdan... Qurtarın məni düşünməkdən!

*(Xosrov susur. Müsiqi qeyri-adi dərəcədə cəzbedici və düşündürücüdür. Xosrov tamamilə dəli kimidir. Dizləri üstündə yerə əyilərək, əliylə məchul bir nöqtəni göstərir. Osman, ağasının arxasında, başını aşağı salıb səssizcə ağlayır. Xosrov əvvəlki vəziyyətində. Müsiqi davam edir.)*

**Xosrov** - Allahım, mən yox ola bilmərəm! Nə istəsən olaram, yox ola bilmərəm! Tikə-tikə doğrana bilərəm. Nöqtə-nöqtə ləkələrə dönə bilərəm. Tütün kimi qurudula bilər, nazik-nazik doğranıb, bir çubuğa doldurulub çəkilib havaya sovrula bilərəm. Fəqət yox ola bilmərəm. Madam ki, bu qədər qorxuram, yox ola bilmərəm. Əczaxanalarda spirt dolu banka içinə qoyulmuş uşaq ölüsü kimi yumruq boyda ət parçasına dönə bilər, bir şüşə qaba həbs edilə bilərəm. Fəqət, bu şüşədən yenə çölü seyr edər, qarşımdan keçənləri görər, özümü hiss edər, özümü və Allahımı düşünə bilərəm. Razı deyiləm, Allahım! Yox olmağa, qalmamağa, dünyaya gəlməməyə, mövcud olmamağa razı deyiləm. (*Sükut, müsiqi.)* Bu dünyada qoyub gedə biləcəyim heç nə yoxdur. Nə dəniz, nə ağac, nə şəhər, nə ev, nə qadın, nə də özüm. (*Əliylə sinəsinə çırpır.)* Bu qəlibim, bu bədənim, bu qəfəsimlə mən. Onların hamısından əl çəkə bilərəm. Fəqət şüurumdan, bilmək, duymaq, var olmaq şüurumdan əl çəkə bilmərəm. Razıyam ki, bir toz parçası olum. İnsanlar üstümdən tapdalayıb keçsinlər. Canımın ağrıdığını hiss edim. Razıyam ki, bir kərtənkələ olum. Qızmar yay günlərində bir bağçanın divarına dırmanım. Dırnaqlarımı

kərpiclərə keçirim. Yaşıl və islaq kürəyimi günəşə verim. Fəqət günəşlə kürəyim arasındakı öpüşməni hiss edim. Kərpiclərin incə zərrələrini sayım. Oyuqdakı böcəklərin, bir boru içindən baxırmış kimi mənə baxdıqlarını görüm və düşünüm. Razıyam bir nöqtəyə çevrilim. Fəqət o nöqtə bütün kainat, bütün mövcudat ilə dolsun. Mən yox ola bilmərəm. Ağlayaram, çırpınaram, çatlayaram, çıldıraram, ölərəm, fəqət yox ola bilmərəm. *(Sükut, müsiqi.)* Mənim olan hər şeyi verərəm, göyləri, ulduzları, göydəki kəhkəşanı, ayı, dünyanı verərəm. Fəqət əqlim məndə qalsın! *(Acı-acı inləyir.)* Əqlim məndə qalsın! Əqlim!...

*(Xosrov birdən-birə barmaqlarının ucuyla başını tutur. Müsiqi inləyir. Osman, Xosrovun arxasından, sağ tərəfinə keçir. Xosrov, qorxunc vəziyyətdədir. Osmanın ona tərəf qaçdığını fərq eləsə də, vəziyyətini dəyişmir. Gözləri qanla dolmuş, əliylə başını tutmuş, sanki nə isə kəşf etmək istəyirmiş kimi hərəkət edir. Müsiqi axırıncı qısa akkorddan sonra dayanır. Xosrov qaşları çatılmış.)*

**Xosrov** - *(Osmana tərəf heç baxmadan)* Osman, bu sözlər mənim deyil!

*(Osman, ağasının məqsədini anlamır. Qorxuyla Xosrova qısılır. Üzünə baxa-baxa qalır. Xosrov sanki dəli olmuşdur.)*

**Xosrov** - *(Səsi yırtıcı bir tonla partlayır.)* Bu sözlər mənim deyil, Osman!

**Osman** - Ağam! Başa düşmürəm sizin deyil, bəs kimindir?

**Xosrov** - Ordakı adamın sözləridir!

**Osman** - Ordakı adam kimdir?

**Xosrov** - Əsər yazmışdım, e, mən. O dəqiqə səhnədə oynadılar e?

**Osman** - Bəli?

**Xosrov** - Ordakı adamın!

**Osman** - Onun sözlərini siz yazmamısınız, ağam?

**Xosrov** - Onun sözlərini mən yazmışdım. Mənim sözlərimi isə indi o yazır.

**Osman** - Ağam, qurbanınız olum, yatın artıq!

**Xosrov** - Yataq da məni istəmir, Osman!

*(Dərin bir sükut. Uzaqdan acı bir zil səsi.)*

**Osman** - Küçə qapısı döyülür. İcazə verin, açım?

**Xosrov** - *(Bayaqdan bəri üzünə baxmadığı Osmana tərəf, yenə də dönmədən.)* Açmağına aç! Fəqət düşmənlərim gəlibsə, içəri qoyma!

**Osman** - Ağam, kimdi düşməniniz?

**Xosrov** - Hamı, hamı! Sən onları görən kimi tanıyacaqsan.

*(Zəng təzədən çalınır. Osman başını iztirabla sallayaraq sağ tərəfdən çıxır. Xosrov sağ tərəfə dönür. Divana tərəf gedir. Dayanır. Geriyə qayıdır. Divanda oturur. Üzü qapıya tərəf, arxası divara dayalı, başını divara söykəyərək, gözlərini yumur. Qəfil külək vıyıltısı pəncərələri titrədib, keçir. Birdən pilləkənlərdən taq-tuq ayaq səsləri eşidilir. Kimsə qapının düz yanında qışqırır.)*

**Səs** - Burax məni, ixtiyar! Anlasana dərdimi! Ağanı qurtarmağa gəlmişəm.

*(Sağdakı qapı açılır. Turqut əynində palto, əlində papaq həyəcanla içəriyə daxil olur. Arxasınca Osman gəlir.)*

## BEŞİNCİ SƏHNƏ

Turqut – Osman – Xosrov

*(Turqut Xosrovu divanda görəndə həyəcanla dayanır. Hörmətlə əyilir. Xosrov həyəcanını biruzə vermədən gözlərini açır.)*

**Turqut** - Ustadım, əfəndim, yalvarıram məni qovmayın! Bir saniyə dinləyin! Bir təsadüf nəticəsində sizin haqqınızda dəhşətli bir xəbər öyrəndim. Alçaq bir düşmən tələsi. Nifrətimdən, kədərimdən ölürəm. Sizə bunu xəbər verməyə gəldim.

**Xosrov** - Nə məsələdir?

**Turqut** - Üç gün əvvəl redaksiyada müdirim Şərəf bəylə nervpataloq Nevzad bəy görüşdülər. Müdir məni bir işə görə yanına çağırmışdı. Yanımda danışmağı ayıb hesab eləməyib söhbətlərinə davam etdilər.

**Xosrov** - Deməli, sizə inanırmışlar.

**Turqut** - Heç olmaz belə inamdan! Sizi, çox üzr istəyirəm deyə də bilmirəm, bir yerə qapatmaq üçün plan cızırdılar.

**Xosrov** - Niyə çəkinirsiniz? Dəlixana desənizə!

**Turqud** - Bəli, ustadım! Nevzad lazımlı sənədi düzəldib verəcəyini dedi. Dövlət xəstəxanası həkiminə müraciət üçün bir-birlərinə görüş təyin etdilər. Amma ailənizdən bir nəfər şikayət ərizəsi ilə müraciət eləməli imiş. Nevzad bu şikayəti ananızdan alacağını söylədi. Ala bilməsəm belə, onun da normal insan olmadığını bildirər, ətrafdakıların sağlamlıq və təhlükəsizliyi nöqteyi nəzərini rəsmi dairələrin diqqətinə çatdıraram, dedi.

**Xosrov** - Ah, nə gözəl!

**Turqut** - Hirsimdən partlayıram. Müdirimlə o məhşur həkimi şillələməmək üçün dodağımı dişlədim. Sizə o dəqiqə

xəbər verəcəkdim.  Verə bilmədim. Çünki onları təqib etmək, planlarını yaxşı-yaxşı öyrənmək istədim. Maçkaya özümü çatdırmaq istəyirdim ki, eşitdim oradan qaçmısınız. Bütün İstanbul bundan xəbərdardır. İki gecədir, evinizdə deyilmişsiniz. Hamı bağ evinə çəkildiyinizi sanır.  Bura zəng edənlər sizi tapa bilməyiblər. Ananız başda olmaqla heç kəs harada olduğunuzu bilmirmiş. Ananız ilə aktyor Mənsur bəy dünən bütün İstanbulu axtarıblar.

**Xosrov** - Gör nələr olub, əcəb qəribədir!

**Turqut** - Nəhayət dünən müdirlə nervpataloq görüşdülər. Dedilər ki, bu bir fürsətdir. Bu gün işimizi bitirər, bağ evini güddürər, onu polislə götürüb apararıq.

**Xosrov** - Anam şikayət məktubunu verib?

**Turqut** - Xeyr! Patron, Nevzaddan qol çəkdirə bildinmi, deyə soruşdu, o da yola gətirə bilmədim, dedi. Nevzad ananıza deyib ki, əgər oğlunuzu bir müddətlik dəlixanaya saldırmasa, o da özünü atası kimi ağacdan asacaq. Buna baxmayaraq, ananız şikayət ərizəsini imzalamayıb.

**Xosrov** - Məni burdan zorla aparmağa bəs necə nail olacaqmış?

**Turqut** -  Şikayət olmadan da, mümkün imiş. Əgər dövlət xəstəxanası həkiminin rəyinə görə bir adamın dəli olduğu qəbul edilib, cəmiyyətdə sərbəst qalmasında təhlükə görülsə, onu polislə dəlixanaya atmaq mümkün imiş.

**Xosrov** – Deməli, bircə mənim dəli olduğumun sübuta yetirilməsi qalır, hə. Bu da asandır.

**Turqut** - Ah, ustadım! Bunların hamısını açar deşiyindən dinlədim. Nevzad dedi ki: Mən bu məmləkətin ən tanınmış nervpataloqlarından biriyəm. Bu sahədə nüfuzum var. Raportum dövlət xəstəxanası həkimləri tərəfindən rədd edilə bilməz.

**Xosrov** - Təşəkkür edirəm, övladım. Dəlixanaya girsəm də, bu yaxşılığınızı unutmayacağam.

**Turqut** - Ustadım! İcazə verin! Məsələni hər yerə xəbər verim. Qiyamət qoparım. Bu əxlaqsızları rüsvay edim. Xalqı

və höküməti xəbərdar edim. Xahiş edirəm, icasə verin! Burda qalım. Sizi dişimlə-dırnağımla, bütün varlığımla müdafiə edim.

**Xosrov** - Təkrar təşəkkür edirəm. Bütün bunlara lüzum yoxdur. Siz ən gözəl hərəkəti etdiniz. İşi burada saxlayın!

**Turqut** - İcazə verin! Yanınızda qalım. Sizin üçün qorxuram.

**Xosrov** - Qorxulacaq heç nə yoxdur. Siz gedin artıq! Həm onları, həm də məni rahat buraxın! Ricamı qəbul edin?

**Turqut** - Arzunuz mənim üçün əmrdir. Gedirəm. Allah köməyiniz olsun!

**Xosrov** - Təşəkkür edirəm.

*(Xosrov oturduğu yerdən Turquta əlini uzadır. Turqut tez, onun əlini öpür. Təsirlənərək sağdakı qapıdan qaçaraq çıxır. Osman durduğu yerdə əzgin. Xosrov dikələrək, yerindən qalxır.)*

**Xosrov** - (*Osmana*) Bağça qapısı kilidlidir?

**Osman** - Xeyr, ağam. Fəqət?

**Xosrov** - Mən sahilə tərəf gedirəm.

**Osman** - Ağam, hava çox pisdir. Qapqaranlıqdır. Yağış da yağmağa başladı. Üşüyərsiniz.

**Xosrov** - Mən nə isə edəndə qabağımı kəsmə.

**Osman** - Ağam! Mərhəmət edin!

**Xosrov** - (*Böyük bir təlqin qüvvətiylə)* Sən burda qal!

*(Xosrov irəliləyir. Sağ tərəfdən çıxır. Osman buxarının yanındakı pəncərəyə qaçır. Çölü görmək istəyirmiş kimi alnını şüşəyə dayayır. Beləcə dayanır. Yağışın səsi. Dalınca rüzgar uğultusu, pəncərə titrəyişi.. Saniyələr keçir.. Sağdakı böyük qapı açılır. Ülviyyə, Mənsur və Turqut içəri daxil olur.)*

## ALTINCI SƏHNƏ

Ülviyyə - Mənsur – Turqut – Osman

*(Ülviyyə qabaqda, Mənsurla Turqut arxada gəlir. Osman hələ də pəncərədən baxır. Ülviyyə otağa girər-girməz Turquta tərəf çevrilir.)*

**Ülviyyə** - *(Turquta)* Bəy əfəndi! Siz bizimlə qalın! Bu vəziyyətdə əsl dostlara ehtiyacımız var. Xosrovu çox sevdiyinizi görürəm. Mənə demək istədiklərinizi, bir azdan danışarsınız, olar?

**Turqut** - Əmr edin, xanım!

*(Osman səsləri eşidən kimi arxaya çevrilir. Ülviyyəni görür. Əllərini ovuşduraraq gözləyir.)*

**Ülviyyə** - Haradadır ağan? Tez ol, de görüm!

**Osman** - İndi sahilə çıxdı, xanım. Görmədiniz?

**Ülviyyə** - Biz küçə qapısı tərəfdən gəldik. Bu havada necə buraxdın, ağanı?

**Osman** - Necə buraxmayaydım xanım? Getməməsi üçün neyləyə bilərdim ki?

**Mənsur** - *(Ülviyyəyə)* Düz deyir xanım! O nə eləsin?

**Ülviyyə** - *(Osmana)* Barı kəsdin o ağacı? Telefonda demişdim.

**Osman** - Kəsdim, xanım. Mişarla düz dibindən kəsdim.

**Ülviyyə** - *(Mənsura)* Nə deyirsiniz, sahilə gedək?

**Mənsur** - Olmaz, xanım! Sonra hirslənər. O özü indi harda olsa gələcək.

**Ülviyyə** - Bəs bizi görəndə hirslənməz?

**Mənsur** - (*Osmana)* Ağanın vəziyyəti necədir?

**Osman** - Çox fənadır, çox fəna!

**Mənsur** - Xanım! İndi ən yaxşısı başqa bir otağa keçib onu burdan izləməkdir. Onu hələlik Osmanla baş-başa buraxaq.

**Ülviyyə** - Doğrudur, çıxaq bu dəqiqə burdan! *(Turquta)* Buyurun, oğlum! Yandakı otağa keçin.

*(Ülviyyə sol tərəfə gedir, yazı stolunun arxasındakı qapıdan çıxır. Mənsurla Turqut da arxasınca gedirlər. Bir neçə saniyə keçir. Osman kədərli-kədərli buxarının alovlarını seyr edir. Sağdakı qapı açılır. Xosrov içəri daxil olur.)*

## YEDDİNCİ SƏHNƏ

Xosrov – Osman

*(Xosrov tutqun halda  bir-iki addım Osmana doğru atır. Dayanır.)*

**Xosrov** - Kim kəsib bağçadakı əncir ağacını?
**Osman** - Mən kəsmişəm, ağam!
**Xosrov** - Kəsməyi kim tapşırmışdı?
**Osman** - Xanım əmr eləmişdi.
**Xosrov** - Nə çıxar aciz bir əncir ağacını qurutmaqdan? Xanımına söylə! Sənə əmr eləsin. Daxilimdəki ağacı kəs! O aciz deyil, çox qüvvətlidir.
**Osman** - Ah, ağam. Mən nə eləyim?
**Xosrov** - Heç, daha nə eləyəcəksən?

*(Xosrov yazı stoluna tərəf gedir. Dolabın arxasına keçir. Soldakı balaca qapının aralı olduğunu görüb aralı tərəfi əliylə tutub açırmış kimi hərəkət edir. Başını Osmana çevirir.)*

**Xosrov** - Bu qapı bayaq bağlı idi. Kim girdi yataq otağıma?
**Osman** - Vallah ağam, nə deyim? Nə deyəcəyimi bilmirəm?

*(Xosrov qapını aralayıb içəriyə diqqətlə baxır. Müsiqi çox xəfif olsa da, təzədən  eşidilməyə başlayır.)*

**Xosrov** - Kimdir o qaranlıqdakı kölgə?
**Osman** - Ananızdır, ağam.
**Xosrov** - (*İçəriyə səslənərək)* Ana, gəl bura!

*(Xosrov geri-geri çəkilir. Otağın ortasına yaxınlaşır. Osmanın iki-üç addımlığında dayanır. Soldakı qapıdan Ülviyyə əzabkeş bir xəyalət kimi yavaş və ahəngli addımlarla önə baxaraq çıxır.)*

## SƏKKİZİNCİ SƏHNƏ

Ülviyyə - Əvvəlkilər

**Xosrov** - *(Anasına divanı işarə edərək)* Otur burada, ana!

*(Ülviyyə kitab şkafina tərəf çevrilir. Divana ilişib oturur. Xosrov qorxunc nəzərlərlə anasına baxır. Osman, Xosrovun yanında durub təlaşla xanımını seyr edir. Ülviyyə, Osmana əliylə çıxmasını işarə edir. Osman sağdakı qapıdan çıxır. Musiqi daha da yüksəlir.)*

**Xosrov** - Ana!
**Ülviyyə** - Oğlum!
**Xosrov** - Niyə əncir ağacını kəsdirdin?
**Ülviyyə** - İstəmirdim. O ağacı görməyini istəmirdim. Qəbahət eləmişəm?
**Xosrov** - Ana, mən o ağaca baxanda elə bil atamı görürdüm. Atamı görmək üçün sahilə çıxdım. Axtardım, axtardım. Nəhayət, onu düz dibindən kəsilmiş vəziyyətdə tapdım.
**Ülviyyə** - Mənim balam! Pis xatirələrlə dolu olan bir ağaca niyə bu qədər bağlısan?
**Xosrov** - Çünki o atam idi. Özüm idim. Uşaqlığım idi. Bütün varlığım idi. Uşaq vaxtı onun altında oynayardım. Ona söykənər, buludları seyr edərdim. Kölgəsinə sığınardım. O mənim dayəm idi. O, səndən sonra ən çox sevdiyim varlıq idi. Ən çox sevdiyim varlıqdan ən böyük pisliyi gördüm. Atam özünü ondan asdı. O mənim yenə də ən çox bağlı olduğum varlıq olaraq qaldı. İndi onu kəsdiniz. Düz dibindən kəsdiniz. Beləcə dünyamı da kəsmiş oldunuz. Artıq başa düşürəm ki, dünyam düz dibindən məhv olub.
**Ülviyyə** - *(Ağlayaraq)* Xosrov, bağışla! Ananı bağışla! Buna görə bağışla məni!

**Xosrov** - Özümü həmin yerdən asacağımdan qorxdunuz. Ona baxa-baxa atamın yoluyla getməyimdən qorxdunuz. Ah ağılsızlar! Bəyəm başımı çırpıb partladacağım daş, divar yoxdur? Dəniz, dərə, uçurum yoxdur? Şüşə, sümük, odun yoxdur? İnsanı nə öldürməz ki? *(Sükut, müsiqi.)* Görürsən də, insan çör-çöpdən ibarətdir!

**Ülviyyə** - *(Qışqıraraq)* Oğlum, birlikdə ölüb qurtulaq!

*(Xosrov arxası yazı stoluna, üzü meydana tərəf dayanır. Soldakı balaca qapıdan, kölgə kimi Mənsurla Turqut girir.)*

## DOQQUZUNCU SƏHNƏ

Mənsur – Turqut – Əvvəlkilər

*(Mənsurla Turqut elə orada, çiyin-çiyinə dayanırlar. Xosrovun gözünə görünmək istəmirlər. Xosrovun arxası onlara tərəf olduğu üçün onları görmür.)*

**Xosrov** - *(Anasına baxmadan, üzündə yeni bir fırtına.)* Ana, məni niyə dünyaya gətirmisən?

**Ülviyyə** - *(Fəryad qoparaaq)* Xosrov!

**Xosrov** - (*Fərqinə varmadan, anasına tərəf çevrilir. Mənsurla Turqutu hələ də görmür. Həmişə olduğu kimi musiqi yenə də Xosrovla həmahəngdir.)* Ana, məni niyə dünyaya gətirmisən? Siz analar, dünyaya bir övlad gətirəndə heç düşünmürsünüz? Düşünmürsünüz ki, insan nə deməkdir? Bəyəm, insan qədər həssas başqa bir cihaz var? Boşluğa uzadılmış bir anten kimi sinirləriylə, ağlayan bir üzə bənzər qırış-qırış beyniylə, saç sancağının toxunuşuna belə dayana bilməyəcək qədər incə bir insan! Bu cihazı dünyaya necə gətirirsiniz? Hansı cəsarətlə onu yer üzünə çıxardır, yer üzünün problemləri ilə üz-üzə qoyursunuz? Beş yaşlı uşağı ilanlı quyuya atsalar, daha az qorxar. Bizi dünyaya gətirən sizsiniz. Bu qüdrətə maliksinizsə, harayımıza niyə gəlmirsiniz? Haydı, gəlin!

*(Xosrov susur. Müsiqi dərinləşir. Ülviyyə sol qolunu alnına qoyub ürkək bir uşaq kimi bir tərəfdə büzülmüş, az qala özündən gedir. Xosrov anasına tərəf bir-iki addım atır. Qarşısında dayanır. Yerə diz çökür. Əllərini anasının dizinə qoyur. Anası bu mənzərəni görən kimi göz yaşlarını saxlaya bilmir. Ağlayaraq əyilir. Əllərini oğlunun saçlarına toxundurur. Mənsurla Turqut əvvəlki yerlərində çiyin-çiyinə həyəcanla başlarını uzadırlar.)*

**Xosrov** - Ana, məni əff et! Mən yox, sən məni əff et! Mən bir dəliyəm.

**Ülviyyə** - Yox, övladım, sən dəli deyilsən.

**Xosrov** - Dəliyəm ana! Heyf ki, dəliyəm. Dəli olduğuma görə səndən utanıram. Səni el-obanın içində xəcalətli etdiyim üçün utanıram. Ana! Mənə görə utanırsan?

**Ülviyyə** - (*Gizli-gizli ağlayaraq*) Xeyr, mən səninlə fəxr edirəm. Utanmıram. Kaş hər ana, sənin kimi övlad doğa biləydi.

**Xosrov** - Ana, səndən məni niyə dünyaya gətirdin, deyə soruşdum. Məni, əff et! Sən bütün analar kimi müqəddəssən. Məni dünyaya gətirməsəydin, bəlkə də indi mən ölümdən qorxmayacaq, çılğınlıqdan titrəməyəcəkdim. Sizlərin sayəsində qorxduğumuz şeylərin əksi olan nemətlərə qovuşuruq. Sən necə də müqəddəssən. Mən dəli olsam da, bu sənin günahın deyil, ana!

*(Ülviyyə Xosrovun saçlarını oxşayır. Xosrov, anasının əlləri saçlarında gözlərini qaldırıb Ülviyyəyə baxır. Ülviyyənin gözlərindən yaş süzülür. Xosrov da anasının dizlərinə qapanıb qucaqlamağa başlayır. Musiqi dayanmışdır.)*

**Ülviyyə** - *(Özünün ağlamasına baxmayaraq)* Ağlama, oğlum!

**Xosrov** - *(Başını qaldırır.)* Ana, mən ömrümdə bircə kərə ağlamışam. Özü də adi bir şeyin üstündə, doya-doya, qana-qana ağlamışam. Bilmirəm, yadındadımı? Bundan iyirmi beş il əvvəl. Sən o faciədən təzəcə çıxmış gənc dul bir qadın idin. Mən hərbi məktəbdə oxuyurdum. Həftədə bir dəfə evə buraxılırdıq. Sən məktəbə gəldin. Məni görməyə icazə versinlər deyə qapıda bir zabitlə danışırdın. Mən isə bağçaya çıxmış, bir ağacın arxasından sizi uzaqdan izləyirdim. Sən mənim orada olduğumu bilmirdin. Yağış yağırdı. Səni

uzaqdan zərif bir çadraya bürünmüş xəyalınla görürdüm. Zabit sənə işarə ilə nəsə deyirdi. Çox güman ki, görüşməyimizin mümkün olmadığını deyirdi. Sən də qayıtdın. Yağışın altında, evimizdən saatlarla uzaq o yerdən, yalqız, boynubükük uzaqlaşıb getdin. Kim bilir, hara getdin? Gecəni harada keçirdin. Sən getdikdən sonra, mən də gizləndiyim ağaca başımı dayadım. Bəlkə bir saat, bəlkə də bir ömür boyu ağladım.

(*Xosrov dizləri yerdə, üzünü meydana çevirir. Qısıq və kəskin bir tonla, dalğın baxışla davam edir.*)

**Xosrov** - Səni hələ də, gecənin qaranlığında, yağışın altında zərif və hüzünlü xəyalınla məktəbin həyətində dayanmış görürəm.

*(Xosrov üzü meydana doğru, ayağa qalxır. Ülviyyə gözlərini oğlundan ayırmır. Xosrov buxarıya tərəf çevrilir. Addımlayır. Kitab şkafının qabağında dayanır. Ülviyyə başını qabağa sallayır. Turqutla Mənsur əvvəlki vəziyyətdə Xosrova baxırlar. Xosrov şkafdan qara cildli bir kitab çıxardır. Kitabı vərəqləyir. Birdən kitabda bir səhifə tapır. Tapdığı səhifənin içərisinə barmaqlarını keçirib kitabı sağ əlinə alır. Çevrilir. Bu vaxt  Mənsurla Turqutu görür.)*

**Xosrov** - *(Mənsurla Turquta)* Vay! Siz də buradasınız? Deməli, mən artıq dəli olmuşam. İnsanlar məndən gizlənir. Gizlincə sözlərimə qulaq asırlar.

**Mənsur** - Canım Xosrovum! Sənə yaxın olan insanlardan biri kimi mən də əzab çəkirəm. Birdən-birə gözünə görünmək istəmədim.

**Xosrov** - Kaş mən də, gözəgörünməz olaydım. Kaş mən də, öz-özümdən gizlənə biləydim. Büzülmə qapının yanında Mənsur! Çıx ortalığa!

(*Mənsur çaşqınlıqla yeriyir. Turqut yerində qalır. Mənsur, buxarının yanındakı, sol küncə baxan kresloya əyləşir. Xosrov anasına tərəf çevrilir. Əlində kitab.*)

**Xosrov** - Ana, gəl yanıma!

*(Ülviyyə ayağa qalxır. Xosrova yaxınlaşır. Xosrov kitabı nişanladığı yerdən açır. Barmağıyla göstərir.)*

**Xosrov** - Ana! Bu karandaşla yazılmış qeydlər atamın xəttidir?

**Ülviyyə** - Bəlkə də.

**Xosrov** - (*Cibindən kağız parçasını çıxardıb kitabın açıq səhifəsinə qoyub xəttləri tutuşdurur.)* Bu atamın vaxtıyla sənə yazdığı məktubdur! Xəttin ikisi də eynidir, hə?

**Ülviyyə** - *(Hıçqıraraq)* Eynidir, Xosrov.

**Xosrov** - Kitabdakı bu qeydi əvvəllər görmüşdün?

**Ülviyyə** - Xeyr.

**Xosrov** - Gör bir nə deyir: Axmaq yazıçı! "Ölümə əlac ölümdür".

(*Ülviyyə diksinərək Xosrovdan bir-iki addım uzaqlaşır. Xosrov sakitcə kitabı örtür.)*

**Xosrov** - Axmaq yazıçı! Ölümə əlac ölüm imiş. Atamın bu üç kəliməsini vaxtında görsəydim, heç yazardım əsərimi? Heç səndən soruşardım, atam özünü niyə asıb?

**Ülviyyə** - Atan da hey ölüm haqqında düşünərdi. Ona görə də öldü.

**Xosrov** - Ona görə ölmədi. Deyə bilmirsiniz. Onun bütün əlaclarını kəsdilər. Dərman şüşələrini boşaltdılar. Ona başqa çarə buraxmadılar.

**Ülviyyə** - *(Qışqıraraq)* Mən elədim, Xosrov?

**Xosrov** - Allah bilir, sən yoxsa başqası, fərqiniz nədir bir-birinizdən?

**Ülviyyə** - Xosrov! Yenə də anan olduğumu unudursan. Yenə dəyişirsən.

**Xosrov** - Kağız yanar, külə dönər. Dəyişər. Artıq keçmiş olsun! Bir də əvvəlki vəziyyətinə qayıtmaz. Mən də bir dəfə dəyişdim. Artıq keçmiş olsun!

**Mənsur** - (*Dəhşətlə Xosrovu dinlədiyi kreslodan atılır.)* Xosrov! Yaxınlarına bu qədər şübhə ilə yanaşma!

**Xosrov** - (*Ortalığa tərəf gedir. Öz-özünə danışırmış kimi. Bircə-bircə*) Şübhə dediniz? Bu mənə göylərin cəzasıdır. Bir anlıq elə bildim gözlərimə əqrəb neştəri kimi sivri bir mil soxuldu. Bir damla zəhər axıdıldı. Bir də gördüm ki, heç nə əvvəlki kimi deyil. Bir də gördüm ki, keçmişə aid nə varsa yanlış imiş. Ana, ata, dost, qadın haqqında bildiyim hər şey yanlış imiş. Su üzünə çıxan leş kimi bambaşqa bir dünya, öz iqlimi, öz insanları ilə dünyamın yerini tutdu. Bir də gördüm ki hər şey, təzədən müayinəyə, təhqiqə möhtacdır! Həqiqət budur? Nə bilim? Soğan kimi üst-üstə köynək geyinmiş saysız-hesabsız dünyalar görürəm. Hansı doğrudur? Nə bilim? Təkcə bu doğrudur! Mənə bu dünyanı, dəlilər dünyasını düzgün, əmin-amanlıq içində göstərən cəza, göylərin cəzası. *(Mənsura tərəf çevrilir.)* Hələ bir bax! Bir əncir budağından özünü asan atanın oğlu, otuz il sonra, atam niyə özünü asdı əhvalatına tuş gəlir.

**Ülviyyə** - *(Arxasınca hayqıraraq)* Xosrov! Çıxart atanı yadından. Atan gəlməyəcək, o yoxdu artıq!

**Xosrov** - (*Ülviyyəyə tərəf çevrilir.)* Ana, hər dəfə səni görəndə, təzədən atamı xatırlayacağam. Belədirsə gözümə görünmə!

(*Ülviyyə soldakı qapıdan sürətlə çıxır. Çıxarkən qapının yanındakı Turqutu da özüylə aparır. Bir-birinin arxasınca ikisi də qapıdan çıxırlar. Xosrov yazı stoluna yaxınlaşır. Kitabı stolun üstünə qoyur. Stolun qabağına keçir, arxadan əllərini yazı stoluna dayayıb Mənsura baxır. Mənsur nəyə uğradığını başa düşmədən həminki vəziyyətdə, kreslonun*

*yanındadır. Müsiqi yenə də canlanır. Bir-bir dillərin üzərinə toxunulurmuş kimi qırıq-qırıq səslər eşidilir. Bütöv bir kompazisiya təşkil etməyən bu səslər, söhbət əsnasında ümumiyyətlə eşidilmir, yalnız sözlərin axırında və ya fasilələrdə kəsik su şırıltısı kimi* duyulur.)

**Xosrov** - Mənsur!

**Mənsur** - Bəli!

**Xosrov** - Sən mənim əsərimi oynamısan da? "Ölüm qorxusu" pyesini!

**Mənsur** - Hə, Xosrov!

**Xosrov** - Onu oynayarkən o hissləri yaşadınmı?

**Mənsur** - Elə yaşadım, hətta səhnədə olduğumu belə unutdum.

**Xosrov** - Halbuki pyesimin qəhrəmanı özünü asır. Atasının özünü asdığı ağacdan asır. Madam yaşadın, indi qarşımda nə gəzirsən?

*(Mənsur birdən barmağını ağzına aparıb dişləyir. Sonra başını əyir. Cavab vermir.)*

**Xosrov** - Mənsur! Özüm də bilirəm ki, dəliyəm. Əhəmiyyət vermə sözlərimə!

**Mənsur** - *(O dəqiqə başını qaldıraraq)* Xosrov! Sən heç vaxt dəli olmamısan. Olmayacaqsan da.

**Xosrov** - Dəli olmasaydım, heç başıma gələnlərin günahını anamda görərdim? Günah məndədir.

**Mənsur** - Niyə səndə olur Xosrov?

**Xosrov** - Aa..! Bilmirsən?

**Mənsur** - Bilmirəm.

**Xosrov** - *(Çılğınlıqla. Özünəməxsus işarələrlə)* Çünki bir adam yaratmağa qalxdım. Bir adam yaratmaq. *(Müsiqi cümlələri tamamlayır. Xosrov çıldırır)* Bir adam yaratmaq... Ona bir baş, bir cüt göz, bir burun, bir ağız uydurmaq. Onun üçün bir beyin yaratmaq və köksünün içərisinə bir ürək yerləş-

dirmək. Saat kimi işləyib qanını vücudunda dövr etdirən bir ürək. Bir ürək, başa düşürsən? Guya duyan, dərdinə-sevincinə məkan olan yer oradır. Bir ürək. Qurtardımı? Heç qurtararmı? Bu adama bir də alın yazısı cızmaq lazımdır. Bu adam yaşayacaq, gəzəcək, başına nələrsə gələcək. Məsələn, bu adamın bir atası olacaq. O atanı bir gün əncir ağacından asılmış vəziyyətdə tapacaqlar. Sonra o da... Eeee? (*Hayqırır*) Mən Allaham, bəyəm?

**Mənsur** - (*Sağ əli kresloda sol əlini Xosrova uzadaraq*) Xosrov, əl çək artıq bunlardan!

**Xosrov** - Əl çəkə bilmərəm, Mənsur! Hələ ardı var. Bu dünyada hər şey, ən səfil nəbatdan ən uzaq ulduza, ən qüdrətli insana qədər bütün mövcudat, şüurlu və ya şüursuz şəkildə Allahdan gələn cazibənin qasırğası içindədir. Payız fəslində yarpaqlar necə rüzgara qarışıb uçuşurlarsa, biz də Allaha tərəf beləcə gedirik.

**Mənsur** - (*İki əlini də kreslonun arxalığına dayayaraq*) Xosrov!

**Xosrov** - Sənə dedim axı, mən dəliyəm. Əl çək məndən!

**Mənsur** - (*Müdhiş bir heyrətlə əlini çənəsinə qoyub özünü kresloya buraxır.*) Yaxşı, əl çəkdim.

**Xosrov** - *(Mənsura bir addım yaxınlaşır. Çılğınlıqla.)* Biz, bu dünyada olan hər şey, Allah yolunun dəlisiyik. O, Allah kamallıların kamalı. O nöqtəyə elə bağlıyıq ki, bilərəkdən və ya bilməyərəkdən Ondan Onu istəyirik. Bu yolu açan da, bu atəşi alovlandıran da Odur, biz deyilik. Biz yalnız Allahın istədiyi qədər onun kamalına bürünə bilərik. Fəqət Allah ola bilərikmi?

*(Mənsur, heyrətlə əlini üzünə tutur.)*

**Xosrov** - Allah qayədir. Hər yaradılan, qayə ola bilərmi? Yollar uzun, yollar sonsuz, yollar açıqdır... Bilərək və ya bilməyərək Allaha doğru yol almaq vardır, varmaq yoxdur. Vara bildiyiniz heç bir üfüq Allah deyildir. Allah

sonsuzluqdur. Heç sonsuzluqla yarışmaq olar? Heç ədədlər – milyonlar, milyardlar da sonsuzluqla yarışa bilər?

**Mənsur** - (*Yerindən qalxır*) Diqqətli ol, Xosrov!

**Xosrov** - Mən yox, sən diqqətli ol!

**Mənsur** - Fənalaşmağından qorxuram.

**Xosrov** - Artıq heç nədən qorxma! Az qaldı, rahatlanacağam.

*(Mənsur cavab vermir. Əzginləşir. Yenə kresloya əyləşir. Xosrovun nə deyəcəyini gözləyir. )*

**Xosrov** - Bir adam yaratmağa qalxdım. Ona bir sifət və tale tapmaq lazım idi.. Haradan tapaydım? Özümü tapdım. Sifətsiz və talesiz adam şahə qalxdı. Zəncirlərini qırdı. Əlimdən qaçdı. Mən də insanam. Məni arxadan vurdu. Sifətsiz və talesiz adam mənim cildimə girdi. Qəlibimə girdi. Qədərimin içinə yatdı. *(Bir anlıq sükut)* Mənim də qədərim belə imiş.

(*Mənsur oturduğu yerdə, çılğınlıqla saçlarından yapışır. Bu vəziyyətdə də ayağa qalxır.*)

**Xosrov** - Mən dırmanmaq istədiyim qayadan düşdüm. Deməl, çox irəliyə getmişəm. Qadağan olunmuş ölkələrə girmişəm. Gözübağlı yeriyərkən əqrəb yuvasına basırmış kimi bəzi sirlərin üstünə basmışam. Onlar qeyb aləminin gözətçiləridir. Ürküb mənə toxundular. *(Coşaraq)* Yaradıcı nə imiş, yaratmağa qalxdığım an anladım. Yalançı illah, əsl Allahı tanıdı. Kölgə artist öz sənətkarını tanıdı. Mən indi, bu an tanıdım Allahı. Elminin, sənətinin təntənəsində ağlımı itirirəm. Beynim bir cəbhə anbarı kimi partlayır, kül olur. Gözlə, az qaldı.

**Mənsur** - Xosrov sus! Dəli olacağam.

**Xosrov** - *(Mənsurun üstünə yeriyirmiş kimi)* Dayan. Sənə ikimizin də əsərini göstərəcəyəm! *(İldırım kimi geri qayıdır.*

*Stolun siyirtməsini açır. Qalın cildli bir kitab çıxardır. Mənsura uzadır.)* Bax, bu mənim əsərimdir! "Ölüm qorxusu". Bu nədir? Bir neçə kəlimə, vücudsuz xəyallar, əsilsiz rəvayətlər... *(Ortalıqda, dimdik dayanır. Kitab əlindədir.)* Yaxşı bax! Bu da onun əsəridir. Mən! Əlimdəki kitabla, alova bənzəyən mənzərəmlə, bu çılpaq həqiqətimlə mən!

**Mənsur** - *(Özündən gedərək, hayqırır.)* Xosrov, kəs səsini!

**Xosrov** - Al, bu da sənin üçün yaratmaq!...

(*Xosrov axırıncı sözləri deyərkən sağ əliylə kitabı havaya qaldırır. Ağır bir daş atırmış kimi gərilir. Var qüvvəsiylə kitabı ortadakı pəncərəyə tərəf firladır. Pəncərə cingiltiylə qırılır. Ani bir rüzgar uğultusu. Pərdələr uçuşur. Mənsur əliylə başını tutur. Xosrovun qarşısında iki qat əyilmiş vəziyyətdə. Xosrov cingiltidən sonra Mənsura tərəf çevrilir. Avazı çıxdığı qədər qışqırır.*)

**Xosrov** - "Ölüm qorxusu" pyesimin baş aktyoru! Pyesimi sən oynamadın. Oynaya bilmədin. Özüm oynayıram. Necədir, yaxşı oynayıram?

*(Səs-küyü eşidən Ülviyyə qaça-qaça soldakı qapıdan içəri girir. Turqut da arxasınca. Musiqi kəsilmişdir.)*

## ONUNCU SƏHNƏ

Ülviyyə - Turqut – Əvvəlkilər

*(Ülviyyə yazı stoluna tərəf qaçır. Bu vaxt stolun üstündəki kitaba toxunur. Kitab yerə düşür. Partıltını eşidən Xosrov arxaya çevrilir.)*

**Xosrov** - *(Gələnləri görər-görməz)* Gəlin, içəri gəlin! Tamaşa var! Yazdığım pyesi oynayıram. Gəlin!

(*Ülviyyə qorxusundan qollarını iki yana açır. Dal-dala gedir. Turqut sola, yazı stolunun arxasına qaçır. Ülviyyə divara dəyir. Sağ tərəfə uzatdığı sağ əliylə divardakı üstü örtülmüş lövhədən yapışır. Lövhənin qara örtüyü yerə düşür. Səlmanın böyüdülmüş şəkli görünür. Xosrov şəkli görən kimi gözləri hədəqədən çıxacaqmış kimi böyüyür və şəklə zillənir. Artıq heç kəsi görmür. Ülviyyə qorxa-qorxa Xosrovun qabağından keçir. Divana dəyir. Turqut gözləri Xosrovda yavaşca yazı stolunun yanındakı skamyaya oturur. Mənsur yanındakı kresloya çöküb sağ qolunun üstünə yıxılır.*)

**Xosrov** - Səlma, öldürdüyüm qız! Mən səni unutmuşdum. *(Anasına baxır.)* Mən bu şəklin burda olduğunu unutmuşdum. Mənə aid əşyaları gizlətməyi necə də bacarırsınız! Necə də bacarırsınız! *(Kresloda yaralı kimi büzüşən Mənsura)* Mənsur! Qalx ayağa!

*(Mənsur ayağa qalxır.)*

**Xosrov** - Mənsur, bu qızı məndən istəmişdin. Onu sənə verəcəkdim. İndi nə edəcəyəm?

**Mənsur** - Xosrov, artıq bağla, ört, basdır keçmişi!

**Xosrov** - Əgər keçmiş hər şeydirsə, hər şeyi necə basdırım?

*(Hamı pərişan. Xosrovun dəliliyi hər an bir az da artır. Dəli ədasıyla şəklə baxır.)*

**Xosrov** - Mənsur, söylə qardaşım! Sevirdin onu?

*(Mənsur hamıya arxasını çevirir. Ülviyyə özünü divana salır. Turqut başını yazı stoluna çırpırmış kimi dayanır. Xosrov hələ də gözlərini şəklə zilləyir.)*

**Xosrov** - İcazə verin, onu bundan sonra mən sevim! Qırxı haqlamış yaşımla, bu dəlixanalıq halımla, bir ata kimi yox, bir kişi kimi sevim Səlmanı. İcazə verərsiniz? Bəyəm bir ölünü sevə bilmərəm? Günahdı? Ayıbdı? Dəlicəsinə sevmək deyirlər e. Dəlicəsinə sevim. Görürsünüz də, artıq dəli oluram.

*(Xosrov gözləri şəkildə susur. Musiqi matəmli ahənglə çırpınır. Saniyələr keçir.)*

**Xosrov** - *(Çox həzin və yavaş)* Bir dəli, dəlixanada bir taxta parçası tapır e. Onu sevgilisi zənn edir. Dizlərinin üstündə yatırdır. Ona hədiyyələr verir. Paltarlar geyindirir. Onunla birlikdə sonsuz bir həyat sürür. Qoyun, mən də Səlmanı yanıma gətirim. Səlma yanımda qalsın. Təzə gəlin kimi zərif vücudunu qollarımın arasına alım. Qiyamət gününə qədər onunla qalım.

*(Mənsur üzünü Ülviyyə ilə Turquta tərəf döndərmiş, onlar isə yerlərindən dikəlib dəhşətlə Xosrova baxırlar.)*

**Xosrov** - *(Şəklə gözlərini zilləyərək.)* Səlma, gözlə məni dəlilik cənnətində! Gəlirəm. Sənsən mənim qadınım! Bu günə qədər hər rastlaşdığım qadın mənə səni xatırlatdı. Sənin

ehtiyacını hiss etdirdi. Səni indi tapdım! Əlimlə ölərək məni özünə bağladın!

*(Xosrov susur. Ülviyyə, Mənsur, Turqut heykəl kimi quruyub qalıblar. Xosrov hey şəklə baxır, dörd-beş addım geri çəkilir. Birdən-birə bir şeyə toxunmuş kimi yerində dayanır. Gözlərini şəkildən çəkir. Ülviyyəni, Turqutu və Mənsuru bir-bir süzür.)*

**Xosrov** - Artıq heç birinizi görmək istəmirəm. Gedirəm.
**Ülviyyə** - *(Avaz-avaz)* Xosrov! Hara gedirsən?
**Xosrov** - Əsla, arxamca gəlməyin.

*(Sağdakı böyük qapıya tərəf gedir. Otaqdan çıxır. Mənsurla Ülviyyə ürək parçalayıcı baxışlarla göz-gözə gəlirlər. Turqut da yazı stolunun arxasında Ülviyyəyə baxır. Müsiqi kəsilmişdir.)*

**Ülviyyə** - *(Mənsura)* Mənsur bəy, oğlumun sözlərindən incimədiniz ki?
**Mənsur** - *(Mudhiş bir həyəcanla)* Nə danışırsınız, xanım? Mən əslində sizin bu sözlərinizdən inciyə bilərəm. Xosrovu danışdıran Səlmanın ruhudur. Səlmanın dəftərindəki o sətirləri xatırlayın! "Neçə yaşında olmağından asılı olmayaraq, mənim üçün yer üzündə yalnız bir kişi var. O da odur!" Mən də Səlmanın fikriylə şərikəm.

*(Ülviyyə gözlərini yumur. Turqut yerindən qalxıb Ülviyyənin qabağında dayanır.)*

**Turqut** - *(Ülviyyəyə)* Xanım! Sizə hər şeyi başa saldım. Bir saniyə də itirsək məhv olarıq.
**Ülviyyə** - *(Ayağa qalxır. Yıxılacaqmış kimi səndələyir.)* Mənsur bəy!

*(Mənsur yerindən atılıb Ülviyyəni tutur, yıxılmasına mane olur.)*

**Mənsur** - Nə olub, xanım?

*(Ülviyyə bayılmamaq üçün özünə gəlməyə çalışır. Cavab vermir.)*

**Turqut** - *(Mənsura)* Başa salmağa vaxt yoxdur, Mənsur bəy! Dərhal zorla olsa belə, Xosrov bəyi burdan götürüb qaçırmalıyıq.

**Mənsur** - Niyə?

*(Ülviyyə ayaq üstündə dayana bilmir. Divana çökür. Turqut Ülviyyəyə kömək edir. Mənsur yerindəcə quruyub qalır. Sağ qapıdan dövlət xəstəxanası həkimi, arxasınca həbsxana nəzarətçisi, daha sonra iki dövlət məmuru, ən arxada isə Osman girir.)*

## ON BİRİNCİ SƏHNƏ

Dövlət xəstəxanası həkimi - Həbsxana nəzarətçisi - Birinci və ikinci mülki məmurlar - Osman - Əvvəlkilər

*(Dövət xəstəxanası həkimi Ülviyyəyə yaxınlaşır. Nəzarətçi, məmurlar və Osman qapının ağzında dayanırlar. Ülviyə ilə Mənsur heyrətdən donaraq gələnlərə baxırlar. Turqut qəzəblə atılır.)*

**Dövlət xəstəxanası həkimi** - Yazıçı Xosrov bəyin anası sizsiniz**?**

**Ülviyyə** - Mənəm, bəs siz kimsiniz?

**Dövlət xəstəxanası həkimi** - Mən dövlət xəstəxanası həkimiyəm.

**Ülviyyə** - *(Həyəcanla ayağa qalxır.)* Nə istəyirsiniz?

**Dövlət xəstəxanası həkimi** - Məni bağışlayın! Oğlunuzun sizin yanınızda, bu cəmiyyətdə yaşaması məsləhət deyil. Onu aparmağa məcburuq!

**Turqut** - (*Dövlət xəstəxanası həkiminə)* Cənab! Mən yalnız onu bilirəm ki, sizə bunu xəbər verən, rəsmi müraciət edənlər bir-iki namussuzdur. Xosrov bəyin heç nəyi yoxdur. İcazə verin, izah edim!

**Dövlət xəstəxanası həkimi** - *(Turquta)* Xosrov bəyi müayinə edəcəyik. Xəstə olmasa, buraxacağıq.

**Mənsur** - (*Dövlət xəstəxanası həkiminə*) Heç bilirsiniz, nə edirsiniz? Ölkənin ən məşhur sənətkarını adi bir dəli kimi necə götürüb apara bilərsiniz?

**Dövlət xəstəxanası həkimi** - Mən vəzifəmi icra edirəm. Xosrov bəy haqqında raportu ölkənin ən məşhur mütəxəssislərindən biri verib.

**Mənsur** - (*Çılğınlıqla)* Əsl namussuz da elə odur!

**Dövlət xəstəxanası həkimi** - (*Birinci mülki məmura)* Məmur bəy! Nevzad bəylə Şərəf bəyi aşağıdan çağırın. Gəlsinlər bu sözün cavabını versinlər.

**Mənsur** - Aman Ya Rəbbi! Bura da gəliblər?

**Birinci mülki məmur** - (*Dövlət xəstəxanası həkiminə*) Çağırım, cənab.

*(Birinci mülki məmur çıxır. Dövlət xəstəxanası həkimi Mənsura tərəf çevrilir.)*

**Dövlət xəstəxanası həkimi** - *(Mənsura)* Ümidinizi itirməyin! Əgər onun xəstəliyi haqqındakı xəbər yalandırsa, bir-iki günə bəlli olacaq. Məlumat çox dəhşətli idi. Özünü asmaq, anasını öldürmək, ona-buna hücum etmək ehtimalı varmış. Onu nəzarətə götürmək mənim vəzifə borcumdur. Məni üzürlü bilin!

**Turqut** - *(Dövlət xəstəxanası həkimi)* Sizi təbii ki üzürlü bilirik. Amma siz həqiqəti bilsəniz, hiddətdən ürəyiniz partlayar.

**Dövlət xəstəxanası həkimi** - Narahat olmayın! Hər şey bəlli olacaq.

**Mənsur** - *(Başını tutaraq)* Allahım! Qurbanlarının evinə gəlməyə belə üzləri varmış.

*(Sağdakı böyük qapıdan Xosrov sakitliklə, vahiməli görkəmdə içəri girir.)*

## ON İKİNCİ SƏHNƏ

Xosrov – Əvvəlkilər

(*Xosrov qapının yanındakı nəzarətçi, ikinci mülki məmur və Osmanın yanından keçir, dövlət xəstəxanası həkiminə tərəf gedir. Həkim, Ülviyyənin qorxudolu hərəkətlərindən kiminsə gəldiyini anlayır. Sürətlə arxaya çevrilir. Həyəcan və təəssüflə Xosrova baxır.*)

**Xosrov** - *(Dövlət xəstəxanası həkiminə)* Kim olduğunuzu soruşa bilərəm?

**Dövlət xəstəxanası həkimi** - Dövlət xəstəxanası həkimi!

**Xosrov** - Məni dəlixanaya aparmağa gəlmisiniz?

*(Dövlət xəstəxanası həkimi başını aşağı əyir. Cavab vermir. Ülviyyə üzüqoylu divana yıxılır. Mənsurla Turqut yumruqlarını sıxıb atılmaq istəyir. Xosrov onları görür.)*

**Xosrov** - *(Mənsurla Turquta)* Yox! Təlaşa ehtiyac yoxdur! Hər şey qaydasındadır.

*(Sağdakı açıq qapıdan bir-birinin ardınca Nevzadla Şərəf içəri girirlər. Çox irəli getmədən qapının yanında dayanırlar.)*

## ON ÜÇÜNCÜ SƏHNƏ

Nevzad – Şərəf – Əvvəlkilər

*(Xosrov, arxada durduğu üçün gələnləri görmür. Nevzadla Şərəf qaşları çatılmış, duyğusuz büt kimi dayanıb gözləyirlər.)*

**Mənsur** - *(Qəzəb və həyəcandan boğulmuş. Gələnlərdən xəbəri yoxdur.)* Xosrov! Qoy sənə kömək edim.

**Xosrov** - İstəmirəm.

*(Xosrov arxaya dönən kimi hazır mövqe alan Nevzadla Şərəfi görür. Yerində quruyub qalır. Mənsurla Turqut da onları görürlər. Dövlət xəstəxanası həkimi çaşqın nəzərlərlə həqiqəti araşdırır.)*

**Xosrov** - *(Əlini Nevzadla Şərəfə uzadaraq dövlət xəstəxanası həkiminə)* Bəs bunlar kimdir?

**Dövlət xəstəxanası həkimi** - Biri məhşur nervpataloq, o biri də qəzet naşiri.

**Xosrov** - Niyə gəliblər?

**Dövlət xəstəxanası həkimi** – Biri şəxsən sizə nəzarət etmək üçün!

**Xosrov** - O biri də mənim haqqımda qəzetində yazmaq üçün!

*(Dövlət xəstəxanası həkimi, mütəssir şəkildə vəziyyəti müəyyənləşdirməyə çalışır. Hamı yerində quruyub qalıb.)*

**Dövlət xəstəxanası həkimi** - *(Xosrova)* Bəy! Görürəm heç nəyiniz yoxdur. Qısa bir müayinədən sonra hər şey həll olunacaq!

**Xosrov** - Məni hara aparacaqsınız?

**Dövlət xəstəxanası həkimi** - Nəzarətxanaya.

**Xosrov** - Xeyr! Mən dəlixanaya getmək istəyirəm.

**Dövlət xəstəxanası həkimi** - Xosrov bəy! Təsir altına düşməyin! Çalışın ki, sağlam olduğunuzu sübuta yetirəsiniz. Heç nəyiniz yoxdur.

**Xosrov** - Var, var. Artıq bu adamların gəzdiyi havada mən gəzə bilmərəm.

**Mənsur** - *(Turqutun qollarından çıxıb Xosrovu qucaqlayır.)* Xosrov! Səni buraxmayacağam.

**Xosrov** - Mən artıq özümü buraxmışam, Mənsur! Sənə nə düşüb?

**Mənsur** - Xosrov, anana və dostlarına yazığın gəlsin!

**Xosrov** - *(Dövlət xəstəxanası həkiminə)* Cənab! Görünüşünüzdən bəlli olur ki, siz əsl insan övladısınız. Bəlkə də qəlbinizdə kiçik bir şübhə var idi. Bu adam, bəlkə heç dəli deyil deyə kiçik bir şübhə. Bax o şübhəyə xitab edərək deyirəm ki, mən Nevzad bəyin xəstəxanasına aparılmamaq şərtiylə öz razılığımla sizinlə gedirəm. Söz verin mənə! Məni dövlət xəstəxanasına aparacaqsınız, hə?

**Dövlət xəstəxanası həkimi** - *(Çox təsirlənərək)* Söz verirəm ki, sizi dövlət xəstəxanasına aparacağam.

**Xosrov** - *(Əliylə Nevzadla Şərəfi göstərərək)* Bu adamlara vəzifələrinin bitdiyini söyləyin! Çıxarın evimdən!

*(Dövlət xəstəxanası həkimi, Nevzadla Şərəfə tərəf gedir. Onlar heç nə olmyıbmış kimi hələ də ayaq üstündə dimdik dayanırlar. Həkim onların yanına gedir. Yavaşca qollarına girərək çölə çıxardır. Xosrov yarı məcnun vəziyyətdə, divanda dikəlmiş anasına tərəf gedir. Mənsur, Turqutun çiyninə söykənib hıçqırır. Sağdakı qapıdan birinci mülki məmur içəri girir.)*

## ON DÖRDÜNCÜ SƏHNƏ

Birinci mülki məmur – Əvvəlkilər

*(Birinci mülki məmur, ikincisinin qulağına nəsə pıçıldayır. Xosrov anasına yaxınlaşır.)*

**Xosrov** - Allah amanında, ana!
**Ülviyyə** - Xosrov! Sən getsən, özümü öldürərəm.
**Xosrov** - *(Həzin ahənglə)* Ana! Qoy, bu cəmiyyətdə yaşamayım. Bir qolumda sən, birində Səlma, dəlixanada ölmək istəyirəm.

(*Xosrov çevrilib sağdakı qapıya tərəf bir-iki addım atır. Dayanır, qapıdakı birinci və ikinci mülki məmurlara baxır.*)

**Xosrov** - *(Məmurlara)* Tutun qollarımdan, məmur bəylər!

*(Məmurlar Xosrovun hər iki yanında dayanırlar. Xosrov ağır-ağır qapıya tərəf gedir.)*

**Ülviyyə** - *(Başını qaldıraraq fəryad qoparır.)* Övladım! Getmə! Getmə!
**Xosrov** - *(Dayanır, başını arxaya çevirir.)* Neyləyim ana! Kəsdiniz əncir ağacını!

*(Ülviyyə başını divara çırpıb arxaya yıxılarkən Mənsur dəli kimi gözlərini açır. Turqut əlləriylə üzünü örtür. Xosrov sanki gülümsəyir.)*

**PƏRDƏ**

*8 iyul 1937-ci il.... Gecə yarısı... Cümə axşamı...*
*63 nömrəli mədən ocağı... Zonguldağ...*

# Əsərin yazılması və ilk tamaşası haqqında

Möhsünü səhnədə bir neçə dəfə seyr eləmiş və bədənimdə ilan gəzirmiş kimi ürpərtilər hiss etmişdim. Bu aktyor xüsusi ilə çılğın rollarda, qeyri-adi, bənzəri görülməmiş bir sənətkar idi.

Onun bir ifadəsi var: “Küstah sənət” (Qaba sənət)... Bu sözü heç unutmuram.

1935-ci il idi... Bir söhbət əsnasında məndən soruşmuşdu:

- Niyə pyes yazmırsan?
- Nazimin “Kəllə”si var da...

Deyə cavab verdim.

İsrar etdi:

- O başqa... Sən niyə yazmırsan?
- Yazsam oynayarsan?

Cavab verdi:

- Bəyənsəm, oynayaram!...

Həmin vaxt teatr mövsümünün açılmasına 20 gün qalmışdı. Evdən qəti çıxmadım və 7 günün içində əsəri yazıb ona təqdim etdim.

Budur, Möhsün Ərtoğrulun təşviqiylə ortaya çıxan ilk dram əsərim, “Toxum”...

“Toxum” tutmadı. Möhsün və bütün Babiali əhli heyran qalsa da, tamaşaçı bəyənmədi. Əsəri nəzəri baxımdan “şah əsər” kimi qəbul edən teatr tənqidçisi Səlami İzzət, tamaşanın uğurlu olmadığını görüb, elə orada əyilib qulağıma pıçıldadı:

- Məhv elədin yazığı!.. Heyf Möhsündən!...

Bu sözlər ciyərimə qədər işlədi. Kütlənin nə demək olduğunu və əsasən nəyə cumduğunu yaxşı bilsəm də, günahı heç kimin üstünə yıxmayıb tamamilə öz boynuma götürdüm.

Əlvida Fildişi qalası!... Bal gölündə ölüb gedən pətəyinin bir gözündə qıvrılıb qalan bir arı olmaq məncə artıq bir səfalət idi... Beləliklə, o "nur"dan üstümə ilk zərrə düşən kimi vardığım ilk qənaət bu olmuşdur. Nə qərarsızlıqla buludların üstündə gəzinmək, nə də yerdə bataqlıqlarda sürünmək... Yerlə göy arasında körpü qurmaq...

"Toxum" bu mübarizəmin yaxşı müəyyənləşdirə bilmədiyim ilk nübarı oldu. Onun üzüntüsü ürəyimə elə işlədi ki, məndə dəhşətli bir intiqam hissi oyandı.

Qisasımı alıb-almamağım 1937-ci ildə məlum olacaqdı.

***

1935-ci ildən başlayaraq 1937-ci ilədək bir heyət ilə Zonquldağın 63 nömrəli kömür mədəninə təftişə çıxmışdım.

"Toxum"un məni necə üzdüyünü, həm tamaşa, həm də Möhsün məsələsində qəlbimdə necə intiqam hissi yaratdığını demişdim axı...

Yeni bir pyes yazmağı qərara almışdım. Tamaşaçını həm fiziki baxımdan əzaba boğacaq, həm də metafizik hörgü içində hərəkət şərtlərinin ən dinamikliyi ilə yadda qalan bir əsər... Elə bir pyes ki, daxili böhranlarımın, mücərrəd planında həm ən çılğın düşüncələrin zirvəsinə yüksələcək, həm də refleks və səbəblərin ən səlisi ilə iti bir məntiq və görünməmiş bir intriqa dəyərini özündə toplayacaq... Qısası, həm ideya, həm də məzmun baxımından bir-birini tamamlayacaq, elit zümrəylə aşağı təbəqəni qucaqlayacaq bir pyes...

Onu Zonquldağda yazmağa başladım.

Bəli; Burhan Torpağın ifadəsiylə desək, ona toxunanan əli belə alovlandıracaq bir pyes... Bu dəfə gözləri də, qulaqları da yandırıb-yaxacaq bir pyes... Aşacağım əngəl budur bu pyesdə, bütün Babiali əhli, yazıçı, aktyor, nevrpataloq öz əxlaqı, bir sözlə bütün varlığı ilə billur kimi saflaşmalıdır..

Hekayəti də, öz başıma gələnlərdir.

Müddəası, insan idrakının üfüq nöqtəsindədir... Bu idrakın üfüq nöqtəsindəki həqiqət və Allah...

Budur, bu da "Bir adam yaratmaq"... 1937-38-ci ilin teatr mövsümündə Şəhər Teatrında səhnəyə qoyulan, şəxsən Möhsün Ərtoğrulun ehtirasla oynadığı, keçirdiyim mənəvi əzabların səhnə dastanı olan "Bir adam yaratmaq"...

Zonquldağda olarkən bir təpə üstündə şam ağaclarıyla əhatə olunmuş gözəl bir mülk, öz xidmətçisi, avtomobili ilə əmrimizdə idi... Ən mühümü isə at... İki ingilis atı... Əhval-ruhiyyəm qeyri-adi deyiləcək qədər əla idi. Heç vaxt özümü belə hiss etməmişdim...

Təftiş heyətinin rəisi mənə deyirdi:

- Bu rahat evdə özün üçün otur, yavaş-yavaş əsərini yaz!.. Nəsə lazım olsa, xidmətçiyə deyərsən.

Budur, artıq həmin mülkdə, zaldakı böyük stolun arxasındayam... Ara-bir başımı qaldırıb pəncərədən baxanda isə gur meşəlik və şam ağaclarıyla bəzənmiş təpələrdən ibarət qeyri-adi, gözəl bir təbiət mənzərə görürəm...

Yalnız əsərin hərarəti ilə yaşayırdım. Pyes yazmağa elə aludə olmuşdum ki, vilayət kübarlarının heç bir dəvətini qəbul etmir, şəfəq vaxtına qədər çalışırdım...

***

Bir gün pyesin elə bir zirvəsinə çatdım ki, 1934-cü illərdə Bəylərbəyindəki bağ evində böyük ruhi böhran keçirdiyim həmin vəziyyətə düşdüm. Dərhal atıma minib dağlara çapdım. Malikanənin qoruğunda, at belində ölümdən qaçmağa qalxan Tolstoyu xatırladım. Amma mən ölümdən yox, təzədən beynimi fikir girdabına salan duyğulardan, yırtıcı xəyallardan qaçırdım.

Dağın döşündə zərif bir mülk... Bağça qapısı taybatay açıq idi... Qəribədir!.. Evin qapısı da açıq idi... Bu evin Fransız mühəndislərindən birinə aid olduğunu düşündüm. Bağçaya girdim. Atı bağladım. Evə girdim. Heç kəs yox idi. Pəncərənin taxtalarını, şüşələrini döyəclədim. Heç bir səs-

səmir gəlmirdi... Zala boylandım. Stolda axşamdan qalma yağları donmuş yeməklər... Suları tökülməmiş stəkanlar və bir qramafon... Üstündə də plastinka... İynə də plastinkanın qurtardığı yerdə qaldırılmadan qalmış... Bəlli ki xarici mühəndislərdən birinin evi... Yəqin ki tanışlardan idi... Vizit kartımı stolun üstünə qoyarkən, "Əcəba, bu plastinkada nə var" deyə düşündüm. Qramafonu işə saldım. "Puççini"... "Puççini"nin bir operasından xor...

Elə bir müsiqi ahəngi ki, sanki torpaq yarılmış milyardlarla sümük qol fışqırmış, əzabdan qurtulmaq istəyirmiş kimi fəryad edirdi...

Çarpılıb qaldım. Dəfələrlə dinlədim. Qəlbimdəki duanın verdiyi yüngüllük və səadət hissi içində atıma atlayıb dördnala evə qayıtdım.

Bəli, bir dağın döşündə əsrarəngiz bir evdə, məni gözləyən əsrarəngiz bir musiqi...

Məni o xilas etdi.

Və 8 iyul, cümə axşamı... Gecə yarısı...

"-Neyləyim ana! Kəsdiniz əncir ağacını!..."

"Son"...

Həmin səhər, yuxudan ayılıb aşağı düşən "63 nömrəli mədən ocağı"nın mühəndisləri, məni qabağımdakı böyük külqabını siqaret kötükləri ilə doldurmuş, əsəri bitirərək dəftərə "Son" kəlməsini yazmış şəkildə gördülər...

***

Möhsün Ərtoğrul... Şəhər teatrındakı balaca otağında həyat yoldaşı Münirə (Neyirə Neyir) xanımla birlikdə əsəri dinləyirlər. Qurumuş göz yaşlarından üzləri qabıq bağlayıb... Elə bir təslimiyyət ki, bənzərsiz... Möhsün hamıyla əlaqəni kəsib İsveçrəyə gedəcək, rolunu orada əzbərləyib pyesdəki obrazını mənimsəyəcəkdi.

Vaxtıyla, "Toxum"un qisas duyğusu içində ona belə demişdim:

-Yeni əsərimlə taqətsiz halda sənə söykənə bilərəm?

- Söykənə bilərsən!...

İndi Möhsünün gözləri mənə deyirdi:

-Dediyin qədər də varmış!

Teatr... İlk tamaşa gecəsi... Görülməmiş izdiham... Kassalar bağlanmış, pəncərələr döyəclənməkdə... Bütün Babiali orada...

Əsərdə ifşa edilən bir naşir obrazı vardır. Bu məsələ tamaşadan öncə mətbut vasitəsiylə yayılmış, peşə heysiyyətinə toxunulduğu iddiası ilə bəzi söz-söhbətə səbəb olmuşdu. Buna görə də, Möhsün əsərdə, jurnalistlərə qarşı hər hansı bir təcavüzün olmadığını göstərmək üçün qısıq səs, tutuq ədayla kiçik bir məşqi mətbuat nümayəndələrinə göstərmişdi. Təkəbbürlü mətbuat nümayəndələri, gördüklərindən özlərinə pay çıxarmadan susmuşdular. Başa düşməmişdilər ki, şəxsən Babiali mənsubu olan Nəcib Fazil, canlandırdığı mənzərəni təqdim etməklə əsas vicdani dəyərləndirməni yenə də Babialiyə həvalə etmişdir.

İndi hamı orada, heyranlıqla qəzet naşiri obrazında öz səciyyəsini seyr etməkdədir...

Fasilələr arasında, İstanbulun professor, həkim, yazıçı, millət vəkili, tacir, müdir və s.kimi ən yüksək təbəqəsindən ibarət böyük bir izdiham, bir qaynama görülür, heyrətdolu səslər duyulurdu...

Möhsünü dəfələrlə səhnəyə çağırıb, müəllifi istədilər. Buna görə də Möhsün pərdəni artistlər üçün açmadan əvvəl məni gözlədi. Səhnədə, göz qamaşdırıcı işığa və elə gurultulu alqışa tutuldum ki, qulaqlarım batdı.

Əsər hər gün daha da diqqəti cəlb edərək oynanılırdı.... Möhsün xariqələr yaradırdı... Mən də hər gecə teatrda, lojaların arxasında gözə görünməmək şərtiylə əsərə tamaşa edirdim... Su kimi axan bu əsərdə bir vergül səhvi olsa belə o dəqiqə səhnənin arxasına qaçıb yanlışı xəbər verirdim...

Bir axşam yenə belə bir məsələyə görə səhnəyə qaçdım və Möhsünü lojasında əynində ağ xələtdə gördüm. Tələsik

qüsurları dedim. Bu vaxt Möhsün xələtini açıb, qoltuğunun altındakı hərarətölçəni göstərdi: Hərarət 38 dərəcədir...

- Bax, dedi Möhsün; mən belə hərarətlə oynayıram sənin əsərini... Heç xəstə də deyiləm!

Hərərəkətlərimdən utanıb ondan üzr istədim.

***

İlk tamaşa gecəsi, əsəri seyr elədikdən sonra, Burhan Torpaq, Peyami Səfa, Mustafa Şəkib və bir neçə Babiali əhli ilə birlikdə Bəyoğlundakı "Petroqrad" kafeteriyasında oturmuşduq...

Burhan yerindən atıldı:

- Bu adi əsərdir, yoxsa şahəsər?

Peyami susurdu...

Mustafa Şəkib düşünürdü...

Bir cavab verilə bilmir, bir qənaətə varıla bilmirdi.

Əsər olmağa gəldikdə, bu adi bir əsər deyildi!...

Şahəsər olmağa gəldikdə isə...

Əcəba, bu da nə deməkdir?..



*(Dərləmə / Böyük Doğu - 2003)*

## İÇİNDƏKİLƏR

İztirab çəkən ruhun dramı............................................................ 3

Bir adam yaratmaq. ......................................................................... 14

Əsərin yazılması və ilk tamaşası haqqında............... 164

**Nəcib Fazil Qısakürək**

**BİR ADAM YARATMAQ**

**(Azərbaycan türkcəsinə uyğunlaşdıran və nəşrə hazırlayan: Eşqanə Akif qızı Babayeva)**

Bakı, "Elm və təhsil", 2013, 172 səh .

*Bilgisayar tərtibi və dizayner:*
**Şəmsiyyə Əliyeva**



*Babayeva Eşqanə Akif qızı 1982-ci ildə Cəlilabad rayonunun Alar kəndində ziyalı ailəsində doğulmuşdur.*

*2000-2004-cü illərdə Qafqaz Universiteti filologiya fakültəsi Türk dili və ədəbiyyatı bölümünü "Universitet birincisi" olaraq bitirmiş, 2004-2006-cı illərdə isə Qafqaz Universitetinin həmin fakültəsinin magistr pilləsini fərqlənmə diplomu ilə başa vurmuşdur.*

*Qafqaz Universitetində müəllim kimi fəaliyyət göstərmişdir (2004-2009).*

*2006-2009-cu illərdə AMEA Nizami adına Ədəbiyyat İnstitunda filologiya elmləri üzrə fəlsəfə doktorluğu üzrə əyani doktoranturada təhsil almış, akademik Bəkir Nəbiyevin elmi rəhbərliyi ilə "Nəcib Fazil Qısakürəyin yaradıcılıq yolu" mövzusunda dissertasiyasını uğurla müdafiə etmişdir .*

*Hazırda, elmlər doktorluğu üzrə dissertanturada təhsil alır, XX əsr türk romanlarıyla bağlı tədqiqatlar aparır. "Nəcib Fazil Qısakürəyin yaradıcılıq yolu" adlı bir monoqrafiyanın müəllifidir. Respublikamızda və xarici ölkələrdə keçirilmiş bir çox elmi konfranslarda məruzələr etmişdir. Qırxa yaxın elmi məqalənin müəllifidir.*

*2010-cu ildən AMEA Nizami adına Ədəbiyyat İnstitutu Gənc Alimlər birliyinin sədridir.*

*"Türk xalqları ədəbiyyatı" məqalələr toplusunun məsul katibidir.*

*Nizami adına Ədəbiyyat İnstitutunda böyük elmi işçidir.*

NƏCİB FAZİL QISAKÜRƏK



# BİR ADAM YARATMAQ